Bu bir xalq qəzetidi
ƏDALƏT

## Bu şəxslər vergi ödəməyəcək

### Məcəlləyə dəyişiklik edilir

**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Hüquq siyasəti və dövlət quruculuğu və Gənclər və idman komitələrinin birgə iclasında Vergi Məcəlləsinə dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.**

Dəyişikliklə idman mərc oyunlarının (elektron idman mərc oyunlarının) lotereyalarla oxşar hüquqi rejimdə vergi qanunvericiliyi baxımından tənzimləməyə cəlb edilməsi nəzərdə tutulur, lotereyalardan və idman mərc oyunlarından pul şəklində əldə edilən 500 manata qədər (əvvəl 10 manat idi) uduşlar gəlir vergisindən azad edilir.

Layihədə, həmçinin aşağıdakılar nəzərdə tutulur;

- idman mərc oyunlarının (elektron idman mərc oyunlarının) lotereyalarla oxşar hüquqi rejimdə vergi qanunvericiliyi baxımından tənzimləməyə cəlb edilməsi, lotereyalardan və idman mərc oyunlarından pul şəklində əldə edilən 500 manatadək (əvvəl 10 manat idi) uduşların gəlir vergisindən azad edilməsi,

- idman mərc oyunlarının operatoru və idman mərc oyunlarının satıcılarının, habelə lotereya təşkilatçısı və lotereya biletlərinin satıcıları olan şəxslərin sadələşdirilmiş vergi ödəyicisi kimi təsbit olunması, habelə bu sahədə vergitutma obyektinin və vergi dərəcələrinin dəqiqləşdirilməsi. (operatorlar və təşkilatçılar dövriyyədən 6%, satıcılar isə onlara çatacaq komisyon haqqından 4%) azad edilməsi. Əvvəl gəlir və mənfəət vergisi ödəyirdilər.

## Mask: Dünyada ilk olacaq layihələri Türkiyə ilə edəcəyik



**Türkiyə ilə əməkdaşlığımızı səbirsizliklə gözləyirəm. Prezident Rəcəb Tayyib Ərdoğanla yenidən görüşmək istərdim.**

Bu sözləri "Tesla" və "SpeysX"şirkətlərinin qurucusu, iş adamı İlon Mask deyib.

"Türkiyə ilə birlikdə dünyada ilk olacaq bir çox layihələr həyata keçirəcəyik. Türkiyəyə səfərimi səbirsizliklə gözləyirəm", - deyə Mask bildirib. Qeyd edək ki, dünən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Tesla" və "SpeysX"şirkətlərinin qurucusu, iş adamı İlon Maskla videoformatda görüş keçirib.

## Bu il 156 adda silah və texnika istehsal edilib




**Bu il 156 adda silah və hərbi texnika istehsal edilib. Bunu müdafiə sənayesi nazirinin müavini Mehman Baxışov deyib. Onun sözlərinə görə, 1000-dən yuxarı adda müdafiə təyinatlı məmulat isə mənimsənilərək müvafiq qaydada istehsal edilib və Silahlı Qüvvələrin anbarlarına təhvil verilib.**

"İkinci Qarabağ müharibəsi vaxtı bizim müəssisələrimiz daimi iş rejimində fəaliyyət göstərib. Həm ötən illərdə istehsal olunan avadanlıqlar yoxlanılıb, həm də cəbhə bölgəsində zədələnmiş texnikalar dərhal bərpa edilərək geri göndərilib. Onu da qeyd edim ki, Müdafiə Sənayesi Nazirliyinin tabeli müəssisələrində istehsal olunan silah və hərbi texnikalara Silahlı Qüvvələr tərəfindən heç bir irad bildirilməyib" - nazir müavini əlavə edib.

## Daha bir ölkədə Azərbaycan Ticarət Evi açılır



**Tokioda Azərbaycan Ticarət Evi açılacaq. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.**

"Yaponiyanın ölkəmizdəki səfiri Cuniçi Vada ilə biznes dairələri arasında əlaqələrin genişləndirilməsi, investisiyaların təşviqi və Tokioda Azərbaycan Ticarət Evinin yaradılması barədə fikir mübadiləsi apardıq", - deyə nazir qeyd edib.

## TƏHSİL YAPONİYADA VƏ BİZDƏ

**"Güclü təhsil sistemi ilə tanınan Yaponiyada valideynlər uşaqların təhsilində o qədər yaxından iştirak edir ki, xəstələnmiş uşağın əvəzinə onlardan birinin, xüsusən də ananın dərsə getməsi, qeydlər götürməsi adi hal alıb".**

Bu statusu təhsil eksperti Kamran Əsədov paylaşıb.

Kamran müəllim, bizdə valideynlər yapon valideynlərdən təhsilə daha diqqətlidirlər. Uşaqların bütün ev tapşırıqlarını özləri eləyir, bütün günü məktəbdədirlər, müəllimlərin yanındadırlar, müəllimlərin bütün tapşırıqlarını yerinə yetirirlər. Hələ ali məktəbdə də uşaqlarının əvəzinə oxuyurlar.

Yadıma lap köhnə, mənim özümlə bağlı yazılmış bir anekdot düşdü.

Oğlum Tuncay orta məktəbdə oxuyanda gəlib deyir:

***- Ata, müəllim dedi ki, day innən belə riyaziyyatdan məsələ və misalları atana elətdirmə.***

***- Niyə?***

***- Dedi ki, onsuz da özün də iki ala bilirsən də.***

Yapon valideynlərdən fərqli olaraq bizdə valideynlər elə mənim oğlumun riyaziyyat məsələ-misallarını həll etdiyim kimi uşaqlarına kömək edirlər.

## "AZADLIQ RADİOSU"NUN ERMƏNİSTANDAN ÇƏKDİYİ BİR REPORTAJ HAQQINDA İKİ-ÜÇ KƏLMƏ

***"Azadlıq radiosu"nda Ermənistandan çəkilmiş bir reportaja baxdım. Ermənilərin dağ kəndinin sakinləri giley edirlər ki, Azərbaycan ərazisinə keçmək üçün məcburdurlar dağ yolları ilə, çətin şəraitdə gedib-gəlsinlər. Kəndə nə Təcili yardım gələ bilir, nə də çörək maşını. Bir sözlə, ağlaşma qurmuşdular. Yenə heç olmasa siz çətin dağ yolları ilə öz kənd-kəsəyinizə gedib-gələ bilirsiniz. Bəs bizlər nə edək? Öz doğulduğumuz, böyüyüb-başa çatdığımız kəndlərimizə hələ gedə bilmirik. İstəyəndə Azərbaycan ərazisindəki kilsələriniz də üzünüzə açıqdır. Sülhməramlıların yengəliyi ilə əvvəllər yadınıza düşməyən kilsələrin yolunu indi dünyaya göstərmək üçün su yoluna döndərmisiniz.***

***Sülhməramlılar yengəlik vəzifəsini bizə niyə yerinə yetirmirlər?***

***Eybi yox, 2-3 il də gözləyərik.***

## İNGİLTƏRƏNİN SƏFİRİNİN ƏLİ AŞAĞI DÜŞÜB

**O gün bazarlıq eləmək üçün Sədərəkə gedib.**



Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 103 (5935) 18 dekabr 2021-ci il | Qiyməti 30 qəpik

## "Ədalət" qəzetinin əməkdaşı MEDİA-nın müsabiqəsində qalib oldu



**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən noyabrın 23-də elan edilmiş "MEDİA - Fərdi jurnalist müsabiqəsi"nin nəticələri açıqlanıb.**

"Ədalət" qəzetinin əməkdaşı Emin Piriyev (Piri) "MEDİA - Fərdi jurnalist müsabiqəsi"nin "Ən yaxşı oçerk" nominasiyasının birincisi olub.

Qeyd edək ki, MEDİA noyabrın 23-də fərdi jurnalist müsabiqəsi elan etmişdi. Agentlik dekabrın 14-də müsabiqənin nəticələrini açıqlayıb.

# İlham Əliyev: "Qondarma statusa qayıdış yoxdur"



Bax:səh-2



**Paşinyan:**

**- İlham müəllim, ağsaqqalımı da götürüb gəlmişəm, bütün elədiklərimizə görə üzr istəməyə.**

### Oxucuların nəzərinə

**Qəzetimizin növbəti sayını dekabrın 24-də oxuya bilərsiniz.**

## Sənətindən yazırsan, oxumurlar, "narkoman" deyirsən, oxuyurlar...



**Dünən "adalet.az"-da Vaqif Mustafazadə haqqında içimdən gələnləri yazmışam. Bu gün baxıram ki, cəmi-cümü 80 oxunuşu var. Səksən...**

Yazsaydım ki, Vaqif Mustafazdə içki düşkünü olub, narkoman olub, qızbaz olub, əminəm, yazı partlayardı. Və bu yazını pəh-pəhlə oxuyanlar da elə özləri gəlib bir-iki ağız dədəmin goruna söyüb, məni erməni çıxarıb gedərdilər.

Vaqif Mustafazadə də sağ deyil ki, gəlib məhkəməyə versin, işim cəncələ düşsün.

Qızı Əzizə xanımın başı öz sənətinə qarışıb, nəyinə lazımdır ki, Eminquey nə yazıb?!

İnsanımız dünyayla elmdə ayaqlaşmır, mədəniyyətdə, inkişafda ayaqlaşmır, ancaq belə şeylərdə ayaqlaşmaqda hamıdan birincidir.

Və elə bu insanlar da gəlib "filankəsin sənətindən yazın" kimi iradlarla adamın üzünə dururlar.

**İndi düşünürəm, görəsən, kimə ilişim? Kimi narkoman çıxarım? Kimə böhtan atım?**

## Bakının Brüssel gündəliyi

Bax: səh.4



**RAUF QƏRİB ALAGÖZ: Bu ilin 9 ayı ərzində 46100 evlənmə və 14316 boşanma olub. Təxminən üç ailədən biri dağılır. Boşanır yox ha, dağılır.**

**Nəhayət, avropalaşırıq, müasirləşirik, arzularımıza çatırıq.**

**Və bütün hallarda itirən uşaqlar olur.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***



## BİZƏ NİYƏ QƏZET LAZIM DEYİL?

*(I məqalə)*

***Rəhmətlik Şirməmməd Hüseynovun bir sözü vardı, deyirdi: "Bolşeviklər hakimiyyətə qəzetlər vasitəsilə gəldilər. Və qəzetlərin gücünü bildiklərinə görə sonra bütün qəzetləri bağladılar".***

***Və sonra da öz qəzetlərini açdılar. İçində dişə vurmağa heç nə olmayan "Kommunist" qəzeti 500 min tirajla, gənclərin heç bir ümdə problemlərinə toxunmayan "Azərbaycan gəncləri" 600 min tirajla çıxırdı. Və günortadan sonra da köşkdə qalmırdı.***

***İndi deyirlər qəzetlər alınmır, oxunmur. Bu camaat qəzeti hardan alsan? "Qasid" firması vardı Bakıda, şəhəri qəzetlə təmin edirdi. Bağlandı, köşkləri götürüldü. "Qaya" firması var, onu da elə günə qoyublar ki, "Molla Nəsrəddin"in təbirincə desək, quş həddinə düşüb. Metroda qəzet satışına icazə verilmir. Küçələrdə əldə qəzet satmaq dayandırılıb. "Mətbuatyayımı" da birtəhər başını girəliyir və deyəsən, son günlərini yaşayır. Bu boyda firma özəlləşdirilib, niyə və nə üçün?***

**Bax: səh.2**

## BU YERDƏ BƏXTİYAR VAHABZADƏ DEYƏRDİ: "GET BUNUN ÇORTUNA, GÖR NƏ GÖRƏRSƏN?"

Bir tülkünün quyruğu qayanın altında qalır. Xilas olmaq üçün məcbur qalıb quyruğunu kəsir.

Yolda gedəndə başqa bir tülkü bunu görüb soruşur:

***- Quyruğunu niyə kəsmisən?***

Quyruğu kəsik olan tülkü deyir:

***- Belə çox gözəldir, özümü çox xoşbəxt hiss edirəm, sevincimin həddi-hüdudu yoxdur.***

Bunu eşidən digər tülkü də gedib quyruğunu kəsir. Şiddətli ağrılar içində məsləhət verən tülkünün yanına gəlib deyir:

***- Niyə yalan danışdın? Axı bu çox pisdir, ağrıdan ölürəm.***

Birinci tülkü deyir:

***- Əgər quyruğunun kəsilməsini ağrıverici və pis olduğunu digər tülkülərə desən, heç bir tülkü quyruğunu kəsməz və bizimlə məzələnərdi.***

Beləliklə, bu iki tülkü quyruğunun kəsilməsini "yaxşı və xoşbəxtverici" olduğunu bütün tülkülərə danışmağa başlayır.

Bir müddət sonra əksər tülkülər quyruğunu kəsir və quyruğu kəsik olmayan tülkülər azlıq təşkil etdiyinə görə qüsurlu hesab olunmağa başlayırlar. Quyruğu kəsiklər quyruğu kəsik olmayanlarla məzələnirlər.

Həyat da belədir.

Əvvəlcə pisliyi, saxtakarlığı və s. təbliğ edirlər, sonra yaxşı, dürüst, pak insanlara anormal kimi baxırlar.

**Rauf Qərib ALAGÖZ**

***İradə TUNCAY***
***iradetuncay@rambler.ru***

## Üç kəlmə



## VƏ DÜNYANIN MIX MƏLLİMLƏRİ

**Böhran, xəstəlik, müharibə... Bu sözləri dəfələrlə təkrar eləmək olar - mahiyyət dəyişməyəcək. Məzmuna da yeni çalar qatmaq olacaq. Müharibə ağrıdı, od-alovdu, göz yaşıdı. Ölümdü... Xəstəlik də eyni... Böhran isə hər birini eyni müstəvidə birləşdirə bilər. Böhran qıtlıq yaradır - hər mənada. Bunları neçə illərdi həyatımızda yaşayırıq. İqtisadi böhran müharibələrə rəvac verir.**

**Milləti millət kimi formalaşdıran çox amillər var. Tarixi, mədəniyyəti, etiqadı, dili, əxlaqı və ideologiyası. Gəlin bir düşünək. Əxlaq min illərlə formalaşır. Əgər az vaxta belə dəyişə bilibsə, özünüz fikirləşin. Kommunistlərin allahsızlıq siyasəti dövründə müəyyən bir miqdar pula dinini dəyişən olmurdu. Tariximizi kim necə istəyib o rəngdə boyayıb. Dilimiz... Yüksək rütbəli məmurlar dilimizdə necə danışırlarsa, fikirləşirsən ki, bu hansı dildi, kimin dilidi? Mədəniyyətimiz haqqında da heç nə demirəm. Ən əsası isə bütün bunların toplusu olacaq milli ideologiya. Gəldik yenə ideologiyanın üstünə. Müxalifətin qrant, hökumətin kreslo davası.**

**Bax: səh.3**

## MARSEL ERMƏNİ ŞƏHƏRİDİR



**Avropa Konfrans liqasında rəqibimiz Fransanın "Marsel" klubudur. Baxıram ki, futbolsevərlər bundan bərk dilxor olublar, ona görə ki, bu şəhərdə 80 min erməni yaşayır. Yəni erməni şəhəridir.**

Əziz futbolsevərlər, 44 günlük müharibədə ermənilərin dalından nə təhər dəydiksə, "Qarabağ"ın köhlən atları inşallah, Marseldə də şahə qalxacaq, "Marsel"ə ot yolduracaq və köhlən atların kişnərtisindən Marseldəki ermənilər gizlənməyə deşik axtaracaqlar.

Narahat olmayın!

Tanrı bizimlədir! Tanrı "Qarabağ"ladır!

Koroğlu nə təhər deyir:

**Hoydu köhlən atlarım, hoydu,**
**Yeriyin "Marsel" üstünə.**




**Bakıda 13 minə it yuvası satılır.**

### GÜNÜN LƏTİFƏSİ



Zakir Fəxrini 15 sutka həbs edirlər. Kamera olanlardan biri soruşur ki, "səni nə üstə həbs ediblər?"

Zakir Fəxri:

**- Qu quşlarına çörək atdığıma görə.**

Kamera yoldaşı təəcüblə:

**- Quşlara çörək atmağa görə də adamı həbs edərlər?**

Zakir Fəxri:

**- Əşi mən Opera Balet teatrında "Qu gölü" baletindəki quşlara çörək atırdım.**

## Prezident İlham Əliyev Qətər Əmirini təbrik edib



**Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə təbrik məktubu göndərib.**

Məktubda deyilir:

"Əlahəzrət,

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan-Qətər münasibətləri dinamik inkişaf yolundadır. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ənənəvi dostluq əlaqələrimizi genişləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

## Fəxrəddin Miralayevə Prezidentin fərdi təqaüdü verildi

**Prezident İlham Əliyev F.B.Miralayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamla "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alınır:

- Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə Fəxrəddin Böyük oğlu Miralayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## Azərbaycanda minimum aylıq əməkhaqqı artırıldı

**Prezident İlham Əliyev Minimum aylıq əməkhaqqının məbləğinin artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.**

Sərəncamla "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar qərara alınır:

- Minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilsin.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti:
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.
- "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1102) 1-ci hissəsi ləğv edilsin.
- Bu Sərəncamın 1-ci və 3-cü hissələri 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

# "Dağlıq Qarabağ münaqişəsi artıq yoxdur. Biz gələcəyə baxmalıyıq"

**Belçika Krallığının paytaxtı Brüsseldə Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığının VI Sammiti keçirilib. Sammitdə iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər edən Azərbaycan Prezidenti İlham Əliyev tədbirə qatılan ölkə rəhbərləri ilə görüşlər keçirib, İspaniyanın "El Pais" qəzetinə müsahibə verib. Bununla yanaşı Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib. O cümlədən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında görüş olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə nahar əsnasında birgə görüş keçirilib. NATO-nun Baş katibinin dəvəti əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Alyansın Baş katibi Yens Stoltenberq arasında görüş olub Alyansın mənzil-qərargahında birgə mətbuat konfransı keçirilib.**

Ölkə rəhbərimizin NATO-nun Baş katib Yens Stoltenberqla görüşü zamanı baş katib əlaqələrin sıxlığını xüsusi vurğulayıb. Azərbaycanın Alyansın dəyərli tərəfdaşı olduğunu qeyd edən Yens Stoltenberq Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirib: "Azərbaycan bizim Əfqanıstandakı sabiq missiyamıza mühüm töhfələr vermişdir və Azərbaycan Silahlı Qüvvələri Kabil hava limanında bu yay aparılan təxliyə işləri zamanı təhlükəsizliyin təmin edilməsində mühüm rol oynamışdır. NATO müttəfiqləri bir neçə gün ərzində 120 mindən çox insanın təyyarə ilə çıxarılaraq təhlükəsizliyinə nail olmuşdur. Bütün səyləriniz və dəstəyiniz üçün çox sağ olun".

Öz növbəsində ölkə rəhbərimiz bildirib ki, Azərbaycan NATO-nun etibarlı tərəfdaşıdır və bu, artıq onun Alyansın mənzil-qərargahına yeddinci səfəridir: "Azərbaycan NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib. Biz Əfqanıstandakı sülhməramlı missiyamıza 2002-ci ildə başladıq və bu il avqustun sonunda onu bitirdik. Azərbaycan hərbiçiləri Əfqanıstanı sonuncu tərk edən koalisiya qüvvələrinin hərbçiləri arasında idi. Əlbəttə ki, bu birlikdə işləməyin böyük bir təcrübəsidir. Bu gün biz, həmçinin əməkdaşlıqla bağlı gələcək planlarımızı müzakirə etdik. Azərbaycan NATO-nin hərbi təlimlərində iştirak edir. Eyni zamanda, biz NATO-nun hazırki və aparıcı üzvlərindən biri olan Türkiyə ilə yalnız bu il yeddi birgə hərbi təlim keçirmişik. Bu da regionda sülh və sabitlik işinə xidmət edir".

Görüşdə Azərbaycanın 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı ilə tərəfdaşlığının vacibliyi vurğulanıb və bu çərçivədə ölkəmizin NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında və digər proqramlarında fəal iştirak etdiyi, Azərbaycan Silahlı Qüvvələri ilə NATO Silahlı Qüvvələri arasında operativ hərbi uyğunlaşmanın inkişaf etdiyi diqqətə çatdırılıb.

Səfər çərçivəsində keçirilən görüşlərdə və tədbirlərdə Avropanın enerji təhlükəsizliyi məsələsi də müzakirələrin predmeti olub. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol xüsusi qeyd olunub. Dövlətimizin başçısı Azərbaycanın enerji təchizatı sahəsində etibarlı tərəfdaş olduğunu vurğulayaraq ölkəmizin alternativ mənbə və alternativ xətt üzrə Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyini qeyd edib. İ.Əliyev NATO-nun 20-yə yaxın ölkəsinin Azərbaycandan neft idxal etdiyini, həmçinin Alyansın 4 ölkəsinin, o cümlədən Türkiyənin Azərbaycandan qaz idxal etdiyi və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi imkanlarının olduğunu diqqətə çatdırıb.



Brüsseldə Azərbaycan-Ermənistan münasibətləri, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlər də müzakirə mövzusu olub. Ölkə rəhbərimiz bildirib ki, Azərbaycan sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqdir. Bizim səylərimiz regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsi məqsədi daşıyır. Bunun üçün ən yaxşı yol kommunikasiyaların açılması, aktiv dialoqun qurulması və yenidən qonşu olmağı öyrənməkdir. Bizim siyasətimiz çox açıq və aydındır. Ümidvaram ki, əgər Ermənistan tərəfindən xoş məram olsa, biz təklif etdiyimiz kimi iki ölkə arasında sülh razılaşması üzərində işləyə və düşmənçiliyə son qoya bilərik.

"Dağlıq Qarabağ münaqişəsi artıq yoxdur. Biz gələcəyə baxmalıyıq"-deyən İ.Əliyev ATƏT-in Minsk qrupunun roluna toxunaraq 28 il ərzində aparılan danışıqlarda hər hansı bir nəticənin hasil olmadığını diqqətə çatdırıb. Azərbaycanın ATƏT-in Minsk qrupundan yeni geosiyasi reallığa uyğun cavab gözlədiyini qeyd edən ölkə başçısı bildirib ki, bu xüsusda Azərbaycan tərəfi hesab edir ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri və digər məsələlərdə Minsk qrupu tərəfindən kömək göstərilə bilər. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə minalar məsələsinə toxunaraq Azərbaycanın mülki vətəndaşlarının minalardan əziyyət çəkdiyini və bu günə qədər 200-ə yaxın insanın mina partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını bildirib. Bu xüsusda Avropa İttifaqı və üzv dövlətlər tərəfindən Azərbaycana mina probleminin aradan qaldırılması üçün texniki və maliyyə yardımının göstərilməsinin vacibliyini diqqətə çatdırıb. Tədbir iştirakçılarına Ermənistanla bağlı kommunikasiyaların açılması ilə bağlı fikirlərini bölüşən Azərbaycan prezidenti bildirib ki, Zəngəzur dəhlizi regionun simasını dəyişdirəcək layihədir. Zəngəzur dəhlizi ilə bağlı kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da Rusiya Prezidenti, Ermənistanın baş naziri və Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən imzalanmış üçtərəfli Bəyannamədə öz əksini tapıb. Bu səbəbdən bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir. Bütün çətinliklərə rəğmən Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvan Muxtar Respublikasına dəmir yolu, həmçinin magistral yol inşasına dair razılıq əldə edilmişdir. Lakin magistral yolun dəqiq marşrutu hələ ki, müəyyən olunmayıb.

Ölkə rəhbəri bildirib ki, Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi kimi olmalıdır. Üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir. Bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də, Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda Azərbaycan Laçın dəhlizində eynisində israr edəcək.

Regional nəqliyyat əlaqələrinin inteqrasiyası dövlətlər üçün yeni imkanlar qazandıracaqdır. Zəngəzur dəhlizi təkcə Naxçıvan Muxtar Respublikasına çıxış əldə etmək deyil, həm də Ermənistanın Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi üçündür. Ermənistan həm də Azərbaycan ərazisindən Rusiya ilə dəmir yolu əlaqəsi əldə edir. Səfər çərçivəsində Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü baş tutub. Görüşdə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi məsələsi bir daha gündəliyə gətirilib. Qeyd edək ki, Aİ tərəfindən bu istiqamətdə texniki yardımın göstərilməsi nəzərdə tutulur. Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəlinib.Bildirilib ki, kommunikasiya və nəqliyyat xətlərinin açılması, o cümlədən Ermənistan ərazisindən dəmir yolu xəttinin çəkilməsi, gömrük, sərhəd nəzarət məsələlərinin və avtomobil yolunun marşrutu qarşılıqlı prinsip əsasında təmin olunmalıdır. Aİ-nin təşəbbüsü ilə keçirilmiş görüşün nəticələrinə dair Azərbaycanın haqlı mövqeyini təsdiq edən Bəyanat imzalanıb. Bəyanatda bildirilir ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin aradan qaldırılması və Cənubi Qafqazda sülhün bərqərar olunması üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsi imzalanmalıdır. 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklər yerinə yetirilməlidir. Aİ predmetli danışıqların tərəfdarıdır. Aİ minatəmizləmə səylərinə, münaqişədən əziyyət çəkmiş insanlara, xüsusilə yenidənqurma fəaliyyətlərinə öz dəstəyini ifadə edir. Sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində də Aİ tərəfindən məşvərətçi statusda dəstək göstərilə bilər. Aİ Cənubi Qafqaz regionunda iqtisadi əməkdaşlığın inkişafını dəstəkləyir və yeni birgə iqtisadi əməkdaşlıq platformasının yaradılmasını təklif edir. Aİ regionda kommunikasiya infrastrukturunun yaradılması, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılması və inkişaf etdirilməsinin tərəfdarıdır. Aİ iqtisadi və investisiya resursları vasitəsilə icra olunacaq layihələri dəstəkləyəcəkdir. Eyni zamanda sözügedən qurum dəmir yolu xəttinin çəkilməsi, gömrük və sərhəd nəzarətinin qarşılıqlılıq prinsipi əsasında təşkil olunmasının tərəfdarıdır.

**Ümumiyyətlə qeyd etmək lazımdır ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir. Aİ ilə Azərbaycan arasında 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədi səmərəli əməkdaşlığın hüquqi təminatçısıdır. Azərbaycanla Aİ arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxu artıq başa çatıb. Aİ-nin 9 üzv dövləti, yəni, quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzalanıb. İkitərəfli əsasda imzalanmış strateji tərəfdaşlıq sənədləri əməkdaşlığın perspektivliyindən xəbər verir. Enerji sahəsindəki əməkdaşlıq uğurla inkişaf edir. 3500 kilometr uzunluğu olan Cənub Qaz Dəhlizinin XXI əsrin ən böyük infrastruktur layihələrindən biridir. Layihənin son komponenti olan Trans-Adriatik xəttinin işə salınması ilə Azərbaycan qazıAvropa məkanına çatdırılır. Azərbaycan qazı artıq Aİ-nin üç ölkəsinə - İtaliya, Yunanıstan və Bolqarıstana çatdırılır. Gələcəkdə Azərbaycan qazının ixrac coğrafiyası Aİ-nin digər üzv ölkələrinə genişləndirilə bilər.**

**Nicat Novruzoğlu**

# FÖVQƏLADƏ HALLAR NAZİRİ, GENERAL-POLKOVNİK KƏMALƏDDİN HEYDƏROV CƏNABLARINA



**Çox hörmətli Kəmaləddin müəllim!**

**Cənab General!**

Məlum olduğu kimi 16 dekabr Azərbaycanda Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşə bayramı günüdür. Bu münasibətlə Sizi və Sizin şəxsinizdə FHN-in bütün əməkdaşlarını peşə bayramı günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə can sağlığı və Azərbaycanımız naminə gördüyünüz işlərdə daha böyük uğurlar diləyirik.

**Cənab General!**

Ümummilli Liderimiz Heydər Əliyev cənablarının layiqli davamçısı, Azərbaycan prezidenti, Ali Baş Komandanımız İlham Əliyev cənablarının daimi diqqət və qayğısı ilə əhatə olunmuş Azərbaycan Fövqəladə Hallar Nazirliyi yarandığı gündən təkcə ölkə sərhədləri daxilində deyil, onun hüdudlarından kənarda da öz peşəkarlığı və xilaskar missiyası ilə böyük nüfuz qazanmışdır. Bu mənada qardaş Türkiyədəki meşə yanğınları zamanı, eləcə də Rusiyada, Ukraynada baş verən təbii fəlakətlərdə Azərbaycan FHN-çilərinin yaxından iştirakı ölkəmiz üçün böyük şərəf olmuşdur. Bu şərəfi də Azərbaycana Sizin rəhbərliyiniz altında xidmət göstərən FHN-çilər qazandırmışdır.

**Cənab General!**

Bu bir tarixi həqiqətdir ki, 44 günlük Böyük Vətən Müharibəmizdə Sizin rəhbərlik etdiyiniz nazirliyin şəxsi heyəti son ana qədər ön sırada olmuş və göstərdikləri qəhrəmanlıqla qələbəmizdə imzalarını təsdiqləmişdilər. Onların qəhrəmanlığı bu qələbəmizin təmin edilməsində önəmli rol oynamışdır. FHN-çi şəhidlərin və qazilərin xidməti tariximizə yazılmışdır.

**Cənab General!**

Bu gün Sizin rəhbərliyiniz altında Azərbaycan FHN-çiləri ölkə prezidentinin bütün tələb və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirməklə bir daha sübut edir ki, bu sahə etibarlı əllərdədir və burada xidmət edənlər Prezidentinə, Xalqına sadiq insanlardır. Onlar lazım gələndə ölümün gözünə dik baxmaqdan çəkinmirlər.

Bir daha Sizi və bütün FHN-çiləri peşə bayramınız münasibətilə ürəkdən təbrik edirik.

**Hörmətlə:**
**Millət vəkili Aqil ABBAS,**
**və "Ədalət" qəzetinin kollektivi**

***Aqil ABBAS***

# BİZƏ NİYƏ QƏZET LAZIM DEYİL?

*(I məqalə)*

***Rəhmətlik Şirməmməd Hüseynovun bir sözü vardı, deyirdi: "Bolşeviklər hakimiyyətə qəzetlər vasitəsilə gəldilər. Və qəzetlərin gücünü bildiklərinə görə sonra bütün qəzetləri bağladılar".***

***Və sonra da öz qəzetlərini açdılar. İçində dişə vurmağa heç nə olmayan "Kommunist" qəzeti 500 min tirajla, gənclərin heç bir ümdə problemlərinə toxunmayan "Azərbaycan gəncləri" 600 min tirajla çıxırdı. Və günortadan sonra da köşkdə qalmırdı.***

***İndi deyirlər qəzetlər alınmır, oxunmur. Bu camaat qəzeti hardan alsan? "Qasid" firması vardı Bakıda, şəhəri qəzetlə təmin edirdi. Bağlandı, köşkləri götürüldü. "Qaya" firması var, onu da elə günə qoyublar ki, "Molla Nəsrəddin"in təbirincə desək, quş həddinə düşüb. Metroda qəzet satışına icazə verilmir. Küçələrdə əldə qəzet satmaq dayandırılıb. "Mətbuatyayımı" da birtəhər başını girəliyir və deyəsən, son günlərini yaşayır. Bu boyda firma özəlləşdirilib, niyə və nə üçün?***

***Hər rayonda bir qəzet köşkü var. Elə rayon var ki, heç o köşk də yoxdu.***

***Bakıdakı qəzet köşkləri də əslində univermaqdı və qəzet satmağa da maraqlı deyillər.***

***Əslində ölkədə qəzetlərin bərəkətinə Əli Həsənov oturdu və qəzetləri üç kateqoriyaya böldü. Və kateqoriyaları da özü müəyyənləşdirdi: iyirmi neçə ildi gündəlik çıxan qəzetləri 2-ci kateqoriyaya , on beş ildi çıxan və cəmiyyətdə heç bir nüfuzu olmayan qəzetləri 1-ci kateqoriyaya. Ən çox oxunan idman qəzetləri heç kateqoriyaya da düşmədi. Sonra 2-ci kateqoriyalara da əl gəzdirdilər - "Ayna-Zerkalo", "Bizim yol" kimi nüfuzlu qəzetlər də fəaliyyətini dayandırdı.***

***Qəzet tarixdi. Əlyazmalar yanmadığı kimi, qəzetlər də yanmır. Düzdür, Azərbaycanda bir dəfə qəzet yandırmışdılar, Göyçayın rayon qəzetini. Amma Heydər Əliyev xəbər tutan kimi Mərkəzi Komitənin şöbə müdirindən tutmuş Göyçay rayon Partiya Komitəsinin birinci katibinə kimi nə qədər adamı işdən çıxartdı. Mərkəzi Komitənin ideoloji katibinə də töhmət vermişdi .***

***Yəni gələcək nəsillər bugünki Azərbaycan haqqında nəsə bir məlumat öyrənmək istəsələr, eləcə də 44 günlük Zəfər tariximizi öyrənmək istəsələr qəzetlərdən öyrənəcəklər. Gündə biri açılan, biri bağlanan, açarı da Markın, Bill Qeytsin əlində olan saytlardan yox.***

***Qəzetlə saytın bir fərqi də var. Qəzet yazdığı qalır, yuxarıda dediyimiz kimi, saytda isə istənilən yazını çıxarmaq üçün bir telefon zəngi bəsdi.***

***İndi sayt açmaq dəbdi və bir də hərə əlinə bir telefon alıb internet televiziya açır. Bir-iki internet televiziyasını da çıxmaq şərtilə baxış sayı 500-600, uzaqbaşı 1000 nəfər.***

***Belə getsə, ölkədəki bütün qəzetlər fəaliyyətini dayandırmalı olacaq.***

***P.S. 30 ildi gündəlik çıxan, dövlətçiliyə, millətə, Möhtərəm Prezidentin daxili və xarici siyasətinə qulluq edən "Ədalət" qəzeti elə kateqoriyaya salındı ki, indi həftədə bir dəfə çıxmaq məcburiyyətindəyik. Görək gələn il nə olacaq?***

# İlham Əliyev: "Qondarma statusa qayıdış yoxdur"

**Prezident İlham Əliyevin İspaniyanın "El Pais" qəzetinə müsahibə verib. Müxbirin Azərbaycan - Ermənistan hazırki durumu ilə bağlı suallarını cavablandıran Prezident İlham Əliyev bildirib ki,Rusiya sülhməramlı qüvvələrinin Qarabağda məsuliyyət daşıdığı ərazidə vəziyyət Ermənistan-Azərbaycan sərhədində olan vəziyyətlə müqayisədə daha çox sabitdir. "Ermənistan qisas almaq cəhdlərindən vaz keçmir. İkinci Qarabağ müharibəsində məğlubiyyət onlar üçün çox ağrılı oldu. Məğlubiyyət onların otuz ildir davam edən "yenilməz ordu", "əsgər və komandirlərin cəsarəti" haqqında müharibə təbliğatını və ideoloji zəminini darmadağın etdi. 44 gün davam edən müharibə zamanı Ermənistan ordusu tamamilə məhv edildi və onlar ötən il noyabrın 10-da kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalaraq bizim 44 günlük müharibədə geri almadığımız əraziləri geri qaytarmağa razılıq bildirdilər. Buna görə də Ermənistan cəmiyyətində, siyasi spektrində revanşizm əlamətləri görünür. Onlar dövlət sərhədində hərbi təxribatlar törətməyə cəhd göstərirlər".**

Azərbaycanın guya Ermənistan ərazilərinə müdaxilə etməsi ilə bağlı beynəlxalq aləmdə qaldırdığı hay-küy cəhdlərinə aydınlıq gətirən Azərbaycan Respublikasinin Prezidenti qeyd edib ki, Ermənistanın ərazisinə Azərbaycanın hər hansı bir səbəb olmadan müdaxilə etməsi ilə bağlı rəsmi İrəvanın iddiaları əsassızdır. Azərbaycan və Ermənistan arasında dövlət sərhədi təyin olunmayıb. Buna səbəb 1990-cı illərin əvvəlində hər iki ölkənin müstəqilliyinin bərpasından dərhal sonra Azərbaycanın həmin hissəsinin işğalının baş verməsidir. "Ötən ilin noyabrında İkinci Qarabağ müharibəsi bitəndə ərazidə iqlim şəraiti əlverişsiz idi. Qar əriməyə cari ilin may ayında başladı və dərhal Azərbaycan Ordusu dövlət sərhədinə tərəf hərəkət etməyə başladı. Sərhədin haradan keçməsi ilə bağlı olan anlayışımıza əsasən, ordumuz dövlət sərhədində mövqe tutdu".

Ermənistanın daxilində məğlubiyyətdən dərs çıxarmayan qüvvələrin revanş cəhdləri ilə bağlı Prezident bildirib ki, "Bütün təhdid yarada biləcək cəhdlərin qarşısı alınacaqdır. Azərbaycan sülhün tərəfdarıdır. Ona görə də Azərbaycan rəsmi İrəvanın manevrlərini, yenidən qruplaşmalarını və təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün cəhdlərini izləyir. Bütün təhlükələr dərhal aradan qaldıracaqdır".

Müsahibə zamanı Azərbaycan Respublikasının Prezidenti sülh danışıqları, sülh müqaviləsi ilə bağlı dəfələrlə söylədiyi möqeyini bir daha ortaya qoydu: "Azərbaycan Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazırdır. Ermənistan rəhbərliyindən heç bir cavab verilməyib. Bu, onların sülh istəmədiyini göstərir, çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir. Ermənistan öz əsassız bəyanatları ilə danışıqlar prosesini məhv etdi. İndi Ermənistanın sanki bu məsələ ilə bağlı heç bir mövqeyi yoxdur. Ümid edirik ki, Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər".

10 noyabr 2020-ci il tarixli, Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı razılaşmanın həyata keçirilməsi ilə bağlı Azərbaycan, Ermənistan və Rusiya Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrup çərçivəsində görüşlərin davam etdiyini bildirən İlham Əliyev dedi ki, "Bu işçi qrupun əsas məqsədi və vəzifəsi kommunikasiyaların açılmasıdır. Danışıqların bir neçə mərhələsi nisbətən uğurlu olub. İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var. Avtomobil yolunun açılmasının qaçılmaz olduğuna dair aydın təsəvvürlər mövcuddur. Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimimüzakirə olunur. Hava məkanı artıq aktivləşib. İndi Azərbaycan Hava Yollarının Bakıdan Naxçıvana uçan təyyarələri Ermənistan hava məkanından keçməyə başlayıb".

"Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün zəminin yaradılmasına çoxlu töhfə verir. Prezident Mişelin bu yay regiona səfəri çox məhsuldar olub. Hər iki ölkənin müdafiə nazirləri arasında birbaşa əlaqənin yaradılması ilə bağlı olan təşəbbüs də işləyir. Avropa Komissiyası Cənubi Qafqazda sabit mühit və gələcəkdə üç Cənub Qafqaz ölkəsi arasında qarşılıqlı əlaqənin üçtərəfli formatı üçün şərait yaratmağa istəkli və hazırlıqlı olduğunu açıq-aydın göstərir".

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsində yaşamaq istəyən erməni anklavının stusları məsələsinə də aydınlıq gətirib: "Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur. Azərbaycanın mövqeyi tamamilə açıq və aydındır. Biz sülh istəyirik, müharibə istəmirik. Azərbaycan müharibədə qalib gəlib və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Beynəlxalq oyunçular artıq yeni reallığı qəbul edib və gələcəyi bu yeni reallığa əsaslanaraq qurmağa çalışırlar. Ermənistan Azərbaycana qarşı istənilən düşmənçilik əməllərindən çəkinməli, Azərbaycana qarşı ərazi iddialarından çəkinməlidir

Ermənistan hökumətinin azərbaycanlılara qarşı nifrətin aşılanmasına əsaslanan ictimai rəyin arxasında dayanmaması və normallaşma prosesində öndə getməsi vacibdir. Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycan və Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasından keçir. Bu istiqamətdə ictimai rəy formalaşdırılmalıdır".

Prezident İlham Əliyev beynəlxaq qurumların münaqişənin həllində rolu məsələsinə də aydınlıq gətirib: "Rusiya və Avropa İttifaqı əsas beynəlxalq oyunçulardır. İki ölkə arasındakı münasibətlərin normallaşması üçün Rusiya və Avropa İttifaqıhəqiqi istəyini nümayiş etdirir. Burada hər hansı rəqabət yoxdur. Uzunmüddətli sülhdə maraqlı olan beynəlxalq ictimaiyyətin, təsisatların, ölkələrin bu səyləri çox müsbət nəticə verə bilər. Uzun illər davam edən işğaldan və düşmənçilikdən sonra beynəlxalq oyunçular prosesə birmənalı şəkildə dəstək nümayiş etdirməlidirlər.

30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerlə-yeksan edilib. Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər. Ağdam mövcud deyil, Füzuli mövcud deyil, tamamilə yerlə-yeksan edilib. Ona görə də, təbiidir ki, Azərbaycanda çox sayda insanın, xüsusilə əzizlərini itirən, ərazilərini itirən insanların Ermənistana qarşı mənfi hissləri var.

İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycan Ermənistandan qabaq bütün hərbi əsirləri azad etdi. Beynəlxalq müşahidəçilər bunu sübut edə bilərlər. Hazırda saxlanılan şəxslər hərbi əsir hesab edilə bilməzlər, çünki onların əksəriyyəti noyabrın sonunda, müharibə başa çatandan demək olar ki, 20 gün sonra işğaldan azad edilmiş ərazilərə terror aktları törətmək üçün göndəriliblər. İndiyədək Azərbaycan 100-dən çox saxlanılan şəxsi azad edib. Cinayət törədənlər isə mühakimə olunublar. Bu cür proseslər Azərbaycan qanunvericiliyi çərçivəsində, ədalət və humanizm üzərində qurulmalıdır".

Prezident müsahibəsində Azərbaycanın artan iqtisadi qüdrəti ilə bağlı məlumat verdi.İqtisadiyyatın şaxələndirilməsi, habelə neft və qaz sahəsindən asılılığın azaldılması istiqamətində davamlı işlər görüldüyünü, ümumi daxili məhsulun strukturunda neft və qaz amili 50 faizdən aşağı olduğunu bildirdi: "Buna baxmayaraq, Azərbaycan neft və qaz sektoruna milyardlarla ölçülən sərmayə cəlb etdirir. XXI əsrin ən mühüm infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizinin dördüncü seqmenti - Transadriatik qaz kəməri 2020-ci il dekabrın 31-də istismara verildi. Bu layiho üzrə ən böyük istehlakçı İtaliyadır, sonra isə Yunanıstan və Bolqarıstandır. Burada coğrafiyanı genişləndirmək üçün potensial mövcuddur. Cari ildə artıq Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac edilib. Gələn il 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qazın ixrac edilməsi planlaşdırılır".

Müxbirin yeni kəmərlərin çəkilməsinə Rusiyanın hansı təpkilər göstərə biəcəyi və bunun iki dövlət arsındakı münasibətlərə hansı təsir göstərə biləcəyi sualını cavablandıran ilham Əliyev bidirib ki, "Azərbaycan təchiz etdiyi qazın həcmi Rusiyanın təchizatı ilə müqayisə edilə bilməz. Rusiyanın Avropaya ixracı 100 milyardlarla kubmetr təşkil edir və bu rəqəm artmaqdadır. Azərbaycanın Avropaya qaz ixracı rəqabət təşkil etmir. Ölkəmiz üçün bu, bir kommersiya layihəsidir. Bu gün bütün boru kəmərləri və infrastruktur hazır olduğu üçün Avropa və digər ölkələrə qaz təchizatının əsas mənbəyi olan "Şahdəniz" yatağının daxili gəlirlilik dərəcəsi artıb. Azərbaycanın qazı Türkiyənin ehtiyacının 20 faizini və Gürcüstanın ehtiyacının təqribən 90 faizini təmin edir. Azərbaycanın qazı Avropaya nəql edildiyindən ölkəmiz Avropa İttifaqının bəzi üzv ölkələrinin ehtiyaclarının əhəmiyyətli hissəsini təmin edəcək".

**Türkiyə və İsrailin pilotsuz uçuş aparatlarının 44 günlük müharibədə qaznılan qələbədə rolu baradə verilən suala cavab olaraq Prezident vurğuladı ki, " Azərbaycan XXI əsrin müharibəsini apardı və bu, beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir. Effektivliyin səbəbi təkcə dronlarda deyil, çox dəqiq kəşfiyyat işləri aparılmışdır. Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu. Kəşfiyyat dronları, kamikadze dronları və qırıcı dronlar effektiv şəkildə Ordumuz tərəfindən istifadə olunmuşdur. Azərbaycan Ordusu İsrailin hava hücumundan müdafiə sistemi və Rusiyanın hava hücumundan müdafiə sisteminə (S300) malikdir. Eyni zamanda Azərbaycan Ordusunda "BUK" tipli hava hücumundan müdafiə sistemi var. Azərbaycan 30-dan çox ölkəyə öz hərbi məhsullarını ixrac edir. Eyni zamanda, ölkəmizin hərbi təcrübəsinə maraq və bu təcrübəni öyrənmək istəyən ölkələrin sayı artıb".**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

## BMT Rusiya əleyhinə qətnamə qəbul etdi



**BMT Baş Assambleyası Ukraynanın təklifi ilə Krım ərazisində insan hüquqlarının pozulması hallarını pisləyən qətnamə qəbul edib.**

64 ölkə qətnamənin lehinə, 20 ölkə əleyhinə səs verib, 93 ölkə isə bitərəf qalıb. Qətnamənin mətnində Rusiyanın Krımda həm ukraynalıların, həm də tatarların hüquqlarını pozduğu qeyd olunub.

**MEHRİBAN**

Hüsnü Mahalli



## Paşinyan "gəlin barışaq" düşüncəsinə galib...

***1991-ci ildə Ermənistanın müstəqilliyini tanıyan amma soyqırım iddialarına görə diplomatik əlaqələr qurmayan Ankara 1993-cü ildən bu yana Ermənistanla sərhədlərini bağlı saxlayır.***

***İrəvanın soyqırım iddialarına paralel olaraq bir çox Qərb ölkələrinin və son olaraq 24 apreldə Baydenin bu iddiaları qəbul etməsiylə Ankaranın Ermənistanla əlaqələri heç cür düzəlmədi.***

***2008-ci ilin 6 sentyabrında Türkiyənin o zamankı prezidenti Abdulla Gülün futbol matçı üçün İrəvana getməsi, 2009-cu ilin 15 oktyabrında Ermənistanın o zamankı prezidenti Sarkisyanın eyni səbəblə Bursaya gəlməsi və bundan öncə İsveçrənin vasitəçiliyi ilə həmin ilin 10 oktyabrında Zürixdə imzalanan əməkdaşlıq protokolu da iki ölkə arasındakı problemləri həll etməyə bəs etməmişdi.***

***Ərdoğanın baş nazir olaraq Sarkisyanla 2009-cu il yanvarın 29-da Davosda və 10 aprel 2010-cu il Vaşinqtonda görüşü də bir işə yaramamışdı.***

***Çünki Ermənistan soyqırım iddialarından əl çəkmir və Qarabağın dağlıq hissəsi ilə birlikdə Azərbaycanın yeddi rayonunu işğal altında saxlayırdı.***

***Bəs nə baş verdi?***

***Azərbaycan keçən il işğal altındakı torpaqlarını azad etdi. Ordusu ağır məğlubiyyətə düçar oan Paşinyan dolayısı ilə olsa da bunda Rusiyanı günahkar bildi. Rusiyadan dəstək alan generallar və siyasi partiyalar Paşinyandan can qurtarmaq istəsələr də, iyun seçkilərində Paşinyan yenidən qalib gəldi.***

***Rusiyaya zidd olan Paşinyanın qalib gəlməsi ABŞ və Moskva aleyhdarı Avropa ölkələrini sevindirdi və Ankara ilə barışması üçün Paşinyana təsir etməyə başladılar.***

***Deyəsən, işə yarayıb ki, Paşinyan "gəlin barışaq" düşüncəsinə gəlib.***

***Azərbaycan və Gürcüstandan sonra Ermənistanı da yanına çəkən bir Türkiyə Qafqazda Rusiyanın qarşısında dayana biləcək, öz strateji planlarını tətbiq edə biləcək və fərqli tarixi hesablaşmalarını gerçəkləşdirə biləcək.***

***Qarabağ məğlubiyyətindən sonra çox ciddi iqtisadi böhran yaşayan Ermənistan isə hər cür iqtisadi fəaliyyətdən məhrum qalaraq Türkiyə ilə düşmən olduğu müddətdə bu sıxıntılardan yaxa qurtara bilməyəcək.***

***Paşinyan Türkiyə ilə sərhədlərin açılması, təyyarə uçuşlarının həyata keçirilməsi və qarşılıqlı ticarətin canlaması ilə 3 milyon əhalisi olan öz ölkəsindəki problemləri həll edəcəyinə inanır.***

***Əlbəttə ki Qərb ölkələrinin də dəstəyi ilə.***

***Qarabağ problemi öz həll yoluna qədəm qoyduqdan sonra bircə qalır soyqırım iddiaları.***

***Pərişan vəziyyətdə yaşayan Ermənistan indi çox çətin bir seçim qarşısındadır.***

***Ya belə yaşamağa davam edəcək, ya da öz tarixinin sorğulanmasına izn verəcək və lazım gəlsə, bu tarixin bəzi səhifələrini unutmağa çalışacaq.***

***Bundan başqa yolu yoxdur.***

***İşin içində qonşu Rusiya və İranın da var olduğunu nəzərə alsaq, bu işin hara qədər gedib çıxacağını təxmin eləmək elə də asan deyil, amma Qafqazda həmişə hər şey çətin olub.***

***2008-ci ildə Rusiyaya baş qaldıran Gürcüstan Cənubi Osetiya və Abxaziyanı itirdi.***

***2013-2014 arası Rusiyaya qarşı çıxan Kiyev Krım yarımadası, Luqansk və Donetski itirdi.***

***Azərbaycan müstəqilliyini elan etdikdən sonra o zamankı president Əbülfəz Elçibəy Moskva ilə tərs-nəs düşdü, erməni-rus hərbi birləşmələri əlavə olaraq Qarabağın ətraf yeddi rayonunu da işğal etdilər.***

***Hazırda regionda yeni dövr başlayır, görək nələr baş verəcək?!***

***Dilimizə uyğunlaşdıran:***
***Eminquey***

İradə TUNCAY

# Üç kəlmə

## VƏ DÜNYANIN MIX MƏLLİMLƏRİ

**Böhran, xəstəlik, müharibə... Bu sözləri dəfələrlə təkrar eləmək olar - mahiyyət dəyişməyəcək. Məzmuna da yeni çalar qatmaq olacaq. Müharibə ağrıdı, od-alovdu, göz yaşıdı. Ölümdü... Xəstəlik də eyni... Böhran isə hər birini eyni müstəvidə birləşdirə bilər. Böhran qıtlıq yaradır - hər mənada. Bunları neçə illərdi həyatımızda yaşayırıq. İqtisadi böhran müharibələrə rəvac verir.**

Milləti millət kimi formalaşdıran çox amillər var. Tarixi, mədəniyyəti, etiqadı, dili, əxlaqı və ideologiyası. Gəlin bir düşünək. Əxlaq min illərlə formalaşır. Əgər az vaxta belə dəyişə bilibsə, özünüz fikirləşin. Kommunistlərin allahsızlıq siyasəti dövründə müəyyən bir miqdar pula dinini dəyişən olmurdu. Tariximizi kim necə istəyib o rəngdə boyayıb. Dilimiz... Yüksək rütbəli məmurlar dilimizdə necə danışırlarsa, fikirləşirsən ki, bu hansı dildi, kimin dilidi? Mədəniyyətimiz haqqında da heç nə demirəm. Ən əsası isə bütün bunların toplusu olacaq milli ideologiya. Gəldik yenə ideologiyanın üstünə. Müxalifətin qrant, hökumətin kreslo davası.

Adətən dünya siyasəti böyük çaplı müharibələrin qarşısını almaq üçün lokal, yerli müharibələr yaradır. Yəni bu hardasa bir müddət dünya müharibələrinin qarşısını ala bilir. Amma endə-sonunda yenə bu labüd olur. Yəqin bizim cəmiyyətdə də böyük ideyaların arxasınca gedənləri başqa yerə yönəltmək üçün bu insanlar, qruplar, regionlar arasında nifaq yaratmaq lazım gəlir. Belə izlənim yaranır ki, bizim məmləkətdə hamı özündən, özünün daxil olduğu zümrədən, mənsub olduğu partiyadan, ailədən, bölgədən razıdır. Digərləri hamı cəlladdır, idiotdur, pozğundur, əyyaşdır və s. İstisnalar yoxdur. Yəni əsas məqsəddən, hədəfdən uzaqlaşdırmaq üçün belə bir siyasət də atılıb ortalığa. Cəmiyyət çoxdan qütbləşib. Hər iki tərəfdə yaxşı adamlar da var, nadürüstlər də. Hər iki tərəfdə Vətən naminə çalışanlar da var, cibi üçün çalışanlar da. Bunların bir-birinə düşmən kəsilməsindən uduzan ancaq və ancaq sadə adamlardır. Bu insanların onlara olan inamıdır. Onların bir-biri haqqında düşündüklərindən camaata nə var? Bundan kim uduzur? Təbii ki, dövlətin nüfuzu. Türkiyədə Vətəndaş müharibəsinə İçsavaş deyirlər. Çox gözəl sözdü. İçinizlə savaşmağı bacarsanız, içinizi təmizləyə biləcəksiniz.

Bütün insanların günahı da var, savabı da. Əsas məsələ xeyir əməlləri qabartmaqdır. Bu gün buna daha çox ehtiyacımız var. Onsuz da boğazacan çirkabın içindəyik. Əttökən siyasi şoular, əttökən maqazin xəbərləri onsuz da olmayan beynimizi xarab eləyib. Kiminsə ağzından doğru-düzgün bir söz çıxanda da fikirləşirik ki, görəsən buna kim pul verib ki, bu sözləri deyir. Görəsən, məqsədi nədir? Özünə xal toplayır? Kimsənin səmimiyyətinə inanmırıq, qorxulu olan budur. Bir gün dilimizdəki sevgi və səmimiyyət sözlərini də unutsaq heç təəccüblənməyin.

Bir-birinizi sevmirsiniz? Nifrət edirsiniz, öz işinizdir. Amma bunu ictimai müzakirəyə çıxaranda millətin pozulmuş əxlaqı bir az da korlanır.

Böhran, xəstəlik , müharibə  Üç kəlmə  Üç sözcük

***

... Birinci Dünya müharibəsindən sonra Birləşmiş Ştatların iqtisadiyyatı görünməmiş templərlə yüksəlməyə başladı. Səbəb isə sadə idi - müharibə vaxtı bütün dünyanın varlıları öz qızıl ehtiyatlarını ora köçürmüşdü. 1913-cü ildən 27-ci ilə qədər milli gəlir 32 milyarddan 89 milyarda yüksəlmişdi. Sənayedə, fond və daşınmaz əmlak bazarında əməlli qalxınma nəzərə çarpırdı. Torpağın və daşınmaz əmlakın bahalanma prosesi başlayırdı. Siyasi mübarizə arxa plana keçmişdi. Ancaq şirkətlərin gəliri üç dəfə artsa da, sadə insanların qazancı yerində saymaqda idi. Lakin hər bir halda həyat səviyyəsi yüksəlirdi. Orta statistik amerikalının evində maşın, telefon, qramafon yaygın hala gəlir. Dövriyyədə olan pul kütləsinin sayı durmadan yüksəlir. Və nəticədə 1921-29-cu illərdə dövlət büdcəsindəki kəsir artmağa başlayır. Çünki pulun qızılla təminlənməsi prosesi pozulur. Kağız üzərindəki yalançı rəqəmlər şişdiyindən (iqtisadçılar bunun izahını daha yaxşı verə bilərlər, amma böhran deyilən bu məsələ başlayandan bunu bizə adam dilində başa salacaq bir söhbət eşitmədim). 29-cu ilin oktyabrında aksiyaların qiyməti kəskin düşməyə başlayır. Və bir neçə həftə ərzində Birləşmiş Ştatlar Birinci Dünya müharibəsində xərclədiyindən daha ciddi itkilər verir. Bank sisteminin çöküşü başlanır, kreditlərin verilməsi dayandırılır, panika içərisində olan insanlar banklardan pullarını çəkməyə çalışırlar. Aksiyaların düşməyi təxminən 20-25 milyon insanın maraqlarına toxunur. Ancaq bir məsələ var ki, böyük əksəriyyət pulunu itirsə də, kiçik bir qrup bundan yararlana bilir - vaxtında kağızı qızıla çevirdiyi üçün. Böyük Depressiya zamanı qiymətlər də kəskin şəkildə düşür. Və təbii ki, iş yerləri bağlanır, ticarət əlaqələri zəifləyir və sonda bütün ümidlər puç olur. Maddi böhran mənəvi böhrana keçid alır. Bu, depressiya deyilsə, nədi? Çünki burda yalnız iqtisadi yox, həm də psixoloji, mental elementlər də mövcuddur. İnsan cəmiyyəti depressiv çabalarla əlləşirkən intiharlar dalğası artır, cinayət adi hal alır, lokal üsyanlar çıxır. Kimsəyə gücü çatmayanlar özünü öldürür, azacıq iradəsi olanlar müqavimət göstərməyə çalışır. İqtisadçıların dediyinə görə, Böyük Depressiyanın iki vacib xüsusiyyəti vardı: birincisi, böhran bütün dünyanı əhatə etmişdi, qlobal idi. Dünyanın qüdrətli dövlətlərinin sənaye və təsərrüfatın bütün sahələri öz nəsibini almışdı. İkincisi isə sinxron idi. Yəni Birləşmiş Ştatlar və Almaniyanı dərindən sarsa da Fransaya ötəri toxunmuş, Böyük Britaniyanı isə azacıq tərpətmişdi. Mərkəzi Avropanın, Cənub-şərqi Avropanın, Asiyanın, Latın Amerikasının aqrar ölkələrinə isə tam dağıdıcı təsir etmişdi. Dövlətlər arasında manevr imkanları azaldığından ticarət və valyuta savaşları başlayır. 1931-ci ildən 76 ölkə gömrük rüsumlarını artırır, idxala kvota qoyulur, südü okeana tökürlər, Braziliya kofesini asfalt əvəzi yollara döşəyirlər, ocaq yandırmağa sərf edirlər. Yüksək qiymətləri saxlamaq üçün. Nəticə isə o olur ki, müxtəlif ölkələrin iqtisadiyyatı bir-birindən kəskin aralanır, çəpərlənir və inam yox olur.

1932-ci ildə Franklin Delano Ruzvelt Amerikada prezident seçkilərində qələbə qazanır. Nəzərə alsaq ki, 32-ci il Depressiyanın ən ağır ili kimi qiymətləndirilir, Ruzveltə inamın nə qədər güclü olduğunu anlamaq olar. Yeni prezident ölkəyə "yeni kurs" vəd edir. Ayıq və hər yeniliyə açıq siyasətçi bir çox güzəştlərə gedə bilir. Sosial-iqtisadi islahatlar aparır, daxili siyasətdə vacib tədbirlər həyata keçirir. Nəticədə 36-cı il seçkilərində o vaxt mövcud olan 48 ştatın 46-sı Ruzveltə səs verir. Bundan sonrakı 40 və 44-cü il seçkilərində də Ruzvelt prezident seçilir, yəni dörd dəfə. Amerika tarixində unikal hadisədi. Yalnız Ruzveltin ölümündən sonra Amerikada iki müddətə prezident seçilmək haqqında qanun qəbul olunur. Təbii ki, hər kəs, hər prezident Ruzvelt ola bilməz. Parlaq natiq olan bu şəxs xalqa apardığı dövlət siyasətinin, iqtisadi islahatların məzmununu açmaqdan çəkinmirdi. Mütəmadi olaraq radio ilə xalqa müraciət edirdi və sonralar bu çıxışları "buxarı ətrafı radio söhbətləri" adlandırdılar. Fiziki çatışmazlığı ona səfərə çıxmağa imkan verməsə də, Ruzveltin xalq içərisində nüfuzu çox böyük idi. Deyək ki, Böyük Depressiya Amerikada Ruzvelti hakimiyyətə gətirdi. Amma Avropada Hitler, Mussolini, Franko yetişdi. SSRİ-də isə hakimi-mütləq Stalin idi. Böyük böhranlar böyük müharibələr doğurur, böyük dəyişmələr doğurur. Böhranlar həm ölkə daxilində, həm də beynəlxalq münasibətlərdə gərginlik yaradır. Böyük Depressiyanın ardından İkinci Dünya müharibəsi gəldi. Savaş nəticəsində isə dünya yenidən bölündü. İki düşmən koalisiya yarandı. Özü də elə düşünməyək ki, belə terminlər yalnız yeni tarixə aiddir.

... Hələ Roma İmperiyasının qüdrətli dövründə müstəmləkələrdən axıb gələn var-dövlət Roma pulunun inflyasiyasına səbəb olmuşdu. Və bu barədə tarixdə Siseronun Senatdakı məşhur nitqi məlumdur. Siseron böhranın səbəbini ucqarlarda axtarır və daha çox vassalları ittiham edir.

Təbii ki, o zamankı zənginlik də harınlıq yaratmışdı. O dövr Roma əxlaqı haqqında oxuduqlarımız nəsə bir təsəvvür verə bilər. Böhran Roma cəmiyyətinin bütün təbəqələrini əhatə etmişdi. Nəticə nə oldu? Antik dünyanın süqutu, yeni eraya keçid, yeni əxlaqın bərqərar olması, yeni dünyanın (xristianlığın) yaranması.

Orta çağlarda isə Avropa inflyasiya ilə XVI əsrdə tanış olur. Eyni səbəblərdən - müstəmləkələr artdığından, ucqarlardan mərkəzə qızıl axdığından, həyat bahalılığından, qiymət artımından. Həmin dövrü dəyərləndirən tarixçilərin sözlərinə görə, "İspaniyanı var-yoxdan çıxaran onun zənginliyi idi". Bəzi tarixçilər isə bunu əhali artımı ilə əlaqələndirirlər. Kəndlilər böyük şəhərlərə üz tuturlar, əmək haqqı qiymət artımından geri qalır, böyük bir dilənçilər ordusu yaranır, iri torpaq sahibləri maksimal gəlir əldə etməyə çalışır, hökumətlər isə vergiləri artırmaqda davam edirlər. XVII əsrin ortalarına qədər eyni proseslər davam edir. Kapitalizmə keçid üçün münbit şərait yaranır. Kilsə Reformasiya ideyalarını təbliğ edir və artıq sələmçiliyə günah kimi baxılmır. İnkişaf bütün sahələrdə özünü göstərir, hətta hərbdə də. Nizami ordu hissələri yaradılır. Yeniliklər bir-birini əvəz edir və nəhayət, "Milli dövlət" anlayışı meydana gəlir. Hakimiyyət, qanun, güc, azadlıq haqqında əsərlər yaranır. Makiavellinin əsrarəngiz obrazı bu günə qədər insanları cəzb edir. Mənə görə, Makiavellinin dediyi "Roma kilsəsinə yaxınlaşdıqca insanlar dindən bir o qədər uzaqlaşırlar" ifadəsi hər zaman aktualdı. Bu aforizmi hər sahəyə tətbiq eləmək olar.

Yazırıq yazmağına, amma oxuyan yoxdu... Nə edək bəs? Sənətimiz yazmaqdı, necə oxudaq? Üç kəlmə... Dünyanın ağaları oxumağı qadağan edib?

**Məncə, tanış mənzərədir. Böhran varsa xəstəlik də var, bu ikisi varsa müharibə labüddür. Lap çətini isə zəhmət çəkib yazdığını bir azacıq da zəhmət çəkib oxuyan yoxdur. Virtual aləmə inanmaq lazım deyil - indi bütünlüklə monopoliyadı. Gərək satışa çıxarasan hər kəlməni, yalvarasan... Yalnız kitablara aid deyil ki... Hətta kiçicik məqaləni də... Necə olsun? Balaca ölkədi, onun da böyük faizi oxumaq istəmir. Necə olsun? Oxumaq istəyənlərə də kağız vermirlər... Böhran, xəstəlik, müharibə... Üç kəlmə...**

## *Zorlanmış müdafiə naziri istəməyən ermənilərdən etiraz: "Suren Papikyandan qurtulun"*

**Bir neçə gün əvvəl erməni politoloq AndriasQukasyan həm erməni rəsmilərini, həm də ermənitoplumunu maraqlandıracaq bir açıqlama ilə gündəmizəbt eləmişdi. O, açıqlamasında:" Ermənistan Başnaziri Nikol Paşinyan, Müdafiə naziri Suren Papikyan, Ermənistan ordusunun komandanlığı erməni əsgərəqarşı ən böyük məsuliyyətsiz münasibəti göstərir, onlarerməni əsgərlərə tüpürüblər"demişdi.**

Erməni politoloq əsirlikdən qayıtmış və həbs edilmişhərbçiləri müdafiə xarakterli həmin açıqlamada bildirdiki, əsgərlərin bənzər şəraitdə öz döyüş tapşırıqlarınıyerinə yetirmək iqtidarında olmadıqları məlum olandaəsir düşürlər, sonra isə mühakimə edirlər:"Bu, sinizmdir: "Atıcını rəqibdən 200-300 metr məsafədəotuzdururlar, 44 günlük müharibədən sonra beləetmirlər, 4000 qurbandan sonra da eyni şeyi edirlər, bu, həddindən artıq məsuliyyətsizlikdir. Bəli, Papikyan, komandanlıq erməni əsgərə qarşı ən böyükməsuliyyətsiz münasibəti göstərir"-deyə vurğulamışdı.



Görünür Papikyanın hərbçi olmaması, eyni zamandabu sahəni dərindən bilməməsi tək siyasiləri deyil, həmçinin sadə erməniləri də narahat edir. Beləki,

Ermənistanda Baş nazir Nikol Paşinyana yaxınlaşıbsöz deyən vətəndaşı polis saxlayıb.

Adalet.az erməni mediasına istinadən xəbər verir ki, jurnalistlər görüşdən çıxan Paşinyana sual verərkən birvətəndaş baş nazirə yaxınlaşmağa çalışıb.

O, "Suren Papikyandan qurtulun" dedikdən sonra polisonu saxlayıb. Müdafiə naziri Suren Papikyan da oradaolub.

***P.S. Zənnimizcə, yeni müdafiə nazirinin "döyüşkən" və "qəhrəman" ermənilər tərəfindən qəbul edilməsininbaşqa bir səbəbi də var. O, nazir olarkən ermənimediasıonun haqqında bir çox gizli məqamlarıaçıqlamışdı:"Suren Papikyan hələ hərbi xidmətdəolarkən öz komandiri tərəfindən dəfələrlə zorlanmışdır. Bundan bezən əsgər Suren onu zorlayan komandirini bıçaqlamışdır. Bu hadisədən sonra onu həbs etmişdilər.Hadisə 2004-2006-cı illər arasında baş verib". Yəqinki, erməniləri həm də narazı salan budur. Amma bununəhəmiyyəti yoxdur.***

***Ermənilərin "milli qəhrəmanları" Qaregin Njde və Andraniklə bağlı dünyanın hərtərəfinə yayılmış sensasion məlumatlar da bildirilir ki, onların hər ikisi gey (homoseksual) olublar. Eləcə dəermənilərin "milli qəhrəman" elan etdikləri "Avo" ləqəbli, terrorçu Monte Melkonyanın əxlaqsız həyattərzi, homoseksual olması, onun bir zamanlar "sevgi" macərası yaşamış kişilərin sosial mediada və sosialşəbəkələrdə etirafları Ermənistanın "milli qəhrəmanı" ilə bağlı yeni-yeni faktların ortaya çıxmasına rəvacverib.***

**Əntiqə Rəşid**

## *Kart sisteminə keçid olacaqmı?*




**Artıq Bakı şəhərində kartla işləyən marşrutların sayı daha çoxdur. Başqa sözlə demiş olsaq, nağd pulla işləyənlərdən yeni sistemə keçid daha əlverişlidir. Ən azından ona görə ki, avtobus sürücüləri əvvəlki kimi dayanacağa çatmaq üçün bir-biri ilə ötüşmür, qəza şəraiti yaratmır və ən nəhayət sərnişinləri mənzil başına rahat çatdırırlar.**

Deməli, kart sistemi daha əlverişli və səmərəli olduğunu bir daha təsdiq edir. Amma təəssüf ki, bu gün Bakıda kart sistemi ilə işləməyən xeyli sayda marşrutlar var. Bu marşrut avtobusların əksəriyyəti köhnədir və sərnişinləri mənzil başına aparaрkən yarı yolda qalır. Belə marşrutlardan biri də 50 saylı marşrutdur.

Təbii ki, bu marşrut da köhnə sistemlə işləyir və avtobusların böyük bir hissəsi fiziki və mənəvi cəhətdən köhnəlib.

**Qarşıdan yeni il gəlir. Ümidvarıq ki, Bakı Nəqliyyat Agentliyi köhnə sistemlə işləyən marşrutları kart sisteminə keçirəcək və bununla da nəqliyyatda mövcud olan müəyyən neqativ hallar aradan qaldırılacaqdır.**

**Emil FAİQOĞLU**

## Rusiya SM Xocalıda 14 çoxmərtəbəli daş bina tikir: 10 Noyabr Bəyanatında bunlar vardımı?

**Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistan Baş nazirinin 2020-ci il 10 noyabr tarixli birgə bəyanatından sonra Rusiya sülhməramlıları Qarabağa gəldi.**

Adalet.az xəbər verir ki, missiyası tərəflər arasındakı münaqişəni dayandırmaq və aranı sakitləşdirmək olmasına rəğmən Rusiya sülhməramlılarının ilk gündən göstərdiyi fəaliyyət Azərbaycan ictimaiyyəti tərəfindən birmənalı qarşılanmadı. Fəaliyyətinə Qarabağdakı terrorçuları zərərsizləşdirmək olsa da dəfələrlə təxribatlar törədən ermənilər haqqında heç bir tədbir görülməyib, terrorçular zərərsizləşdirilməyib, əksinə onlarla hərbi təlimlər keçirdilər.



Azərbaycan rəsmilərinin sözlərinə görə hazırda Qarabağa 1960 hərbçi əvəzinə 10 minə yaxın hərbçi və müharibə şəraiti üçün lazım olan bütün texniki avadanlıq yerləşdirilib.

Qarabağda sülhməramlılar üçün 20-dən çox blok-modul tipli şəhərcik tikilib. Azərbaycan xəritəsi üzərində oyunlar, humanitar yardım aksiyası, ermənilər su , yol çəkilməsi, kənd təsərrüfatında və tikintilərində işləmək kimi bəzi faliyyətləri Rusiya sülhməramlılarına qarşı Azərbaycan xalqındanarazıçılıq yaratmaya bilməzdi.

Xüsusən də Azərbaycan yüzlərlə terrorçunu əsir almasına baxmayaraq Rusiya sülhməramlıların sabiq komandanı Rüstəm Muradovun araçılığı ilə terrorçular məhkəmə olunmadan öz ölkəsinə qaytarıldı.

Bu günərdə Rusiya sülhməramlıların Qarabağda mübahisələrə səbəb olan " Dağlıq Qarabağın dövlət dili erməni həm də rus dilidir" deməsi, ermənilərə usiya paspor kilsə, "şöhrət xiyabanı", rusiyalı tanınmışların eyni zamanda rus əsgərinə sığınmış erməni qızının heykəllərinin quraşdırılması, "rus icması" yaratması ona görə narazılıq yaratmağa başladı ki, bu proseslərin heç biri 10 noyabr bəyanatında nəzərdə tutulmamışdı.

**Qeyd edək ki, Rusiya sülhməramlıları hazırda Xocalıda (İvanyan) 14 ədəd yeni çoxmərtəbəli daş binalar tikirlər. Bu yeni bir narazıçılığın təməlinin qoyulması deməkdir.**

**Əntiqə Rəşid**

## *Səxavət Məmməd Hikmət Mirzəyevdən yazdı*

**Hikmət Mirzəyevin Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində göstərdiyi şücaət haqqında danışmaq artıqdır. Hikmət Mirzəyev Polad Həşimov da deyil, deyək ki, borcu var, krediti var. Bunu desək, yalançı olarıq. Ancaq dəqiq deyə bilərik ki, adı rüşvətdə, intriqada hallanmayıb. Artıq sirr deyil ki, sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkov hətta Xüsusi Təyinatlı Qüvvələri belə ləğv etmək üçün əlindən gələni edib.**

Hikmət Mirzəyev sıradan bir adam da deyil. Hikmət Mirzəyevin müharibədə göstərdiyi fəaliyyət, haqqında deyilənlər onu Azərbaycanda marağı olan ölkələrin xüsusi xidmət orqanlarının bir nömrəli hədəflərindən birinə çevirib desək, yalan olmaz. Burada hədəfə çevrilmə dedikdə onu izləmə, başına hansısa bir işin gətirilməsi anlamına gəlmir, ən azı, adam haqqında informasiya yığır, onu öyrənməyə çalışırlar. Bunu özü də, dövlət də bilməmiş deyil. Hansı dövlət olmasından aslı olmayaraq bilir ki, Azərbaycana qarşı hansısa bir hərəkətə yol versə, onun qarşısına ilk çıxarılacaq qüvvə hansıdır və onun rəhbəri kimdir. Düşünürəm ki, təkcə bu fakt kifayət edir. Bundan əlavə, anlamaq lazımdır ki, əslində Xüsusi Təyinatlı Qüvvələr zərurətdən aktiv döyüşlərin iştirakçısı oldu. Əgər milli ordunun döyüş qabiliyyəti yüksək olsaydı və əmrləri vaxtında və dəqiq icra etsəydi, heç XTQ haqqında bu qədər danışmayacaqdıq. Çünki onlar aktiv döyüşlərdən daha çox düşmənin arxasında, dərinliklərdə işləyəcəkdi, diversiya əməliyyatları həyata keçirəcəkdi, bildiyimiz və bilmədiyimiz çox fəaliyyət göstərəcəkdi. İddia edirəm ki, ordunun döyüş hazırlığı yüksək olsaydı, XTQ sırf öz işinə köklənsəydi, müharibə daha qısa zamanda və daha az itki ilə başa çatardı. Beləcə XTQ haqqında ancaq əfsanələr dolaşacaqdı, adlarını bilməyəcəkdik, üzələrini görməyəcəkdi, elə fəaliyyətlər olacaqdı ki, kimin törətdiyi barədə nağıllar danışacaqdıq.



Bunu kim edə və etdirə bilərdi? Bir qədər beyin gimnastikası edək. Hikmət Mirzəyevin evi rəsmi deyilənin əksinə, həqiqətən, yarılmış olur. Bunu hansısa xarici bir qüvvə planlayır. Azərbaycana konkret olaraq mesaj verilmiş olur ki, sizin ən çox güvəndiyiniz qüvvənin və ən etibarlı şəxsin evinə oğru göndərib pulun aparırıq, xəbəriniz belə olmur. Düşünün, gör başqa nələr edə bilərik...

İkinci bir məsələ: Hikmət Mirzəyev Azərbaycanda hansısa güclərin maraqlarına uyğun gəlmir.

Qərar verilir ki, ləkələnsin. Bunun üçün onun evinə oğru göndərmək də lazım deyil. Rəsmi xəbərdəki kimi qohumunun evinə oğru göndərirsən, sosial şəbəkəyə və mətbuata Hikmət Mirzəyevin evinə oğru girib və bu qədər pulunu aparıb xəbərini sızdırıb, çəkilib kənardan izləyirsən...

Bu ölkədə məmurlar haqqında "Vəzifəsini düzgün icra etmir", "Tapşırıqları yerinə yetirmir" kimi itihamlar yox dərəcəsindədir. İstər cəmiyyətə, istər mətbuata məmurların mülkləri, pulları daha çox maraqlıdır. Açığı, bu günə qədər həbs edilmiş məmurlar barəsində də, "Vəzifəsini icra edə bilmir" ittihamı yox, məhz nə qədər pul mənimsədiyi vacib hesab olunur. Oğurluğu təşkil edənlər və ya onu bu cür təqdim edənlər, yuxarıda dediyim kimi, Azərbaycan xalqını çox yaxşı tanıyır.

**Görünən odur ki, dövlət Hikmət Mirzəyevi qorumaqda qərarlıdır. Ancaq ləkələmədə maraqlı olan tərəflər də zəif deyillər. Məsələnin partlaması üçün əllərindən gələni edirlər.**

## Ohonyanın "sərhədlərin tanınması" həyəcanı: "Öz tarixi" vətənimizdə - "dqr"də yaşamaq..."

**Özünün və arvadının mal varlığına həbs qoyulan və bundan sonra daha da aqressivləşən, sabiq müdafiə naziri, müxalifət bloku "Ermənistan" fraksiyasının rəhbəri Seyran Ohanyanın çıxışlarında və açıqlamalarında daha kəskin notlar sezmək mümkündür.**

Adalet.az erməni mediasına istinadən xəbər verir ki, "Qarabağ klanı"nın cinayətkar üzvü hesab edir ki, ərazi bütövlüyünün qarşılıqlı tanınması məsələsi diqqətlə araşdırılmadır:" Çünki iki respublika SSRİ-nin tərkibinə daxil olduqdan sonra sərhədlər kifayət qədər ciddi dəyişikliklərə məruz qalıb. Ermənistan hakimiyyəti bütün prosedurları pozaraq şifahi və yazılı razılaşmalara razıdır. Söhbət xüsusilə 9 noyabr 2020-ci il tarixli bəyanatdan başlayaraq əldə olunmuş razılaşmalardan gedir ".

Hələ də "qalib Ermənistan və qalib ermənilər" eyforiyasından ayılmayan sabiq nazir "Dağlıq Qarabağ" qonşu dövlətin torpağı olduğunu da unub ki, "Qarabağın öz müqəddəratını təyinetmə məsələsi" sayıqlamasındadır:"Əgər biz sərhədlərin demarkasiyası və delimitasiyasını Qarabağın öz müqəddəratını təyinetmə məsələsi ilə əlaqələndirməsək, bu, Dağlıq Qarabağ Respublikasının taleyi üçün kifayət qədər ciddi təhlükələr yarada bilər. Ermənilərin "öz tarixi" vətənində yaşamaq hüququ var".



***P.S. Ömürlərinin, "xidmətlərinin", "əziyyətlərinin" böyük bir hissəsini qondarma Dağlıq Qarabağ respublikasının "yaradılmasına " həsr edən, əksəriyyəti "Qarabağ klanı"ndan ibarət olan "Ermənistan" fraksiyası bir il əvvəl Azərbaycan ordusunun qələbəsini, Ermənistan ordusunun məğlubiyyətini də qəbullana bilmirdilər. Zamanla gördükləri gerçəyə inanmağa və gördüklərini təsdiq etməyə məcbur oldular. İndi də özlərini inandırmağa çalışırlar ki, hər iki dövlətin qarşılıqlı olaraq ərazi bütövlüyünün tanınması məsələsi absurddur. Amma anlamırlar ki, bu proses regionda sabitliyin yaranması üçün gec yada tez başlamalıdır. Ümid edirik, eyforiyadan ayılmağa çalışan bütün ermənilər gerçəklikləri anlayacaqdır. Bu proses nəinki Ermənistana və Azərbaycana, eləcə də region və dünya ölkələrinə vacib lazımdır.***

**Əntiqə Rəşid**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Qız yükü...

*...Dünyanın ən zərif və gözəl məxluqlarından biri də qızlardır. Qız olmayan evdə sanki bir işıq yoxdur, hərarət yoxdur və zəriflik yoxdur. Adam var həmişə arzulayır ki, kaş mənim bir qızım olaydı.*

*Çünki həmin adamın yeddi oğlu olub və yeddisindən də yarımayıb. Çətinə düşəndə övladlardan biri gəlib onun qapısını açmayıb. O da dili ağzında "yananda" deyib ki, kaş, o yeddi oğuldan biri qız olaydı...*

*...Və bir də qızlar analarından çox atalarını istəyirlər. Bunu tək bir adam demir ey, qızı olan və tanıdığım çox adam bu fikri səsləndirir. Deyirlər ki, vallah, qız başqa bir aləmdir. Ata-ana üçün ən çox yanan qız uşaqlarıdı. Bunu bilmirəm, kim necə başa düşür, amma başa düşdüyüm odur ki, doğurdan da, elə qızlarımız var ki, yeddi oğula dəyər...*

*...Heç yadımdan çıxmır. Mən 8 il Sovet küçəsində, daha doğrusu, Seriteli-73-də ailə qurandan sonra 1982-ci ildən 1989-cu ilə qədər kirayəşin qalmışam. Ora yeddinci paralelni adlanırdı. Sözümün canı heç də o küçənin adı deyil. Sözümün canı odur ki, mən ordakı evdə kirayəşin qalanda həmin evin sahibinin dörd oğlunu, dörd qızını görmüşdüm. Oğlanların üçünün əlindən bir iş gəlmir, qazandıqlarını yeyib-içməyə və arağa verirdilər. Onların arasında tək biri, qəssab oğlu az-çox valideynlərinə baxırdı. Amma qoca arvada, qoca kişiyə ən çox ürəyi yanan o dörd qızı idi...*

*...O dörd qız hər iki valideynin üstündə yarpaq kimi əsərdi. Bir dəfə elə oldu ki, onların anası Mina xala mənə dedi ki, oğul, oğlum burda yoxdu, bu resepti götür, beş manat da pulu al. Zəhmət olmasa, mənə bu dərmanı alarsan. Mən də aptekdən o dərmanı aldım, dedim ki, qiyməti nə qədər edir? Əczaçı xanım dilləndi ki, 40 qəpik! Mən də gətirib dərmanı və pulun qalığını o qoca nənəyə verdim. Nənə dedi ki, oğul, axı bunun qiyməti 5 manatdır. Hər dəfə oğlum dərmana görə məndən 5 manat pul alır. Dedim ki, yox ey, ay nənə, 40 qəpikdir.*

*Sən demə, içki düşkünü olan oğlu ondan 5 manat alıb, 40 qəpiyinə dərman alıb, 4 manat 60 qəpiyini arağa verirmiş. Bax, bu da oğul...*

*...Valideynlər bir-iki ildən sonra rəhmətə getdi. Onların ehsanlarını, qəbirüstü abidələrini o dörd qız götürtdü. Və həmişə də onların anım və ölüm günündə məzarlarını ziyarət edirdilər. Bir neçə dəfə biz də rəhmətliklərin məzarlarını ziyarət elədik. Çünki onlar bizə kirayəşin kimi yox, oğul, qız kimi baxmışdılar. Heç belə insanları unutmaqmı olar?*

*...Bəziləri düşünür ki, onun 3-4 qızı var, tez-bazar ərə verib, canlarını qurtarsınlar. Guya qızı ərə verən kimi yükləri azalır, problemləri həll olunur. Hətta bəzən qonum-qonşu bir neçə qızı olan adama deyir ki, əşşi, un çuvalı kimi bu qızları niyə evində saxlamısan? Ərə ver, yükün yüngülləşsin. Bəzi adamlar da qonşuların dediyi kimi edir, qızlarını bir-iki ayın içində ərə verir, sonradan görür ki, balam, heç də düz iş görməyib.*

*O qızlar ya bir neçə ildən sonra boşanır, ya da çox böyük ehtiyac içində yaşayırlar. Bax, belə olanda yük heç vaxt yüngülləşmir. Əksinə, bir az da ağırlaşır. Belə yerdə deyiblər ey, qız yükü, duz yükü.*

*Bu gün ölkəmizdə çox pis bir durum yaranıb. 20-ci əsrin əvvəllərində olduğu kimi, bir çoxları ehtiyac üzündən qızlarını 14-15 yaşında ərə verirlər. Ta fikirləşmirlər ki, 15-16 yaşında qız elə özü uşaqdır. O nə bilir ki, ailə nədir, sevgi nədir, məhəbbət nədir. Daha doğrusu, bu uşaqlar heç hələ uşaqlıq dünyasından ayrılmayıblar. Uşaqlıq dünyasından ayılmayan o qızları ərə vermək çox böyük günahdır. Xüsusən də, cənub bölgəsində bu cür hadisələrə və faktlara daha tez-tez rast gəlmək mümkündür. Düzdür, dövlət qurumları qızların erkən ərə verilməsini diqqət mərkəzində saxlayır və az-çox mübarizə də aparır. Amma vallah, bu addımla biz qızlarımızı o uçurumdan xilas edə bilmərik...*

*...Mən həmişə bir fikri xüsusi ilə vurğulamışam. Qızın ən böyük cehizi onun təmiz əxlaqı və savadıdı. İlk növbədə oğlandan da öncə qız uşaqlarına təhsil verilməlidir. Diplom yox ey, məhz təhsil! Savadı, dünyagörüşü və elmi olmayan o azyaşlı uşaqlar həyatın məngənəsində sıxılıb boğularkən ayağa qalxmağı bacarmırlar. Kimsə onları 1-2 il saxlayıb, sonra küçəyə atır.*

*Həmin küçəyə atılan qızları isə cəmiyyət heç də xilas edə bilmir. Hətta bəzi sığınacaqlarda onlara yer verilsə də, bu, həmin qızların yenidən həyata qayıtmasına dəlalət etmir. Yəni, beləcə qız uşaqlarının taleyi məhv olur və faciələr yaranır.*

*Deyirlər ki, qız uşaqlarını oxutmaq lazımdır. Tutaq ki, kimsə birtəhər o qız uşaqlarını 18 yaşına qədər böyüdüb boyabaşa çatdırdı. Bəs sonra bunun Bakıda və digər şəhərdə oxuması üçün şərait yaradılmalıdır. Yəni, həmin qız uşağı lap ali məktəbə girdi. Ən azından kirayəşin qalmaq üçün 200 manat pul lazımdı. Hələ biz onun əyin-başını, yeməyini-içməyini, kitabını-dəftərini demirik. Onlar da bir ətək pul edir. Əgər bunlar bir ətək pul edirsə, kasıb ailə o qız uşağını necə oxudacaq.*

*Bu məsələdə hər bir qurum, hər bir cəmiyyət üzvü öz üzərinə düşün işin öhdəsindən gəlməlidi. Çünki həmin problemləri tək bir ailə, tək bir kənd və tək bir ev həll etmək gücündə deyildir.*

*Atalar heç də bu ifadəni təsadüfən işlətməyib: "Qız yükü, duz yükü". Ona görə də biz qızlarımızı çox istəyiriksə, öncə, nəyin bahasına olursu-olsun, onlara savad verməliyik, onları oxutmalıyıq, həyatın bərkini-boşunu öyrətməliyik və sonra cəmiyyətdə mövqe tutmalarına şərait yaratmalıyıq. Unutmaq olmaz ki, hər bir qız bir evin gəlini olacaq. O, ana kimi kiminsə ocağında övladına tərbiyə verəcək. O, özü necə böyüyübsə, övladını da bax, eləcə böyüdəcək və həyata hazırlayacaq.*

*Heç kim bu məsələləri unutmamalıdır. Dediklərimizin unudulması isə cəmiyyətdə və yaşadığımız həyatda çox böyük problemlərin, çətinliklərin yaranmasına təkan verə bilər. Ona görə də bir daha biz qızlarımız barəsində ciddi düşünməliyik: onları ərə verək, yoxsa onlara savad verək?!*

## *Məktəblilərçün ustad dərsi*




**Şagirdlərin Şəxsi İnkişaf Platforması və "Zəfər klubu" çərçivəsində növbəti ustad dərsi keçirilib. Ustad dərsinin qonağı II Qarabağ müharibəsinin iştirakçısı Xızı rayonu Türkoba ümumi məktəbinin tarix müəllimi, prezident mükafatçısı Emin Piriyev olub. Müəllim nümunəvi Azərbaycanlı olmaq barədə öz təcrübə və tövsiyələrini bölüşərək, şagirdlərin çoxsaylı suallarını cavablandırıb.**

Xatırladaq ki, "Zəfər klubu" Təhsil Nazirliyinin Təhsildə İnkişaf və İnovasiyalar üzrə V Qrant Müsabiqəsi çərçivəsində yaradılıb.

**Cavid**

# Artıq yalançı göz yaşlarına inanan yoxdu

**Dünən Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa İttifaqının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə keçirilməsi nəzərdə tutulan görüşü baş tutdu. Xeyli vaxtdı ki, bu görüş barədə mətbuatda və ekspert cameələrində bir-birinə daban-dabana zidd olan xeyli rəylər səslənsə də heç bir sürpriz baş vermədi. Həm yemək stolu arxasındakı üçtərəfli, həm hər iki ölkə başçısı arasındakı təkbətək görüşün nəticələri haqqında mətbuatda yayılan məlumatlardan, xüsusilə Avropa Birliyinin görüşün yekunları haqqında verdiyi xeyli əhatəli bəyanatdan çıxan əsas nəticə bundan ibarətdi ki, tərəflər nizamlama prosesini indiyə kimi Rusiya prezidentinin vasitəçiliyi ilə imzalanan 10 noyabr bəyanatı, daha sonra həmin formatda keçirilən 11 yanvar Moskva və 26 noyabr Soçi görüşlərində əldə olunmuş razılıqlar çərçivəsində aparacaqlar.**

Bu görüş 44 günlük müharibə və ondan sonrakı dövrdə bölgədə baş verən proseslərdən kənarda qalmasıyla heç cür barışmaq istəməyən Avropa İttifaqına ambisiyalarının üstünə sərin su səpmək baxımından effektli olsa da, rəsmi Yerevanın, necə deyərlər, arzusunu gözündə qoydu. 44 günlük müharibədəki sarsıdıcı məğlubiyyətdə özündən başqa hamını, birinci növbədəsə Rusiyanı günahlandıran erməni hakimiyyəti, siyasətçiləri, hərbiçiləri, ziyalıları, bir sözlə, bütün erməni cəmiyyəti "ədalətin təntənəsi"nin məhz Qərbdən gələcəyini gözləyir, ancaq unudurdular ki, hər hansı bir Qərb dövlətinin və yaxud təşkilatının Rusiyanın öz forpostuna və əzəli-əbədi satellitinə elədiyindən çox yardım göstərəcəyi apriori mümkün deyil.

Soçi görüşünün sonunda Putinin Brüssel görüşünə "sidqi-ürəklə" xeyirdua verməsi də məhz bu amillə bağlıydı. Çünki o, nizamlama kartının büsbütün öz əlində olduğunu, lap elə ilk günlərdən Qərbin bu vəziyyətlə barışdığının fərqindəydi. Rəsmi Moskvanın təşəbbüsü və vasitəçiliyilə imzalanan 10 noyabr bəyanatının və ondan sonra bölgədə baş verən proseslərdə Rusiyanın oynadığı rolun Qərb tərəfindən daim müsbət qiymətləndirilməsi və anlayışla qarşılanması deyilənlərə əyani sübutdur. Təsəvvür edin: Rusiya öz ordusunu heç bir beynəlxalq mandat olmadan sülhməramlı adı altında, ayıb da olmasa, harasa soxur, Qərb buna nəinki etiraz eləmir, hətta alqışlayır. Əsl nonsesdir. Avropa və ABŞ yalnız Ermənistan naminə bu cür fədakarlığa gedə bilərdi.

Görünür, Qərb Azərbaycan-Ermənistan münaqişəsinin həlli məsələsində Rusiyanın dominantlığını qəbul elədiyi üçün Brüssel danışıqları Rusiyanın cızdığı əndazəni aşmayıb, Rusiyanın vasitəçiliyi ilə müzakirə edilən məsələlər eyniylə təkrar olunub, eyni qərarlar qəbul olunub. Ermənistanın ən çox can atdığı və danışıqlar prosesini istədiyi məcraya yönəltməklə uzatmaq istətiyi "status söhbəti"nə toxunulmaması da bir daha göstərir ki, Brüssel görüşünün gündəliyi daha çox rəsmi Bakının maraqlarına uyğun təttib edilib. Hər halda indiyə kimi açıqlanan məlumatlarda, xüsusilə AB-nin görüşün yekunlarıyla bağlı yaydığı bəyanatda bu məsələyə toxunulmaması belə qənaətə gəlməyə əsas verir.

Bəyanatda daha çox delimitasiya və demarkasiya prosesinə başlanmasının və bu işin başa çatdırılmasının əhəmiyyəti vurğulandıqdan sonra əsas diqqət kommunikasiyaların açılmasına yönəldilir ki, bu da deyilənlərə əyani sübutdur. Sənəddə deyilir: "Aİ Şurasının Prezidenti Şarl Mişel, həmçinin, bütün ölkələrin suverenliyinə tam hörmət edilərək Ermənistan və Azərbaycan arasında xüsusilə də Cənubi Qafqaz kommunikasiya infrastrukturunun bərpasının vacibliyini vurğulayıb. Qarşılıqlılıq prinsipi əsasında sərhəd və gömrük nəzarəti üçün müvafiq tədbirlər görülməklə, dəmir yolu xətlərinin bərpasına davam etmək razılaşdırılıb. Aİ özünün İqtisadi və İnvestisiya Planına uyğun olaraq əlaqələnmə xətlərinin inkişafına dəstək verməyə hazırdır. Təklif olunan iqtisadi məsləhət platforması da bu prosesi dəstəkləyə bilər".



Kommunikasiyaların açılmasıyla bağlı məsələyə NATO-nun baş katibi Yens Stoltenberqlə görüşdən sonra keçirilən mətbuat konfransında da toxunulub. Azərbaycan prezidenti İlham Əliyevin Riko Just for Europe təşkilatının təmsilçisinin Zəngəzur dəhliziylə bağlı sualına verdiyi mükəmməl cavabla həm bölgədə ara qarışdırmaq istəyən beynəlxalq oyunçulara konkret mesaj verdi, həm də Azə\rbaycan cəmiyyətində bu məsələ ətrafında hökm sürən narahatçılıqlara birdəfəlik son qoydu: "Zəngəzur dəhlizi ilə bağlı demək istərdim ki, regionda bu kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli bəyannamədə öz əksini tapıb. Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir.

Baxmayaraq ki, bir ildən çox vaxt ərzində irəliləmək asan olmayıb, bu mərhələdə biz Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvan Muxtar Respublikasına dəmir yolu əlaqəsinin tikintisi ilə bağlı razılıq, həmçinin magistral yol inşasına dair razılıq əldə etmişik. Lakin magistral yolun dəqiq marşrutu hələ ki, müəyyən olunmayıb. Bu, gələcək müzakirələrin mövzusudur və biz bunu bu axşam cənab Şarl Mişelin ev sahibliyi edəcəyi üçtərəfli görüşdə mütləq müzakirə edəcəyik.

Zəngəzur dəhlizinin hüquqi rejiminə gəlincə, bu, Laçın dəhlizinin eynisi olmalıdır. Çünki üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir. Beləliklə, bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də, Zəngəzur dəhlizində də gömrük olmamalıdır.

Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması".

Şarl Mişelin yaydığı bəyanatda bölgədəki humanitar problemlərə də xüsusi yer ayrılması Azərbaycanın maraqlarına tam olaraq cavab verir. Şarl Mişel O bu yaxınlarda saxlanılan 10 erməninin qaytarılmasını və bütün mina xəritələrinin Azərbaycana verilməsini yüksək qiymətləndirərək bildirib ki, bu cür humanitar jestlər sülhə və barışıq yolunda açar rolu oynaya bilər. Sənəddə digər saxlanılanların azad edilməsi və xüsusilə itkin düşmüş şəxslərin taleyinin həlli kimi bütün qalan humanitar problemlərin tam və tez həllinə çağırılması da Azərbaycan üçün çox önəmlidi. Burda, heç şübhəsiz ki, söhbət Qarabağ münaqişəsinin bütün tarixi ərzində, eləcə də Birinci Qarabağ Savaşı zamanı itkin düşmüş şəxslərdən gedir. Azərbaycan həmin dövrdə 4 mindən çox hərbçisini və dinc vətəndaşını itirib ki, indiyə kimi israrlı tələblərə baxmayaraq Ermənistan onların taleyi haqqında heç bir məlumat vermir. Çox güman ki, AB-nin yeni humanitar təşəbbüsləri bu məsələnin də yenidən gündəmə gəlməsi, həmin insanların taleyi haqqında əsl həqiqətlərin açıqlanması və çağdaş dünyanın prinsipləriylə uzlaşmayan bu vəhşi davranışların konkret günahkarları və onlara şərait yaradan Ermənistan dövləti layiq olduğu cəzanı alacaq. Eləcə də 30 ilə yaxın işğal altında saxladıqları ərazilərdə törədilən mədəni, ekoloji, humanitar terrora görə onlardan cavabdehlik tələb olunacaq.

**Ümumiyyətlə, Brüssel görüşünə istənilən rakursdan baxanda Azərbaycan diplomatiyasının uğuru olduqca açıq şəkildə görünür. İndiyə kimi danışıqların ağırlıq mərkəzini Qərbə tərəf çevirməklə burda ümid qazanacağına ümid edən Ermənistan rəsmiləri, yəqin ki, bundan sonra illüziyalardan əl çəkib real zaman kəsimində fəaliyyət göstərməyə üstünlük verəcək. Son illərin və ayların acı təcrübəsi göstərir ki, ərköyünlük dövrü keçmişdə qalıb, daha nə Moskva, nə də Qərb yalançı göz yaşlarına inanmaq istəmir.**

**Analitik xidmət**

# Bakının Brüssel gündəliyi

**Ermənistan hökumətinin dünən keçirilən iclasında baş nazir Nikol Paşinyan hökumət üzvlərinə Azərbaycan prezidenti İlham Əliyevlə Brüsseldə keçirdiyi görüşlə bağlı məlumat verib. Görüşdə Yerasx (Arazdöyən-red.) - Culfa - Ordubad - Meğri - Horadiz dəmiryolu xəttinin çəkilməsi barədə də razılığa gəlindiyini bildirən baş nazir deyib: "Azərbaycanla sazişin əhəmiyyətini şişirtmək istəmirəm. Ancaq bunu qiymətləndirməmək da olmaz. Bu çox mühüm sazişdi və ümid edirəm ki, biz onu necə var o cür də həyata keçirəcəyik. Bu bölgənin siyasi, iqtisadi, habelə təhlükəsizlik mühitini dəyişdirəcək çox mühüm layihədir... Yaxın vaxtlarda bu vəzifənin həllinə köklənmək lazımdı".**

Daha sonra o, İlham Əliyevlə bir sıra vacib məsələlərin də müzakirə olunduğunu, ən vacibisə ikitərəfli əlaqələrin davam etdirilməsi barədə razılıq əldə edildiyini söyləyib. Əslində, Brüsseldə təzə heç bir gəlişmə olmadı, ötən ilin noyabrından bəri Putinin təşəbbüsü və vasitəçiliyilə keçirilən görüşlərdə əldə olunmuş razılıqlar təkrar təsdiq edildi, daha doğrusu, təsbit olundu. Yeganə yenilik Brüsseldəki üçtərəfli görüşün keçirildiyi masanın dizaynının Kreml və Soçidəki masaların dizaynından daha münasib formada olmasıydı ki, bunun da səbəbini, heç şübhəsiz, görüşənlərin yox, görüşdürənlərin siyasi davranış mədəniyyətində və dünyagörüşündə axtarmaq lazımdı. Başqa bir yenilik hər iki ölkə rəhbərinin təkbətək görüşüydü. Bu görüşün hansı ab-havada keçməsi və orda nələrin müzakirə olunması barədə mətbuata heç bir bilgi verilməsə də, təkcə danışıqların beş saata yaxın davam etməsi faktının özü kifayət qədər maraqlı məqamdı və ən azından söhbətin, sadəcə, "görüş xətrinə görüş"dən getmədiyini göstərir.




ABŞ və Avropa Birliyinin aparıcı ölkələrindən eləcə də rəsmi Brüsselin 44 günlük müharibədən sonrakı çoxsaylı açıqlamalarından da məlum idi ki, Qərb Rusiyanın bölgədəki vasitəçilik missiyasından nəinki məmnundu, hətta hər fürsətdə bunu təqdir edir.

Şübhəsiz ki, bu loyallığın kökündə ilk növbədə onların Rusiyaya yox, Ermənistana olan münasibət dayanır, çünki rəsmi Moskvanın heç bir halda öz çoxəsrlik satellitindən və forpostundan üz döndərməyəcəyinə əmindilər. Hazırki dövrdə Rusiya-Qərb münasibətlərində yeganə üst-üstə düşən məqam məhz Ermənistana münasibətlə bağlıdı ki, bu platformada bir-birləriylə heç bir fikir ayrılığı yoxdu. Sadəcə, bir tərəfdən Azərbaycanın dünyada artan rolu, balanslı mövqeyi, digər tərəfdən sözü gedən münaqişədə həm beynəlxalq hüquq normaları, həm də tarixi-coğrafi amillər baxımından haqlı mövqeyi onun maraqlarına tam etinasızlıq göstərməyə mane olur.

Vasitəçilik missiyasının ağırlıq mərkəzini Rusiyadan Qərbə keçirmək Ermənistan rəhbərliyinin 44 günlük müharibədən sonrakı bütün siyasi manevrlərinin ana xəttini təşkil edirdi. Rusiyayla əvvəlcədən də ulduzu barışmayan Paşinyan və onun "sorosçu" hökuməti müharibədə itirdiklərini Qərbin yardımıyla geri qaytarmağa həm israrlı, həm də əmin idilər.

Bu taktikanın ideoloji zəmini Minsk qrupunu yenidən diriltmək və status söhbətini təkrar dövriyəyə buraxmaqdan ibarət idi. Hərçənd, uzun illər boyu bu prosesi uzatmaq və absurda çevirmək rəsmi Yerevanın danışıqlar prosesində yeritdiyi əsas taktikaydı.

Brüssel görüşünü yekun sənədində "status" kəlməsinin adının belə çəkilməməsi təkcə Ermənistana yox, onun elə bu kəlməni işlətməyə risk etməyən havadarlarına da ağır zərbə oldu. Artıq Minsk qrupu bu nizamlama prosesində arabanın beşinci tərəfinə çevrilib, onun bundan sonra yeganə missiyası humanitar xarakterli məsələlərlə məşğul olmaqdan uzağa gedə bilməz. Bax, Azərbaycan diplomatiyasının Brüssel qələbəsinin kökündə dayanan əsas amil budur. Sammitin materiallarıyla yaxından tanış olduqca adama elə gəlir ki, bu ali qurumun toplantısında prosesləri məhz Azərbaycan tərəfi diqtə edirdi.

**Paşinyanın yeganə təsəllisi isə ondan ibarət oldu ki, o, son anda Putinin dediklərini Qərbin tapşırıqları kimi yerinə yetirmək fürsəti qazanaraq öz Qərbpərəst simasını ən azı "obıvatel"in qarşısında qoruya bildi.**

**ADALET.AZ**

# "Tıxaclar aradan qaldırılır"

## Bu fikri bizimlə söhbətində Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov səsləndirdi

**- Cənab polkovnik, sirr deyil ki, Bakıda əvvəlki vaxtlarla müqayisədə nəqliyyat vasitələrinin sayı qat-qat çoxalıb. Yollar və prospektlər əsaslı surətdə təmir olunsa da, yenə paytaxtımızda səhər və axşam saatlarında tıxaclar yaranır. Tıxacları aradan qaldırmaq olarmı?**

- Dünyanın hər yerində, böyük şəhərlərdə tıxaclar olub və var. Bakıda da tıxaclara tez-tez rast gəlmək mümkündür. Bunun obyektiv və subyektiv səbəbləri var. Şəhərimiz qədim şəhərdir, üstəlik də küçə və prospektlərin bəziləri yenidən qurulsa da, onu genişləndirmək mümkün deyil. Və eyni zamanda nəqliyyat vasitələrinin çoxluğu, bəzi yerlərdə sürücülərin yol hərəkəti qaydasını tez-tez pozması, tıxacların yaranmasına səbəb olur.

**- Onda belə çıxır ki, elə tıxacların yaranmasına əsas şəraiti sürücülər yaradır?**

- Hər şeyi sürücülərin üstünə atmaq da ədalətli deyil. Məsələn, sürücü var ki, bütün qayda-qanuna əməl edir, amma gəlib səhər saatlarında tıxaca düşür.

Bayaq dedim, tıxacların yaranmasının obyektiv və subyektiv səbəbləri var. Nəqliyyat vasitələrin çoxalması, yollarımızın və küçələrimizin darlığı tıxaclara münbit şərait yaradır. Amma gəlin onunla razılaşaq ki, tıxacların olduğu dövrdə hərəkəti təhlükəsizliyini təmin etmək üçün yol polisi mütəmadi olaraq həmin yerlərdə hərəkətin təhlükəsizliyini tənzimləyir və tıxacların aradan qaldırılmasına yardımçı olur...

**- Bunu biz də görmüşük. Görmüşük ki, yağışlı havalarda yol polisi hərəkətin təhlükəsizliyini necə tənzimləyir. Hətta tıxaclar olan yerə əlavə naryadlar da göndərilir...**

- Təbii ki, yol polisi olaraq biz hər şeyi nəzarətdə saxlayırıq. Hava şəraiti mürəkkəb olanda bəzi küçə və prospektlərdə işıqforlar işləmir. Bax, həmin yerlərə operativ olaraq əlavə naryadlar göndəririk və əməkdaşlarımız həmin yerlərdə nəqliyyat vasitələrinin hərəkətini tənzimləyir. Bu isə o deməkdir ki, yağışlı havalarda baş verə biləcək qəzaların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görülür. Ümumiyyətlə, onu deyə bilərəm ki, yol polisi birmənalı olaraq hərəkətin təhlükəsizliyini təmin etmək üçün Bakıda bütün tədbirləri zamanında gerçəkləşdirib.

**- Vaqif müəllim, bir çox sürücülər Bakı şəhərində Mikayıl Əliyev küçəsində, Heydər Əliyev dairəsi hissəsində səhər saatlarında yolların bağlandığından gileylənirlər. Onlar**



**deyirlər ki, biz "Koroğlu" istiqamətində hərəkət edərkən həmin yollar bir-iki saat bağlı qalır. Bu məsələyə necə aydınlıq gətirmək olar?**

- Burda söhbət Mikayıl Əliyev küçəsinin başlanğıcında olan Heydər Əliyev dairəsi ətrafında, "Madonna" şadlıq sarayının qarşısındakı hərəkətlə bağlı vəziyyətdən gedir. Yalnız iş günləri, 1-5-ci günlər səhər saatlarında, yəni pik saatlarda metronun "Koroğlu" stansiyası istiqamətində sıxlıq yaranır. Bax, bu da tıxaclara səbəb olur. Ona görə də aidiyyatı üzrə əməkdaşlarımız orada bir-iki saat yox, təxminən 20-30 dəqiqə xidmət aparmaqla keçmə növbəliyini hissə-hissə tənzimləyir. Əgər həmin ərazidə əməkdaşlar dayanıb xidmət aparmasa, istər Mikayıl Əliyev küçəsində, istərsə də "Neftçilər" metrostansiyası tərəfindən gələn nəqliyyat vasitələrinin hissə-hissə, ardıcıl, növbəli şəkildə buraxılmasını təmin etməsələr, "Koroğlu" metrostansiyası istiqamətində, körpünün üstündə maşınlar saatlarla tərpənməz qalar və hərəkət dayanar. Ona görə də bu istiqamətlər üzrə hərəkət edən sürücülərə bildirirəm ki, burada narahatlığa səbəb yoxdur. Eynilə paytaxtın "20 yanvar" dairəsində, Biləcəri enişində, Avtovağzal dairəsində, Babək prospektinin Yusif Səfərov istiqamətində də bizim azı 2 əməkdaşımız dayanıb xidmət aparır və keçmə növbəliyi təmin olunur.

**- Bax, belə vəziyyətdə siz sürücülərə nə tövsiyə edərsiz?**

- Bu cür vəziyyətdə sürücülərə təmkinli olmağı və tələsməməyi tövsiyə edirik. Hər kəs öz zolağı üzrə hərəkət etsin, hər bir sürücü getdiyi istiqaməti əvvəlcədən dəqiqləşdirib həmin zolağı tutsun, qarşı hərəkət zolağına çıxmasınlar. Yol kəsişmələrində sarı rəngli, tor tipli xətlərə diqqət yetirsinlər. Bəzən sürücülər öz getdikləri istiqamətlərdə bir-birilərin hərəkətinə mane yaradırlar, başqasının qarşısına keçib onun yolunu kəsirlər. Bu da istər-istəməz həmin istiqamətdə süni sıxlığa səbəb olur. Xüsusilə gedilən istiqamətdə dayanma, durma tələbləri düzgün yerinə yetirilməldir. Əgər ərazidə avtomobilin dayanması, durması qadağandırsa, ümumiyyətlə, o ərazidə avtomobil saxlanılmamalıdır. Bu tələblərə riayət edilmədiyi təqdirdə həmin ərazidə hərəkət istiqaməti üzrə sıx cərgələnmə yaranır. Bu da tıxaclara və sürücülərin ləngiməsinə səbəb olur. Ona görə də sürücülər bütün bu tələblərə əməl etməlidilər.

**- Görəsən, şəhərimizin tıxacsız günləri olacaqmı?**

- Təbii ki, bu məsələyə birmənalı yanaşmaq olmaz. Bayaq dedim axı. Dünyanın bütün böyük şəhərlərində tıxaclar var və Bakıda da bu olacaq. Sadəcə olaraq tıxacların aradan qaldırılması üçün tək yol polisi deyil, digər qurumlar və eləcə də sürücülər birgə fəaliyyət göstərməlidir. Yəni, sürücü tıxac varsa, gözləməli, qarşı tərəfin yoluna çıxmamalı və ikinci bir problem yaratmamalıdı. Düşünürəm ki, şəhərimizdə tıxacları tamamilə aradan qaldırmaq mümkün olmasa da, onun azaldılmasına nail ola bilərik. Təkcə burda hamının məsuliyyəti olmalıdır. Məsuliyyət olarsa, tıxaclar da saatlarla uzanmaz, sürücülər və hərəkət iştirakçıları yollarda vaxt itirməzlər.

**Söhbəti yazdı:
Faiq QİSMƏTOĞLU**

## *Şəkidə su anbarları inşa edildi*



**Şəki şəhərində içməli və tullantı su layihəsi üzrə hazırda 9 tikinti briqadası iş aparılır və indiyə qədər layihənin 45 %-i yerinə yetirilib.**

Adalet.az xəbər verir ki, bu barədə "Azərsu" ASC məlumat yayıb. Məlumatda həmçinin bildirirlir ki, Şəki şəhərinin içməli su təchizatının yenidən qurulması məqsədilə Azərbaycan hökuməti və Almaniya İnkişaf Bankının birgə layihəsi çərçivəsində Kiş mənbəyində sugötürücü qurğu, magistral kəmərlər və su anbarları inşa edilib.

Eyni zamanda içməli suya olan tələbatın tam ödənilməsi üçün dövlət büdcəsi hesabına Kiş çayının məcrasında 15 yeni subartezian quyusu qazılıb və quyulardan Şəki şəhərinə magistral su xətti çəkilərək şəhərə içməli suyun verilməsi təmin edilib. 2021-ci ilin Tədbirlər Planına uyğun olaraq 9 km içməli su və 8,5 km kanalizasiya şəbəkəsinin yenidən qurulması və 600 ünvanın yeni şəbəkələrə qoşulması nəzərdə tutulur.

Ümumilikdə Şəki şəhərində inşası nəzərdə tutulan 314 km su xətlərinin 230 kilometrlik, 294 km kanalizasiya kollektoru və xəttinin isə 168 kilometrlik hissələri inşa edilib. Yeni tikilmiş şəbəkədən abonentlərə ev birləşməsi verilərək sayğaclar quraşdırılıb.

**Şəki şəhərində tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə məhsuldarlığı sutkada 8 000 kubmetr olan tullantı sutəmizləyici qurğusunun tikintisi işləri də davam etdirilir. Şəki şəhərində icra olunan layihədən 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 80 min sakin faydalanacaq.**

## *"Zəfər klubu"nun növbəti görüşü*



**"Zəfər klubu" çərçivəsində növbəti ustad dərsi keçirilib. Ustad dərsinin qonağı Şəki rayonu Aydınbulaq kənd tam orta məktəbinin biologiya müəllimi Cəlal Bayramov olub.**

**Müəllim Vətən Müharibəsi haqqında şagirdlərin suallarını cavablandırıb, xatirələrini bölüşüb.**

**Cavid**

Müharibə gündəliyi



# Ləzgi uşaqlarıyla birgə

Emin Piri

**Müharibədən öncə müxtəlif sosial şəbəklər, dairələr və.s vasitəsiylə elə bir fikir formalaşdırmağa çalışırdılar ki, Azərbaycan müharibəyə girsə, daxildə milli formada hər hansı problem yaşana bilər. Bu təbliğat mexanizmi az-çox bəzilərini inandıra bilmişdi.**

**Söhbətə birbaşa keçirəm. Oktyabrın 10-ları olar. Bizə yeni mövqelər tapşırılıb. Daşkəsən kəndindən kilometrlərlə uzaqda, şimal istiqamətində, Cəbrayıl rayon mərkəzindən şərq istiqaməti. Dəniz səviyyəsindən bir neçə yüz metr yüksəklikdi.**

**Bir tərəfdən baxıb həm Cəbrayılın kəndlərini, digər tərəfdən baxdıqda Füzulinin kəndlərini, bir tərəfdənsə Hadrut( Xocavənd) kəndlərini bir növ yuxarıdan görürsən.**

**Füzuli, Cəbrayıl kəndləri ovalıqları xatırlatsa da bu yüksəkliklər biz tərəfdən çıxmaq üçün daşlı, sıldırımlı idi. Yüksəkliklər enir, qalxır, hər yüksəkliyə müəyyən bölmələr yerləşib.**

**Sağ cinahdakı yüksəkliyə yeddinci bölük. O bölüyə öz zabit, əsgərlərindən əlavə batalyon komandirinin müavini Xəlilov, soldakı yüksəklikdə mən və tağımım, məndən soldakı yüksəklikdə birinci tağım, bölük komandiri əvəzi Əhmədovla bölük komandirinin müavini Hüseynov, daha sonrakı yüksəklikdəsə ikinci tağım komandiri Şıxliyevlə onun heyəti. Beləcə mövqelər bölmələr üzrə dəyişir.**

**Açığı tək zabit olmaq xoşuma gəlir. Öz əlin, öz başın. Həm məsuliyyətdi, həm də qərar azadlığında daha rahat oluram.**

**Mənim yerləşdiyim yüksəklik mövqeyi ilə birinci tağımın yerləşdiyi mövqeyə aşağıdan erməni səngəri uzanır. Səngər göz işlədikcə uzanır. Düzü təzəyə oxşayır, bilmirəm, müharibə başlayanda qazılıb, yoxsa bir qədər əvvəl. Hər halda sonrakı eşalonlar üçün müdafiə zolaqlarından biridir. Tapşırılıb ki, həmin ərazilərdən( səngər tərəfdən)gecə vaxtı diversiya ola biləcəyi ehtimalı var. Müharibənin gedişində həddən artıq azalsa da, müharibənin əvvəllərində düşmənin bəzən belə gedişləri olub.**

**...Günorta 15-16 radələri olar. Qarşı tərəfdən, dediyim səngər yönündən iki nəfər bizim milli formada hərəkət edir. Bir anlıq adamın beyninə bəlkə ermənidir deyə fikri gəlir.**

**Hər ehtimala qarşı yuxarıdan qışqırırıq; Kimsiniz?**

**-Azərbaycanlıyıq, azmışıq.**

**-Hansı hərbi hissə?**

**-Filan.**

**Həmin briqadanı biz tərəfdən görmüşdük. Füzuli kəndləri istiqamətindən hücuma keçməliydilər.**

**Əsgərimin biri deyir, inanmayın, bəlkə ermənidir, bizim formada...**

**Günün günorta vaxtı belə formada qabağımızda erməni nə gəzər. İkinci iki nəfərdi, bizsə tağım, silahlı...**

**-Yuxarı qalxın...**

**Əlləri əsir. Həyəcandan bir sözü deyə bilmirlər. Biri ümumiyyətlə özündə deyil, sayıqlayır;öldülər,öldülər, yaralılar qaldı.**

**Uzandırıb, əl -üzlərinə su vururuq. Bir sutkadır, az-susuzdular.**

**"Veş-meşok"umuzda olan konservləşləşdirilmiş ərzağı onlara veririk. Qıraqdan müşahidə edirəm, əlləri elə əsir ki, plastik qaşığı belə tuta bilmirlər. Kömək edək-deyirik.**

**-Yox, yox.**

**Hiss edirəm, bunu özlərinə sığışdırmırlar.**

**İki saat sonra söhbətə başlayırıq. Gecəylə batalyonların biri hücuma keçib, Füzuli istiqamətində qəbiristanlıq deyilən ərazi var- ordan. Açığı həmin istiqamətə biz də qəbiristanlıq deyirdik. Müharibədən öncə dəfn edilən aəzrbaycanlıların qəbiristanlığıdır.**

**Anidən düşmən minaatanlardan biz keçdiyimiz əraziləri vurmağa başladı. Ardıyca da pulemyotlar...**

**Çoxlu şəhid və yaralı verdik. Nə çıxa bilirik, nə də qoruna. Bir növ düşmən qarşısında ani pusquya düşmüşük.**

**Həmin briqadanın gizirini tərifləyirlər. Çox adamı o xilas etdi.**

**Çox təcrübəli idi , düz beşə dəfə təkrar o neytrala girərək, hər dəfə bir yaralını çıxardı. Biz də pərən-pərən düşdük. Gəlib bura çıxmışıq. Açığı istiqamətimizi bilmədən bura çıxdıq, bəxtimiz gətirib.**

**Birinin 22, digərinin 25 yaşı var. Qusarın kəndlərindəndirlər. Ləhcələrinə görə ləzgisiniz- deyə soruşuram.**

**"Hə"-deyirlər.**

**Səfərbərlik elan olunanda xidmətə yenidən gəliblər, şimalda yerləşən briqadımıza( hərbi hissənin nömrəsini özüm qeyd etmirəm) göndəriliblər.**

**Ordan da cəbhəyə...**

**O briqadanın heyətində yüzlərlə belə ləzgi soydaşımız döyüşə gəlmişdi.**

**Maqazinlərinə baxırıq, demək olar 4 maqazində bir neçə güllə qalar, ya yox. Əlavə sursatlar da xərclənib.**

**Geyim sürünməkdən sanki it ağzından çıxıb.**

**Daha dəhşətlisə allahları gətirib. Birinin süngü-bıçağı qırılıb.**

**Güllə bəxtindən ora dəyib. Digərinin maqazinindəsə güllə yeri.**

**Bu qədər bəxtiniz gətiribsə sevinin, deyirəm. O boyda bədəndən güllələr ancaq süngü-bıçağa və üzürindəki maqazinə dəyə, sizi qoruya.**

**Davam edir, yaralıların çoxunu snayperləri ayaqdan vurdu. Yaralı çıxarmağa gələn olanda o birini də, köməyə gələnləri də vura bilsinlər deyə.**

**Bəlkə də gülə bronjiletə dəyir, elə bilirlər ayağa atıblar. Çünki ayaq qorunmur. Baxıram, bronjiletləri yoxdu.**

**Hücum vaxtı, bronjiletlə hərəkət etmək olmur...**

**3-4 saatdan sonra biz gedək deyirlər. Hara gedəssiniz, heç batalyon hardadır, bilmirsiniz, heç mən də bilmirəm sizinkilər hardadır. Mənim özümdəsə rabitə yoxdu.**

**-Axı, elə bilərlər fərariyik, qaçmışıq.Ya da elə bilərlər ölmüşük, ailəmizə elə deyərlər.**

**Davam edirəm, mən zabitəm( müharibə vaxtı rütbə taxmadığımızdan adətən bilinmirdi) nə zamansa soruşan olsa, deyərsiniz filan hərbi hissə, filan zabit saxladı, yəni özbaşına qalmamısınız burda.**

**Gecə vaxtı hara göndərə bilərdim ki? Hələ səhər açılsın...**

**Səhər yüksəkliyin biz tərəfdə olan hissəsində aşağıdan iki əsgər qışqırır:**

**-692, 692, 692( hərbi hissənin adını özüm fərqli, olduğu kimi demirəm)**

**Cavab veririk. Batalyonun bir gün öncəki gecə döyüşündən sonra, səpələnən əsgərlərini axtarırlar.**

**Bir görsəniz, necə uşaq kimi sevinirdilər. Tez-tez əsgər yoldaşlarını sadalayıb soruşurlar onlardan. Onlarsa bildiklərini deyirlər, filankəs şəhid olub, filankəs yaralı idi, göndərilib və.s.i.**

**Bizlə görüşüb ayrılırlar.**

**Deyirəm, gördünüz, yaxşı ki, gecə sizi saxladıq, yoxsa gecə çıxsaydınız, bu dəfə bəxtiniz gətirməz, bəlkə də əsir düşəcəkdiniz.**

**Adımı, soyadımı deyirəm, sağ qayıtsanız, sağ qayıtsam, bir gün "Ədalət" qəzetinə gəlin, bu günləri yada salıb, bir çay içib, müsahibə edərik.**

**Bu hadisənin üzərindən 13 aydan çox vaxt keçib, hələ də gələn olmayıb...**



Orxan Saffari

# Post darıxmağlığı haqqında elegiya

**Darıxmaq haqqında tez-tez yazanda, danışanda qəribə oluram. Hərdən özümə də suni gəlir, elə bilirəm, yalandan darıxıram, amma yox, sonra görəndəki bu orijinal darıxmaqdı, dağın ən təpəsinə, dərənin ən dibinə kimi darıxmaqdı bu, onda ürəyim yerinə gəlir. Bilirəm ki, hələ ölməmişəm. Hələ də ağrı-acı hiss edə bilirəm. Necə deyib böyük döyüşçü İmam Əli? "Öz ağrılarını hiss edirsənsə, canlısan. Başqalarının ağrısını hiss edirsənsə, insansan".**

Çox da yuxarıdan getməyim, ola bilər, desəm də, inanılır gəlməsin, ona görə də başqalarının ağrılarını hiss etdiyimi demirəm, amma başqalarının yerinə darıxdığımı dəqiq deyə bilərəm. Məsələn, tərxis olunmağına 30 gün qalmış şəhid olan bir əsgərin yerinə hara qədər desən darıxmaq da olar, ağrımaq da...

Bu andır darıxmaq elə şeydir ki, lap o gözəlim şeir kimi:

***-Birdən elə adam düşür yadına, düşmənə deməzlər, dosta deməzlər.***

Hər şeyi də hər dəqiqə demək olmur, axı. Məsələn, gecənin bir aləmi şaxtada yuxudan qalx, geyin kaska-branjilet, slarjeniya, götür silahını, çıx posta. Özünə gələn kimi adama bir dənə sazaxlı darıxmaq gəlir ki, yanında qazaxlı şair olsa da heç bir şeirnən ovuda bilməz səni.

Belə məqamlarda şeir, kədər üstə kədər gətirir.

"Birdən elə adam düşür yadına, Düşmənə deməzlər, dosta deməzlər" sözündəki o adam da yadına düşdümü, hazırsan. Səndən bir də çətin adam olsun. Bu elə şeydir ki, bəzən çiyin-çiyinə olduğun əsgər yoldaşlarına da deyə bilmirəsən, qəfil posta basqın olsa, düşmənə də demərsən. Ümumiyyətlə, məndən heç parol ala bilməzlər, qaldı başqa söhbət olsun. Özüm ölüm, qan düşər!

İçimdə özünlə danışmaqdan adam təmiz yoğrulur. Vəziyyətlə əlaqədər burda çox şey yadımdan çıxır, daha doğrusu , qəfil unutqanlıq olur. Bir də görürsən ki, hansısa bənd, misra ani yaddan çıxır. Gəl, indi onu tap.

Məsələn, keçənlərdə patrul vaxtı gəlib bu şeir düşmədimi yadıma? Düşmənin gözü çıxsın, alayarımçıq düşdü deyə dəli olmuşdum. İndi bu dağda-dərədə hardan tapım? Allah belə dərdi düşmənimə göstərsin elə. Məsələn, bir gənc erməni şairi posta çıxdığı vaxt darıxsın, yadına erməni şairi dkfjsldlfks şeiri düşsün, amma alayarımçıq. Cırıq-cırıq olsun ordaca.

*Könlüm səndən dönən deyil,*
*Gəlmir xoşuna, gəlməsin.*
*Mən sevirəm, qədrimi bil,*
*Nadan tuşuna gəlməsin.*

*İncit necə istər kefin,*
*Əzabıma baxıb sevin!*
*Ölsəm, ağla, qoy heyifin*
*O göz yaşına gəlməsin.*

*Taleyimin üzü sərtdi,*
*Eşqindən dönən namərddi.*
*Unudulmaq yaman dərddi -*
*Gülüm, başına gəlməsin.*

Eşqindən dönən də, bizim bu ermənilər də namərddi, bilirsiz.

Postun qanunları var, məsələn, post yoldaşınla danışa bilməzsən. Allah aqqı, yaxşı ki, özün özünlə danışmağa bir şey deyilmir. Yaxşı ki, eşidən olmur, yoxsa, bir dəfə yadıma düşəndə içimdə dediyim ' istəyirəm ki, dünyada səndən xoşbəxt adam olmasın' sözünü eşidən adam, zabit, maxe adama nə deyər? Tutaq ki, nəsə dedilər, mən nə cavab verərəm?

**Ona görə məni özümlə baş-başa buraxın deyə də bilməyəcəm. Yaxşısı budur, siz mənimlə qalın, mən də sizinlə. Əsən qalın, gecəniz şeirə.**

# Fransa yaxşı dost, Rusiya xain müttəfiqdirmi?: Samvel Manukyan açıqlayır

**Yəqin ki, unutmamısınız! Erməni siyasi şərhçi Qalust Qriqoryan bu günlərdə sensassion açıqlaması nə regionda, nə də Rusiyada birmənalı qarşılanmadı.**



O, bildirmişdi ki, Ermənistanda, demək olar ki, hamı Rusiyaya və bu ölkə ilə bağlı hər şeyə nifrət edir:" Polislərinin arağı rüşvət kimi götürdüyü bir ölkə (ötən gün Rusiyada bir polis rüşvət olaraq aldığı arağa görə saxlanılıb) bu gün özünü super dövlət kimi göstərmək istəyir. Ermənistanın Qərbin timsalında əsl müttəfiqi var. Onlara biz lazımıq, bizə isə onlar. Qərb artıq başa düşdü ki, biz Rusiyadan bezmişik. Müvafiq olaraq, Qərb üçün Rusiyanı həm siyasi, həm də iqtisadi baxımdan neytrallaşdırmaq şərəf işidir. Onların valyutasının hansı sürətlə ucuzlaşdığına fikir versək, deyə bilərik ki, bu proses artıq start götürüb. Ermənistana qarşı xəyanətin qiyməti belə olacaq", - deyə erməni analitik bildirmişdi.

### Rusiya və ya Fransa?

Adalet.az virtualaz.org-a istinadən xəbər verir ki, bu ilin oktyabr-noyabr aylarında İrəvanda "Ermənistanın ən yaxşı müttəfiqi kimdir - Rusiya və ya Fransa?" mövzusunda sosioloji sorğu keçirilib.

Məlum olub ki, 2019-cu ildən fərqli olaraq, ermənilərin əksəriyyəti Rusiyanı deyil, Fransanı ən yaxın dost ölkə hesab edir. Fransanın mövqeyi iki il əvvəlki sorğu ilə müqayisədə dörd dəfə artıb, Rusiyanın müttəfiq rolu isə xeyli zəifləyib.

Sorğunun nəticələri haqda "Ermənistanın Avrasiya İqtisadi İttifaqında üzvlüyünün yeddi ili: Avrasiya inteqrasiyası dünən, bu gün, sabah" adlı konfransda Avrasiya Ekspert Klubunun üzvü Samvel Manukyan danışıb.

Onun sözlərinə görə, respondentlərə birbaşa sual verilib: "Siz Rusiya/Fransanı Ermənistan üçün dost və ya neytral ölkə hesab edirsiniz?" Məlum olub ki, respondentlərin 35 faizi Rusiyanı, 43 faizi isə Fransanı dost ölkə hesab edir. Digər tərəfdən, Rusiyanı 17 faiz, Fransanı isə 2 faiz dost olmayan ölkə hesab edir.

"Qeyd edək ki, Ermənistanda ermənilərin geosiyasi oriyentasiyası uğrunda gedən informasiya müharibəsində Rusiya və vahid Qərbin mövqeləri qeyri-bərabərdir", - Manukyan erməni respondentlərin seçimini izah etməyə çalışır. "Rusiyaya Avrasiyanın geniş məkanının inkişafı üçün Qafqazda sülh lazımdır, Qərbin strategiyası isə Avrasiya məkanının inteqrasiyasına mane olmaq üçün Rusiyanın periferiyasında münaqişələri və müharibələri qızışdırmaqdır". Ekspertin fikrincə, Ermənistan cəmiyyətində anti-Rusiya əhvali-ruhiyyəsi artır.

### Erməni nifrət edir, bəs Rusiya?

Əslində 44 günlük Vətən müharibəsindən sonra Rusiya dövlətinin və ordusunun gücünü 1990-94 illərdəki kimi arxasında hiss etməyən və öz gəldikləri qənaətə görə, məhz bu səbəbdən məğlub olan Ermənistan və ermənilər güclü xəyal qırıqlığı yaşadılar. Ermənilər onlara qalib gələn Azərbaycandan çox, onlara yardım etməyən Rusiyanı günahlandırdılar. Noyabr ayında Yerevanın mərkəzi meydanında Rusiya əleyhinə başlanan etiraz mitinqləri də bu fikirləri deməyimizə əsasdır. Bəli, müharibədən sonra artıq sosial şəbəkələrdə, teleqram kanallarının erməni seqmentində Rusiyanı xain müttəfiq kimi adlandırmağa başlayıblar.

Rusiya tərəfin fikrini bilmək istəsək, təkcə rusiyalı hərbi analitik Yevgeni Mixaylovun sərt mövqeyinə nəzər salmaq yetər: "Sasna Tsrer" və "Ermənistan Avropa Partiyası"ından ibarət erməni blokunun İrəvanda keçirdiyi mitinqə toxunan ekspert bildirir: "Ermənistanda minlərlə insan küçələrə çıxıb etirazlarını bildirib. İnternetdə yayılmış bu "debillər yürüşünün" videoları Rusiyada da maraqla izlənib. Videolarda yüzlərlə ermənin Rusiyanı söydüyü, Putini lənətlədiyi görünür. Rus milləti satqın, ikiüzlü adlandırılır. Halbuki, elə həmin ermənilərin sağ qalmalarına səbəbkar da Rusiyadır. Kreml Ermənistana ciddi sanksiyalar tətbiq etməlidir. Rusiyaya qarşı çıxan bu nadanlara Rusiya ərazisinə daxil olmaq qadağan olunmalıdır. Qazandıqları yer Rusiya, yaşadıqları yer Rusiya, varlıqlarını borclu olduqları yer Rusiya ola-ola, onlar bizə qarşı çıxırlar".

**Əntiqə Rəşid**

# "Yerablur"u ziyarət etmək üçün Xankəndidən İrəvana pulsuz marşrutlar təşkil olunacaq

**Oyuncaq "dqr" separatçı başçısının cəzasızlıq sindromu yaşadığı aşkardı. Əgər belə olmasaydı,Qarabağın Rusiya sülhməramlılarının yerləşdiyi Azərbaycan ərazilərində gündə bir qərar və "qanun"la çıxış etməzdi.**



Adalet.az Sputnik Armeniaya istinadən xəbər verir ki, 44 günlük müharibədə ölən erməni hərbçilərin yaxınları üçün Stepanakertdən İrəvana pulsuz marşrutlar təşkil olunacaq.

Bu barədə çərşənbə günü Dağlıq Qarabağın "aparat rəhbəri "Artak Beqlaryan Facebook-da məlumat verib.

"DQR"oyuncaq dövlət naziri qeyd edib ki, anım günlərində Dağlıq Qarabağla İrəvan arasında pulsuz avtobuslar işləyəcək: " Yerablur hərbi qəbristanlığa ziyarət etmək istəyənlər səfər üçün əvvəlcədən qeydiyyatdan keçməlidirlər. Artsax hökuməti həlak olanların yaxınları üçün pulsuz avtobuslar verəcək ki, onlar yanvarın 2-də və/yaxud 7-də Yerevanda Yerablur hərbi qəbir-xiyabanına baş çəkib evlərinə qayıda bilsinlər".

***P.S.** Yəqin ki, Rusiya sülhməramlılarının himayəsinə sığınan qondarma "dqr"in oyuncaq "dövlət rəsmiləri" Azərbaycan hökumətinin qanunlarının kobud şəkildə pozduqlarını anlamamış deyil.*

**Əntiqə**

# ABŞ-ın gələn il Ukraynaya göstərəcəyi yardımın məbləği açıqlanıb



**ABŞ-ın 2022-ci il dövlət büdcəsi layihəsində Ukraynaya 756 milyon dollar məbləğində yardım nəzərdə tutulub.**

Bu barədə xarici işlər naziri Dmitro Kuleba bildirib.

Nazirin sözlərinə görə, ABŞ Ukraynaya maliyyə dəstəyinin ümumi həcmi 1 milyard dollar, o cümlədən təhlükəsizlik sahəsində 400 milyon dollar məbləğində qalacaq: "2021-ci ildə rəsmi Vaşinqtonun maddi texniki dəstəyi 130 milyon dollardan çox olub. Bu da Ukrayna ordusuna konkret yardım deməkdir".

Həmçinin ABŞ tərəfindən Ukraynaya 4 ədəd "İsland" tipli hərbi kater, "Javelin" tipli tankvuran sistemləri, snayperlərə qarşı, kəşfiyyat, elektron mübarizə vasitələri, gecəgörmə və digər optik cihazları, rabitə sistemləri, tibbi ləvazimat, habelə müxtəlif çaplı atıcı silah və sursat çatdırıldığı bildirilib.

**MEHRİBAN**

# Yol polisi mükafatlandırıldı



**Heç kimə sirr deyil ki, hərəkətin təhlükəsizliyinin təmin edilməsində və yol hərəkəti qaydalarının nizamlanmasında yol polisinin rolu əvəzsizdir.**

Ən azından ona görə ki, hərəkət iştirakçıları bunu hər gün görürlər və bilirlər. Nə yaxşı ki, bəzi qurumlar yol polisinin bu fəaliyyətini qiymətləndirməyi bacarır. Belə ki, bu yaxınlarda "enezaret.az" saytı bir çox qurumları müsbət fəaliyyətinə görə mükafatlandırıb. Onların arasında Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi, ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Vaqif Əsədov da var. Tədbirdə bildirildi ki, platforma üzərindən vətəndaşların ən çox müraciət etdiyi dövlət idarələrindən biri də Bakı Şəhər Dövlət Yol Polisi İdarəsidir. İdarənin məsul şəxsləri də daim bu platformaya nəzarət edir, şikayətləri, uyğursuzluqları aradan qaldırmağa, təklifləri dəyərləndirməyə çalışıb. Məhz bu cür keyfiyyətlərinə görə məlum qurum mükafatla təltif edilib.

Bu bir daha göstərir ki, cəmiyyətdə hərəkət iştirakçılarının fəaliyyəti həmişə diqqət mərkəzindədir və onların təhlükəsizliyini təmin edən qurumlar heç vaxt yaddan çıxmır. Biz də bir daha bu mükafat üçün Bakı Şəhər Dövlət Yol Polisi İdarəsini və o cümlədən polis polkovniki Vaqif Əsədovu təbrik edirik.

**Emil FAİQOĞLU**

İlqar Rəsul



# SÖZ - XƏBƏR VƏ SOYUDUCU İSTEHSALI

*Bu günkü jurnalistika və media mahiyyət və fəaliyyət baxımından harada olmalıdırsa, məhz oradadı. Özü də təkcə bizdə yox, bütün dünyada. Və bizə də bu "sıçrayış" dünyanın özündən - inkişaf etmiş dövlətlərdən gəlib.*

*Vəziyyət eynidir hər yerdə. Sadəcə mövcud gerçəklik "parlaqlığı" baxımından böyük, qüdrətli cəmiyyətlərdə bir cür, kiçik, nisbətən zəiflərdə başqa cür təzahür edir.*

*Üstəlik, yalnız jurnalistika deyil, bütün sahələr belədi. Yəni təhsil, səhiyyə, sənaye və s.*

*Məsələn:*

*Ümumi götürəndə klinikaların əsas məqsədi sağaltmaqdan daha çox, xəstə cəlb etməkdi. Təhsilin əsas hədəfi şagird, tələbə kontingentinə malik olmaq.*

*İndi keçək konkret misala:*

*Əvvəl də dünyada soyuducuları qazanc məqsədilə istehsal edirdilər. Amma etibarlılığını heç də qazancdan arxa plana keçirmirdilər. İndi istehsalçılar soyuducunun 2-3 ildən sonra tədricən sıradan çıxması üçün daxilində min cür tələ qururlar. Eləcə də elektrik sobasında və s.*

*Yəni, əgər, bu gün istehsalçı dünya əsas diqqətini məhsulun keyfiyyətinə yox, malın reklamına yönəldirsə, niyə də mətbuatın amalı xəbərin başlığı yox, mahiyyəti, yaxud da televiziyaların dərdi aparıcının görünüşü yox, ağlı, savadı olmalıdır? Axı jurnalistika özü də bir istehsal sahəsidir və o da məhsulunu satmalıdır. Demək, diqqətini reklama yönəldəcək. Mətbuatın əsas reklamı da ki, cəlbedici başlıqlardı.*

*Bəli, düz deyil, belə olmamalı idi. Amma belədi. Əksini etsə, digər istehsal sahələrindən geri qalacaq və iflas edəcək. İllah da bizim kimi (hələ ki, hərənin bir sat açdığı) maaliyyəsi sabit olmayan mühitlərdə.*

*P.S. Əgər söz silahdırsa, demək ki, mətbuat silah istehsalçısıdır. Silah da ki, heç də həmişə haqq, ədalət naminə istehsal olunmur. Əlbəttə ki, hücum məqsədilə də istifadə olunacaq.*

*O ki, qaldı sözün müqəddəsliyinə, görünən odur ki, söz yalnız bir dəfə müqəddəs olub. O da Allahın nitqində "ol" deyimində. O da əgər olubsa...*

Eminquey

# Troya kimi bir tale yaşayırıq...



***Televiziyanı tənqid edirsən, "bu sehirli güzgü bizi uçuruma aparır" deyirsən, deyirlər, nə işinə qalıb, hərə bir tikə çörək aparır evinə. Üstəgəl, camaat da baxır.***

***Tənqid edirsən ki, bu xalqın qəhrəmanları Tosu Zəngilanski, Kalonkalı Əfqan, Bayram Nurlu və sairələri olmamalıdır, deyirlər, nə işinə qalıb, hərə bir tikə çörəyini qazanır. Əyləncədi də, neyləsin camaat?!***

***Tibb sahəsini tənqid edirsən, o dəqiqə dibazol vururlar ki, yaxşı həkimlərimiz var, sən niyə ancaq pisləri görürsən. Belə də ki, nə işinə qalıb, hərə bir tikə çörəyini qazanır.***

***Təhsildən yazırsan, müəllim-şagird münasibətlərindən yazırsan, təhsilimiz bərbaddı yazırsan, ölkənin düşünən başları get-gedə yoxa çıxır, gedir buralardan yazırsan, deyirlər, nə işinə qalıb, gül kimi müəllimlərimiz var. Hərə bir tikə çörəyini qazanır.***

***İntiharlardan yazırsan, bu intiharların əsl səbəblərindən yazırsan, belə olmamalıdı yazırsan, deyirlər, Allaha inanan adam intihar etməz, intihar edənin yeri cəhənnəmdir.***

***Zorla ərə verilənlərdən yazırsan, hayqırırsan ki, bu, özünüzdən sonra gələn nəsli şikəst qoymaqdır, həyatını məhv etməkdir, məhv olan ailələr normal insan yetişdirə bilməz deyirsən, deyirlər, nə işinə qalıb, camaatın ailə işinə qarışmaq bizə düşməz.***

***Nədən yazırsan yaz, nə qədər deyirsən de, xeyri yoxdu. Ağzından vurub öz gözlərini qapayıb həyatlarına davam edirlər.***

***Yılmaz Özdil necə ki öz köşəsində yazıb "Cassandra sindromu" yaşayır bu xalq, eynisini özümüz üçün də deyə bilərik.***

***Qardaş xalqıq...***

***Cassandra...***

***Troya şahzadəsidir. Hektorun, Parisin bacısı. Sonu faciəylə bitən mifoloji hekayənin qəhrəmanıdır.***

***Rəvayətə görə, ona aşiq olan Apollon tərəfindən gələcəyi görmə bacarığı verilib, amma Apollinla yatmağı qəbul etmədiyi, ona biət etmədiyi üçün Apollonun qəzəbinə düçar olur və bu bacarıqla lənətlənir.***

***Lənətləndiyi gündən etibarən baş verəcəkləri əvvəldən görsə də, ətrafındakıları xəbərdar etsə də, heç kim ona inanmayacaq və Cassandra bu əzabla yaşayacaq.***

***Fəlakətləri öncədən görmək bacarığı onun öz fəlakətinə çevriləcək.***

***Qardaşı Parisə yalvarsa da, Helenanı Troyaya gətirsə, Troyanın məhv olacağını desə də, qardaşı ona inanmır, hətta qısqanclıqda günahlandırılır, təhqir olunur.***

***Bütün Troya xalqı döyüşü qazandıqlarını düşünərkən intriqalara, hiylələrə qarşı xəbərdarlıq etsə də, onunla məzələnirlər, inanmırlar, Troya atı kimi bir tələni ağıllarına gətirmirlər.***

***Heç kimi inandıra bilmir, çarəsiz bir halda əlində başqa heç nə gəlməyən Cassandra bu çarəsizliyin içində çırpınır, hayqırır, amma çifayda.***

***Məcburən bir kənara çəkilir, ürəyinə daş bağlayır, təkliyinə qapanır və sonu gözləyir.***

***Son isə məlumdur: Troya fəlakətə düçar olur!***

***Homerin İlliadasında var. Romanların, filmlərin mövzusuna çevrilib. Hətta elmi termin də var - Cassandra sindromu.***

***"İddia edildiyində inanılmayan, amma sonra gerçəkləşən, inanmayanları heyrətə gətirən faciəvi hadisələr".***

***İnsanların pis xəbərləri bilə-bilə görməzdən gəlmələri, bilə-bilə rədd etmələri, yox saymaqlarını ifadə edir.***

***İndi ölkəmizdə nə qədər Cassandra var?***

***Nə qədər Cassandra infarkt olub?***

***Nə qədər Cassandra qaçıb gedib?***

***Nə qədər Cassandranın öldüsü-qaldısı bilinmir?***

***Allah bilir...***

# G7 insanlıq üçün ən böyük təhlükəni açıqladı



**G7 ölkələri koronavirusun Omikron ştammının yüksək yayılma sürətini insan sağlamlığı üçün ən ciddi təhlükə adlandırıblar.**

**Bu barədə Böyük Britaniyanın Səhiyyə Nazirliyinin saytında məlumat yerləşdirilib.**

**G7 dövlətlər arasında əməkdaşlığı gücləndirməyə və problemin tezliklə həllini tapmaq üçün mövcud məlumatları paylaşmağa çağırıb.**

**MEHRİBAN**

# "Xilaskar"

**Yaxın günlərin söhbətidi. Son yazılarımdan biri ilə əlaqədar olaraq dəyərli ziyalımız, çox hörmətli ağsaqqalımız, professor Qəzənfər Paşayev mənə zəng etmişdi. Söhbət zamanı öyrəndim ki, Qəzənfər müəllimin yeni kitabları işıq üzü görüb. Təbii ki, "kitab xəstəsi" olan mən bu fürsəti qaçırmadım. İstəyimi nəzərə alan hörmətli Qəzənfər müəllim həmin kitabları ertəsi günü mənə göndərdi və mən də həftənin istirahət günlərindən, yəni şənbə, bazarından istifadə edib, öncə "Xilaskar"ı oxudum.**

Bəri başdan deyim ki, kitabdakı məqalələrin bəziləri ilə dövrü mətbuatdan tanış idim. Amma onların hamısını toplum şəklində bir kitabda görmək zənnimcə daha maraqlı idi. Ən azından ona görə ki, həmin yazıların düzülüş ardıcıllığı adamı, yeni oxucunu sözün əhatə dairəsindən çıxmağa qoymur. Bu mənada kitaba ön söz yazmış AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin təbirincə desəm, "Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin oxuculara təqdim olunan azərbaycançılıq tədqiqatlarında yeni hadisədir. Bu vaxta qədər azərbaycançılıq ideyalarından, əsasən elm və əbədiyyat baxımından söz açan Qəzənfər Paşayev "Xilaskar" kitabında ilk dəfə olaraq azərbaycançılıqdan ictimai-siyasi müstəvidə bəhs etmişdi".

Mən AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi şurasının qərarı ilə çap olunmuş bu kitabın ön sözündən başlayaraq son vərəqinə qədər uzun bir yolun oxucusu (əslində yolçusu - Ə.M.) olmaqla böyük bir zaman kəsiyinin şahidi kimi oxuduqlarımla gördüklərimi paralelləşdirməyə, müqayisə etməyə çalışdım. Yəni, çox hörmətli akademikimiz İsa Həbibbəylinin ön sözdə vurğuladığı məqamlardan tutmuş dəyərli professorumuz Qəzənfər Paşayevin hər bir cümləsinə qədər həm şüuraltı, həm də şüurüstü bütün olmuşları sözün fonunda bir rəsm kimi görməyə başladım. Elə bil ki, müəllif mənimlə qarşı-qarşıya oturub Azərbaycan xalqının XİLASKARININ həyat və fəaliyyətini, xalqa sevgisini, azərbaycançılığın özülünü qoymaq anından onu təbliğ etmək müstəvisinə qədər bütün detalları yenidən mənə söhbət edir, danışır. Özdə təkcə sözlə yox, o sözün çəkdiyi rəsmlə mənə göstərir. Təsəvvür edin ki, bütün fəaliyyəti xalqımızın gözü önündə olan unudulmaz bir ŞƏXSİN xalqa həsr olunmuş həyatını yenidən izləmək fürsəti bu an mənim üçün göydən düşmə olur. Üstəlik, Qəzənfər müəllimin həyat təcrübəsi, ulu öndəri yaxından görmək, təmasda olmaq imkanları da bu kitabda oxuduqlarımı mənə bədii fikir, bədii söz kimi deyil, fakt kimi göstərir. Bir az da fikrimi çılpaqlasam, onda siz də bilərsiniz ki, mən şahidin dilindən onu gördüyünü, eşidib dinlədiyini illər sonra yenidən dinləmək imkanı qazanmışam bu kitabla.




Burada bir nüansı mütləq qeyd etməliyəm. Yəni, müəllifin fikirlərinin elə məqamları var ki, mən kitabın həmin səhifələri arasına kiçik kağız parçaları qoymaqla ona istənilən məqamda qayıtmağı asanlaşdırmışam. İstəmişəm ki, həmin o məqamları günün birində, ya öz yazımda, ya söhbətimdə təkrarlanmasını diqqətdən qaçırmayım. Çünki o fikirlərin canlı şahidi məhz Qəzənfər Paşayev olubdur. Məsələn, Qəzənfər müəllimin ulu öndərin Sovet dönəmində, eləcə də hakimiyyətə ikinci qayıdışından sonra Tovuz rayonuna etdiyi səfərlərlə bağlı yazdığı xatirələr, həmçinin Azərbaycan yazıçılarının qurultaylarındakı fikirlərə ümummilli liderin reaksiyaları, həmçinin onun dünya liderləri ilə, din xadimləri ilə görüşlərində ayrı-ayrı detallar mənim üçün həm təzə idi, həm də bildiklərimin yenilənməsi. Bax, bu mənada Heydər Əliyevin Tovuzda əkin sahələri ilə bağlı, burada gördüyü qırmızı daşla bağlı dedikləri Qəzənfər müəllimin qələmində mənim üçün tam yeni bir fakt olmaqla yaddaşıma köçdü.

"Xilaskar" kitabında bir məqam da mənim üçün xüsusi maraq doğurdu. Belə ki, xilaskarlıq missiyasının atadan-oğula keçmə prosesi o qədər ustalıqla qələmə alınıb ki, burada oxucu bir an da olsun tərəddüd hissi yaşamır. Yəni, ulu öndərin hakimiyyətdə olduğu dövrdə bugünkü prezidentimizin də iştirak etdiyi tədbirlərdəki səslənən fikirlər, cənab İlham Əliyevin bir millət vəkili kimi gördüyü işlərə münasibətlər artıq bu missiyanın necə atadan-oğula keçdiyini özü-özlüyündə büruzə verirdi. Elə bu səbəbdəndir ki, torpaqlarımızın 44 günlük Zəfər müharibəmizlə işğaldan azad edilməsinə gedən 30 illik zaman kəsiyi xalqın böyük bir hissəsinin daxili inamı kimi yaşamışdır. Xalq ulu öndərə inandığı kimi, Xilaskarına güvəndiyi kimi, cənab İlham Əliyevə də güvənmiş, inanmış və onun ətrafında birləşmişdi. Bu kitabın 123-cü səhifəsində müəllim yazır ki, "Xoşbəxtəm ki, bu ahıl çağımda inanılmaz tarixi hadisənin şahidi oldum".

Mən bir oxucu olaraq müəllifə təşəkkür etməklə bərabər bir istəyimi də burada qeyd etməyi özümə borc bilirəm. Belə ki, müəllifi tanıyan, onun həyat ideyalarına, yaradıcılığına bələd olan hər kəs Qəzənfər müəllimin Azərbaycan elm və ədəbiyyatı üçün nələr etdiyini yaxşı bilir. Bu mənada kitabda oxucuya təqdim edilən bilgilərin yüzə yüz həm gerçəkliyi, həm də səmimiyyəti heç bir şübhə doğurmur. Çünki söhbət xalqın xilaskarlarından gedir və bu söhbəti də edən xalqın sevilən ədəbiyyat və elm adamıdır. Elə bu faktın özü deməyə əsas verir ki, müəllifin də vurğuladığı kimi indi masamın üzərində olan "Xilaskar", professor, elm xadimi, ən əsası isə Azərbaycanı öz qələmi ilə rus, fars, ingilis, türk, ərəb dilli oxuculara sevdirən bir söz sərrafının, söz fədaisinin ürək pıçıltılarıdır, qəlbinin səsidir. Təbii ki, ürəyin pıçıltısı, qəlbin səsi həmişə diqqəti çəkir, ruhları, könülləri oxşayır.

***P.S. Çox hörmətli Qəzənfər müəllim! Mən sizin qələminizdən çıxan kitabların demək olar ki, əksəriyyətini oxumuşam. Dilimizə çevirdiyiniz kitabları da belə. Mənə görə hər kitabınız oxucuya hədiyyədir. Elə "Xilaskar" da onlardan biridir. Hədiyyə barəsində atüstü, isti-isti yazdığım bu fikirlər hələ mənim ürəyimdəkilərin hamısı deyil. Düşünürəm ki, "Xilaskar"a bir də qayıdacağam. Təbii ki, bugünkü reallıqlarımıza görə.***

**Əbülfət MƏDƏTOĞLU**



# BİR GƏNCİN ROMANI

**VAQİF YUSİFLİ**

**Son illərdə cavan yazıçılar roman janrına müraciət edirlər və əlbəttə, bu hadisəni təsadüfi bir hal hesab etmək doğru olmazdı. Keçən əsrin 70-80-ci illərindəki uğurlu roman mərhələsindən sonra bəzi istisnaları nəzərə almasaq, bu janrın taleyində bir eniş başlandı. Amma ikimininici illər gəldi və bütün nəsildən olan yazıçılarımız (daha çox gənclər) roman boşluğunu aradan qaldırmağa cəhd etdilər.. Əlbəttə, bir sıra maraqlı, düşündürücü romanlarla yanaşı, yalnız adı roman olan, bədii -sənətkarlıq baxımından bu adı doğrultmayan nümunələr də yarandı. İstər-istəməz bir əsr bundan öncə nəsrimizdə yaranan "kiçik romanlar"ı xatırlayırıq, o illərdə (1905-1916) iyirmidən çox belə romanlar yazılmış, çap olunmuş və bunların da əksəriyyəti sevgi-məişət məsələlərini əhatə edirdi ("Solğun çiçək", "Can yanğısı", "Gözəllərin vəfası", "Bir yetimin naləsi", "Həyatın qəhri altında", "İki nakam" və s.). İndi, iyirmi birinci əsrin əvvəllərində də həmin kəmiyyət göstəricisi ikiqat, üçqat təkrar olunur. Amma iyirminci əsrin ilk illərindəki romanlarla iyirmi birinci əsrin ilk illərindəki romanlar tamam fərqli bir mənzərəni əks etdirir. Bəsit süget əsasında yazılan və "əzabkeş" qəhrəmanların uğursuzluğunu əks etdirən romanlar hara, müasir roman texnikasını, dünya romanının bir çox elementləri ilə ehtiva olunan indiki romanlar hara? Yəni birmənalı şəkildə deyə bilərik ki, indiki romanlar qloballaşan, yeniləşən əsrimizin özünə oxşayır. Lakin hansı yeniliklərlə, hansı inkişaf səviyyəsi ilə diqqəti cəlb etməsindən asılı olmayaraq roman janrının ali məqsədini müəyyənləşdirən klassik Belinski proqramını unutmaq olmaz: "Romanın məzmunu -müasir cəmiyyətin bədii təhlilidir Müasir romanın vəzifəsi-həyatı bütün çılpaq həqiqəti ilə əks etdirməkdir. Buna görə çox təbiidir ki, roman, bir istisna kimi, ədəbiyyatın bütün digər növlərinə nisbətən hamının diqqətini cəlb etmişdir: cəmiyyət romanı öz güzgüsü hesab edir və ona baxıb özünü görür, öz-özünü dərk edir".**

Adəm təxəllüsü ilə ilk romanını təqdim edən Nizami Hüseynovun "Prometey əfsanəsi"ni oxudum və istəyirəm bu əsər barədə təəssüratlarımı ifadə edim. "Hədəf Nəşrləri"nin baş redaktoru, cavan tənqidçi Cavid Qədir bu roman haqqında "Ədəbiyyat qəzeti"ndə "Prometeyin yüksəlişi" adlı bir məqalə ilə çıxış edib, müəllif və onun əsəri barədə bir-iki tərifi ilə razılaşmasam da, prinsip etibarilə dəyərli yazıdır. Amma mən romana bir qədər fərqli, bir az ənənəvi yanaşmaq istəyirəm,istər bu roman "təpədən dırnağa postmodern üslubda" yazılsın, ya müəllifin "mütaliə bazasından, ədəbi hazırlığından xəbər versin", əsas olur ki, bu roman oxucuya nəyi təlqin edir, romanı oxuyub bitirdikdən sonra hansı fikirləri aşılayır və ya əsərdə təsvir olunan hadisələr və obrazlar ümumiləşdirici mahiyyət daşıyırmı suallarına cavab axtaraq.



Əgər bir roman xalqın həyatında baş verən faciəli hadisələrdən bəhs edirsə, o dövrdə (təxminən doxsan - yüz il öncə) yaşayan insanların məlum səbəblər üzündən məşəqqətlərə, mənəvi-maddi işgəncələrə düçar olmasından söz açırsa, burada heç şübhəsiz, tarixi həqiqətlər təhrif olunmamalıdır. Sovet dönəmində yazılan bir sıra romanlarda əsl həqiqətin üzünə pərdə çəkilirdi. Nizami Hüseynov birmənalı şəkildə tarixi hadisələrə qəti mövqe nümayiş etdirir. Bir müəllif kimi də, əsərin əsas qəhrəmanının mövqeyi kimi də O, öz qəhrəmanını Demokratik Azərbaycan Respublikası dövründən (hətta olndan əvvəl) ta repressiyaların iyirminci illərindən başlanan ilk və dəhşətli dövrünə qədər baş verən hadisələri ardıcıllıqla təsvir hədəfinə çevirir. Bu hadisələrin mərkəzində əzabkeş, eyni zamanda, azad ruhlu, istiqlal duyğulu bir gəncin həyatda hansı çətinliklər və faciələrlə üzləşdiyini qələmə alır. Bəli, romanı bu mənada faciəvi əsər də adlandırmaq olar. Amma hər hansı faciə -tragediya narahat ictimai epoxalar, inqilab, tufan və fırtınalar keçidində vüsət tapır. Demokratik Azərbaycan Respublikasının süqutu faciə idi, Şura inqilabının -bolşevik-kommunist rejiminin bərqərar olması da faciə idi, insanların kütləvi şəkildə həbs və sürgün, Sibir əzabına düçar olması da faciə.. Nizami Hüseynov məhz bu faciələrlə birgə nəfəs alan bir gəncin-Azərin taleyindən söz açır, amma bu faciələr həm də onun mənsub olduğu millətin faciəsidir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan nəsrində hələ də 1918-1920-ci illərin, həmçinin iyirminci-otuzuncu illərin milli-mənəvi faciələri lazımınca əks olunmamışdır və Nizaminin romanında bunları görürüksə, əlbəttə, bu da maraqlı bir hadisədir.

"Prometey əfsanəsi"ni sənədli roman hesab etmirik, amma sənədli romana xas olan sənədlilik prinsipinə yeri gəldikcə müraciət olunur. Amma bu romandakı obrazların fərdi yaşavntılarına kölgə savlmır. Müəllifin axtarışçı missiyası buna imkan verir k öz qəhrəmanını həqiqəti dərk etmək, onu sonacan açıqlamaq üçün mübarizəyə səsləşin. Onsuz da Azər və hadisələri nəql edən təhkiyəçi (müəllif) elə bu yolun yolçusudurlar. Deməli, bir gəncin romanı iki insana aiddir, həm əsərin qəhrəmanına, həm də müəllifə.

Romanda iyirminci illərin kommunist-bolşevik zorakılıqlavrı Solniki və Kond cəhənnəmliklərinin (dəhşətli süröün yerlərinin) təsvirində bariz nəzərə çarpıfr və buradav qeyd etməyi lazım bilirik ki, müsavatçıların Soloniki cəhənnəmliklərinə sürgün edilməsi və çoxlarının orada məhv olması barədə Azərbaycan tavrixçiləri və publisistləri müəyyən məqalələr yazsalar da bu mövzu tam və dolğun şəkildə öz həllini tapmayıb. Ona görə də, Nizami Hüseynov məşhur disident Oleq Volkovun "Zülmətə yuvarlanarkən" xatirələrindən, Kiselyov-Oqomovun "SSRİ-də ölüm düşərgələri" və "SLON" kitablarına müraciət edir.. Bu kitablarda müsavatçıların başına gətirilən fəlakətlərdən söz açılır. Nizami Hüseynov ilk romanında bu janra xas olan iki əsas xüsusiyyəti nəzərdən qaçırmır. Birincisi; obrazların, xüsusilə, əsas qəhrəmanın xarakterini, duyğu və düşüncələrini təbii və inandırıcı vermək lazımdır, ona xas olmayan xüsusiyyətlərdən sərf-nəzər etsin. Bu baxımdan yanaşanda, Azərin qocalıq çağlarına qədər keçdiyi ömür yolu real və inandırıcı verilib. Azər Soloniki və Kond cəhənnəmliklərində min bir əziyyətə, təhqirə, vəhşiliyə düçar olur, amma insanlıq ləyaqətini itirmir.

Romandakı digər personajların hər biri müəyyən xarakuterik xüsusiyyətləri özlərində daşıyırlar- doktor Cahangir Ağayev xeyirxahlığın, müsavatçı Seyid fədakarlığın və əqidə sarsılmazlığının , Kostikov isə zalımlığın, alçaqlığın rəmzi kimi diqqəti cəlb edirlər. İkincisçi; hər hansı bir romanda dil və üslub müəyyənliyi nəzərə çarpmalıdır. Romanın dili normal ədəbi dil səviyyəsindədir, bu dilin müəllifn təsvirlərində necə təcəssüm etməsinə diqqət yetirsək görəcəyik ki, müəllif hər hansı hadisəni təsvir edərkən obrazın kueçirdiyi halları, əhval-ruhiyyəsindəki dəyişmələri ön plana çəkir. Məsələn, Azərin qatarda tanış olduğu Yoldaş özünü öldürmək, intihar etmək istəyir. Baxın: "Yoldaş jünən mənə dediyi intiharı gerçəkləşdirmək istəyirdi, ona görə də dilini dinc saxlamır, dayanmadan söyürdü, mümkün qədər tez ölmək arzusu ilə söyüşlərin şiddəti də artırdı. Yoldaşı özündən gedənə qədər, yaxud elə susana qədər döydülər. Yoldaşı müdafiə etdiyimi görəndə məni də döyməyə başladılar. Başının arxasından tüfəngin qundağı ilə bərk zərbə dəydi, yarım saat qşanı durdurmaq mümkün olmadı.Ölüm bu qədər rahat ola bilməzdi".

Romanın dili də onun üslubu ilə həmahəngdir, burada bədii və publisistik üslub yanaşı addımlayır.

**"Prometey əfsanəsi" Nizami Hüseynovun ilk romanıdır və təbii ki, ilk roman olduğu üçün də bəzi qüsurları olmamış deyil. Romanın bir neçə yerində səliqəsizlik nəzərə çarpıfr, müəllif öncə danışdığı bir əhvalatı sonrakı səhifələrdə təkrar edir. Daha sonra: bəzi obrazlar natamamdır. Məsələn, Cahangir Ağayev haqqında yalnız xoş sözlər eşidilir, amma o, bir obraz kimi tam açılmır. Sonra: Roman ikinci dəfə nəşr edilərsə, bir çox publisistik haşiyələr, məlumatları azaltmaq haqqında fikirləşməlidir. Amma "Prometey əfsanəsi" maraqlı romandır o, bizə bu fikri təlqin edir ki, KEÇMİŞİ UNUTMAYAQ, BÜTÜN DƏHŞƏTLƏRİ İLƏ...**



***Ramiz RÖVŞƏN***

## *ŞƏHƏRLƏRƏ OXŞAYIR ADAMLAR*

**Şəhərlərə oxşayır adamlar.
İllah ki, axşamlar,
işıqlar keçəndə.
Xatirələr küçə-küçə oyanır içində.**

**Tramvaylar, maşınlar
keçir o küçələrdən.
Tanış üzlər boylanır
sənə pəncərələrdən.
Hamısı gedir, itir
küçənin lap uzaq bir döngəsində.**

**Küçənin o başındakı
ağacın kölgəsində
bir qızla bir oğlan öpüşür indi.
Amma ağac özü yoxdu,
ağac özü kəsilib neçə ildi...**

**Şəhərlərə oxşayır adamlar;
qocalar, cavanlar.
Kimisi Gəncə kimi köhnə,
Kimisi Sumqayıt kimi təzə.
Kimisi kürəyini dağa söykəyib,
Kimisi ayaqlarını sallayıb dənizə.
Bir ucdan tikiləni də var,
bir ucdan söküləni də.**

**Mən şəhər deyiləm hələ,
Bir balaca qəsəbəyəm.
Bəlkə də buna görə
Hirsliyəm, əsəbiyəm.**

**Qəsəbə də deyiləm, yox,
bapbalaca bir evəm.
Yox, heç ev də deyiləm,
xırda bir akvariumam bir evdə,
ya da akvariumda lap xırdaca bir balıq...
Qoy xətrinə dəyməsin
Kürün də, Xəzərin də.
Üzmək istəyirəm, üzmək,
dünya dənizlərində.
Sonra ayaq açıb
dünyanı gəzmək istəyirəm.**

**Daha nələr istəyirəm, nələr?
...Şəhərlərə oxşayır adamlar...
Mən də şəhər olmaq istəyirəm, şəhər.
Bakıdan daha böyük,
Parisdən daha gözəl...**

## *ÖMRÜN İKİ TƏRƏFİ*

**İki tərəfi var hər ömrün, iki;
göründüyün tərəf, gördüyün tərəf.
Hansına düşəcək, nə biləsən ki,
ömrün axırında öldüyün tərəf?
Bəlkə də, -
səni bu tərəfdə asdıracaqlar,
sonra o tərəfdə basdıracaqlar.**

**Bir qız sevəcəksən sən bu tərəfdə,
ona deyəcəksən:
- Dünyada təksən!
Sonra o tərəfdə bir pinti evdə
bir qadınla ömür çürüdəcəksən.**

**Nə qəlbin yanacaq hicran odunda,
nə də sevdiyin qız yadın olacaq.
Çünki elə o qız da, o qadın da,
hər ikisi eyni adam olacaq.**

**İki tərəfi var hər ömrün, iki...
Hər iki tərəfdə
yeri olmayan,
Nəfəsi gəlsə də, diri olmayan
sənin kimiləri o qədərdi ki.**

**Sən o fərsizlərin sırasındasan;
nə fərqi, beşinci, ya onuncusan.
Xorda oxuyanlar arasındasan;
ən arxa cərgədə
ən sonuncusan.**

**Nədir oxuduğun? Bilmirsən... heyif!..
Bir də ki, heç sizi dinləyənmi var?
Nə çoxdu o xorda
bir söz deməyib
Yalandan ağzını açıb-yumanlar.**

**Nə fərqi, başdasan, yoxsa axırda,
Hamıdan birisən sən də o xorda.
Hamıdan birisən, -
nə pis, nə yaxşı,
Amma yox, naşükür olmağa dəyməz.
Şükür, hər şeyin var -
evin-eşiyin, arvad-uşağın,
bir də ki, içində gizlədiyin səs.
Bu illər uzunu bu cür, gizlicə
Necə saxlamısan o səsi -
necə?**

**O səs nə saf qalıb sənin içində!
Saf qalıb -
bu qədər hirsin, acığın,
ağrının, acının, qəmin içində;
zili içindədi, bəmi içində.**

**O səsdi hamıdan gizlədiyin sirr,
o səsdən qiymətli axı nəyin var?
Arvaddan, uşaqdan xəlvət, arabir
o səslə zümzümə eləməyin var:
- Əzizim, ulu dağlar,
Çeşməli, sulu dağlar,
Burda bir qərib ölüb,
Göy kişnər, bulud ağlar...**

## *ÜMİD YERİ*

**Qulaq eşitmirsə ağız deyəni,
necə danışasan, eşidiləsən?
Nə yaxşı, heç kəsin xəbəri yoxdu,
heç kəs də bilmir ki, sağsan hələ sən.**

**Dünən dörd yanını kəsənlər belə
indi elə bilir, sən daha yoxsan.**

**Dünən səndən qorxub əsənlər belə
indi elə bilir, sən daha yoxsan.**

**Amma nə yaxşı ki, sən hələ varsan,
sən hələ dirisən bu yer üzündə.
Ümidin hər yerdən üzüləndə də,
bir ümid yerisən bu yer üzündə.**

**Dünyadan sən necə bezəsən axı,
hələ yazılmayan varaqların var.
Bir qoca ağaca bənzərsən axı,
hələ bar gətirən budaqların var.**

**Görmüsən, güvənib yarpaqlarına
kölgəndə uzanıb yatanları da.
Sonra da oyanıb, budaqlarına
yerdən daş götürüb atanları da.**

**Amma bar verməkdən bezmirsən yenə,
Heç kəsdən inciyib-küsmürsən yenə.**

**Adam, barmağına tikan batanda,
çiçəkdən küsürmü, sən də küsəsən?
Ağac, budağından yarpaq qopanda,
küləkdən küsürmü, sən də küsəsən?**

**Sən bir ağac kimi budaq-budaqsan,
Kiminə açılan yaşıl qucaqsan,
Kiminin evində yanan ocaqsan,
Fərqi yox -
lap əli baltalı olsun, -
Kim səndən nə qırıb aparacaqsa,
qoy elə bu başdan halalı olsun...**

## *HUŞSUZLUQ*

**Bu sənin çıxdığın sonuncu qapı,
arxanca boylanan son pəncərədi.
Sənin oxuduğun o son kitabın,
yadında qalıbmı, adı necədi?**

**Hər şey unudulub, çıxıbdı yaddan,
hər şeyi toz basıb... illərin tozu.
Sənin yaddaşın da qalıb toz altda;
illər huşsuzusan, illər huşsuzu.**

**Çoxdan bir-birinə qarışıb, itib
köhnə hadisələr, köhnə sifətlər.
Ağlını başından alan sevgilər,
içini yandıran o köhnə dərdlər.**

**Ömür tüstü kimi uçub, əriyib,
bir az gözlərində qalıb acısı.
Ayları, illəri kəsib doğrayıb,
atıb zibilliyə vaxtın qayçısı.**

**Barış bu halınla... incimə vaxtdan...
Bəlkə huşsuzluqdu ömrün şənliyi.
Əl çək yaddaşını qurdalamaqdan,
burax zibillikdə eşələnməyi.**

**Daha yaddaş sənin nəyinə gərək?
Baxma ötən ömrə tamarzı kimi.
Hər köhnə sevgidən qalan xatirə
yeyilmiş konfetin kağızı kimi.**

**Yeyilib, yaşanıb, boşalıb ömür,
Kim bilir, nə qalıb ömrün dibində?
Bəlkə ömrün sonu elə bu gündür,
çıx, gəz, avaralan əlin cibində.**

**Qoy heç nə ummasın bir kimsə səndən,
Sən də elə buna sevin ki, sağsan.
Hansı sınıqları calayacaqsan?!
Hansı yırtıqları yamayacaqsan?!
Kiminsə yükünü çəkməyə sənin
nə heyin, nə gücün, nə tabın qalıb.
Bu cındır dünyanı tikməyə sənin
nə daşın, kərpicin, nə sapın qalıb.
Hər nəğmən -
qəlbində yatan sirr idi,
Açdığın sirlərlə doluydu ömrün.
Bənnaydın? Dərziydin? Ya şair idin?
Bir usta ömrüydü sənin bu ömrün.
Bu ömrün sonuna çatırsan, nə qəm,
son dəfə əl elə göydə aya da.
Çoxdan köhnəlibdi cənnət, cəhənnəm,
bir usta lazımdı o dünyaya da.**

## *BİZ SEVGİDƏN DOĞULANLAR DEYİLİK*

**Deyirlər ki, hər adam
oxunmamış kitabdı...**

**Əgər adamları kitablar kimi
yığa bilsəydik rəflərə -
qadınlar ayrı, kişilər ayrı;
xalalı, bibili, əmili, dayılı.**

**Babalar, nənələr
cildi sökülmüş,
varaqları yarpaq-yarpaq tökülmüş
kitablar kimi.**

**Balalar, nəvələr
üstünə qəşəng
şəkillər çəkilmiş
kitablar kimi.**

**Arabir götürüb varaqlasaydıq
hansınısa əvvəlindən sonuna,
hansınısa sonundan əvvəlinə -
Görərdik, hamısı necə oxşayır
bir-birinə.
Hamısının
əvvəli də eyni, sonu da eyni, -
ortası qarmaqarışıq.
Bilmək olmur
kim kimə düşməndi,
kim kimə aşiq?
Görərdik ki, ömür boyu sən demə
nənəmiz babamızı sevməyib,
babamız nənəmizi.
Amma dünyaya bir qoşun
colma-cocuq gətiriblər;
içində də bizi.**

**Biz sevgidən doğulanlar deyilik,
Onunçün də, pis oğlanlar deyilik.
Quzu kimi fağırıq,
bizim hay-küyümüz yox.
Bizim dəcəlliyimiz,
ərköyünlüyümüz yox.
Quzu kimi duza gedənlərdənik,
Lap bıçağın altına da
özü gedənlərdənik.
Beləcə, gedəcəyik**

**dərimiz soyulanacan.
Cildi qopmuş köhnə bir kitab kimi
rəfə qoyulanacan...**

# Vaqifin barmaqları olmaq istəyərdim

**Uşaq ikən Vaqif Mustafazadəni tanısaydım, dərk etsəydim, mənə verilən "böyüyəndə kim olmaq istəyirsən?" sualına "Vaqifin barmaqları" cavabını verərdim. Bu, özümü həm musiqiyə çox yaxın hiss etməyimlə, həm də Vaqifin o qısa ömürə ecazkarlıq biçməsilə bağlıdır.**

Piano barmaqlarımızın ən nəcib göründüyü alətdir. Şahzadədir bu alət. Musiqi alətlərinin Adəmidir, Həvvasıdır. Mən yorulmadan kiminsə pianoda ifasını dinləyə, izləyə bilərəm. Barmaqların, əllərin rəqsi, biri digərinə mane olmadan, biri digərinin kölgəsiymiş kimi - möhtəşəmdir də. Bəlkə də pianonun ağ-qara dilləri insan-kölgə vəhdətinə işarədir. Və elə bu vəhdət əllərdə də özünü tapır. Piano təkcə musiqinin yox, insan ruhunun da əlifbasıdır.



Vaqif insan-kölgə vəhdətinin tam özü idi. Kimib ki bu dünyadan köçəndə kölgəsi bu dünyada qalır və insanlığa xidmət edir, demək ki, ömrünü boşa yaşamayıb.

Vaqifin kölgəsindən qızı Əzizə doğuldu. Vaqif cismən yoxdur, kölgəsi - bəstələri var, kölgəsindən doğulan Əzizə var. Əzizə büsbütün Vaqifin barmaqlarıdır. Bundan gözəl, bundan müdhiş insan ömrü ola bilərmi?

Gəldin, yaratdın, iz qoydun, özündən sonra səni yaşadan birini ərmağan etdin və ömrünü başa vurdun.

"Allah insanı yaratdı və öz ruhundan ona üfürdü".

Nə gözəl üfürmüş ki Vaqif yaranmış. Azərbaycan caz-muğamının peyğəmbəri tərəfdarlarını toplamış, dünyanı gəzmiş və öz varlığını qəbul etdirmiş. Bir peyğəmbər kimi.

SSSR-dən kənarda, okeanın o tayında Amerikada ilk valı (plastinkası) çıxan caz musiqiçisi məhz Vaqif Mustafazadədir.

Bugün Vaqifin bəstələri, kompazisiyaları gənc caz musiqiçilərin dayaq, istinad, lap elə inanc yeridir. Onun bəstələri caz aləmində müqəddəs mənbədir, dərsdir, elmdir. Bundan şərəfli, bundan dəyərli insan ömrü?

Bugün Əzizə Mustafazadə Vaqif yolunu layiqincə gedir, dünyada təmsil edir. Bugün Vaqifin adı gələndə dünya cazsevərləri Əzizə Mustafazadəni bağrına basır.

Və nə təəssüf ki, biz hələ də Vaqifi nə yetərincə tanımırıq, nə də yetərincə dəyərləndirmirik. Onun bığları ta SSSR-dən bu yana bizim müzakirə mövzumuz olaraq qalır.

Vaqifinin şəklini göstərib "bu kimdir?" soruşanda dodaq qaçırıb "aaa, bunun bığlarına bax" kəlməsini eşitmək həqiqətən də ağrılıdır.

Bütün bunlara baxmayaraq o, yaşayır, sevilir. Allah onu yaratmağa yollamışdı. Yaratdı, bəlkə daha çox yaradacaqdı, bilmirəm, amma yaratdıqları da bəsdir.

**Ruhun şad olsun, cAZİZAnın atası, cazımızın babası Vaqif!**

**Eminquey**

# GƏDƏBƏYİ TURİSTLƏRƏ TƏQDİM EDƏK

**Müstəqil Azərbaycanın iqtisadi-siyasi durumu təkcə ölkə sərhədləri daxilində deyil, onun hüdudlarından kənarda da həm diqqəti çəkmiş, həm də təsdiq olunmuşdu. Yəni dünyanın aparıcı dövlətləri, iqtisadçı alimləri, maliyyəçiləri, hətta Dünya bankı və beynəlxalq banklar ayrı-ayrılıqda Azərbaycanda cərəyan edən hadisələrə diqqətlə yanaşır və onun uğurlarını nəzərə alıb ölkəmizə sərmayə yatırtmaqda böyük maraq göstərirlər. Təbii ki, bu da ölkənin daxili sabitliyi və iqtisadi göstəricisinin yaratdığı məntiqi nəticədi.**

Bu gün təkcə paytaxta və digər iri şəhərlərimizdə deyil, Azərbaycanın regionlarında da inkişaf səviyyəsi, eləcə də ümumi mənzərə ilk baxışdan adamı özünə çəkir. Istənilən bölgəyə üz tutanda oradakı yeniliyin şahidi olmaq mümkündü. Bu mənada dağlar qoyunda yerləşən Gədəbəy rayonuna yolu düşən hər kəs bu rayon mərkəzi ilə yanaşı, onun qəsəbə və kəndlərində də həyatın müsbət aurasını ilk baxışdan hiss edir. Burada iki xüsusi məqam var. Onlardan biri təbii ki, coğrafiyamızdı. Yəni Gədəbəy elə bir coğrafi ərazidi ki, burada Allah özü insan üçün böyük yaşam imkanları yaradıb. Buradakı meşə zolaqları, çaylar, bulaqlar, mineral sular, adamla canlı şəkildə təmas quran bitki örtüyü, yəni flora və fauna, yeraltı, yerüstü sərvətlər, abidələr, bir sözlə, bu coğrafi ərazinin bütövlüyü öz aurası ilə Azərbaycan insanına həyat eşqi bağışlayır, yaşamağa yaratmağa həvəsləndirir...

Son zamanlarda Gədəbəyin iqtisadi mənzərəsində baş verən iqtisadi dəyişiklilər, burada aparılan tikinti-quruculuq işləri göstərir ki, ölkə prezidenti cənab İlham Əliyevin imzaladığı Regionların İnkişafına Daiq Dövlət Proqramına uyğun olaraq yerli icra hakimiyyətində aidiyyəti qurumların əlbir fəaliyyətini qovuşduran mərkəz fəaliyyət göstırir. Rayon icra hakimiyyəti başçısının rəhbərlik etdiyi həmin mərkəz də rayonun bütün mənzərəsi, inkişaf prespektivləri, çatışmazlıqlar, zəruri olan məqamlar öyrənilir və planlı şəkildə də bu məsələlər öz həlini tapır. Belə ki, Gədəbəy rayonun mərkəzində aparılan tikinti-abadlıq işləri artıq rayonun ümumi mənzərəsində köklü dəyişikliklərin olduğunu göstərir. Çəkilən yollar, döşənən asfalt örtüyü, eləcə də səkilərin qaydaya salınması, su, qaz xətlərinin nizamlı çəkilişi artıq Gədəbəydə işlərin planlı şəkildə gerçəkləşdiyini təsdiq edir.



Bütün dünyanı bürüyən pandemiya təhlükəsinin Azərbaycanda da at oynatdığı məqamda Gədəbəy sakinləri rayonun əsas inkişaf xətti olan əkinçiliyi bir an da olsun yaddan çıxarmırlar. Istər fermer təsərrüfatları, eləcə də sahibkarlar və ayrı-ayrı vətəndaşlar rayonda əkin-biçin işlırinə, maldarlığa xüsusi diqqət yetirirlər. Məhz bu səbbədəndir ki, Gədəbəydə ət, süd istehsalı, kartof, digər dənli bitkilər, ümumilikdə isə kənd təsərrüfatı məhsullarının istehsalı ilbəil kəmiyyət və keyfiyyətcə yüksəlir, artır. Bu da Gədəbəyin hər bir sakininə öz bazar zənbilini, ailə büdcəsini idarə etməkdə geniş imkanlar yaradır. Yəni yerli sakinlərin sosial durumu ilbəil yüksəlir. Təbii ki, ölkə prezidentinin və ümumilikdə Azərbaycan hökumətinin qarşıya qoyduğu məqsəd də Azərbaycan insanının sosial rifah halının yüksəldilməsidi. Deməli, Gədəbəydə müşahidə etdiyimiz sosial rifah onu göstərir ki, ölkəmiz uğurlu inkişaf yolundadı.

***Regionlarımızın inkişafı ilə bağlı mövzunu işləyərkən Gədəbəy rayonuna dair bilgiləri gözdən keçirməli oldum. Həmin materiallar arasında ən çox diqqətimi çəkən rayonda təhsilə, səhiyyəyə göstərilən diqqət oldu. Pandemiya şəraitində yaşasaq da, Gədəbəy rayonunda həm rayon mərkəzində, həm də kəndlərdə fəaliyyət göstərən məktəblərdə, xəstəxana və tibb məntəqələrində demək olar ki, müasir texnikanın verdiyi imkanlardan yararlanaraq böyük işlər görülməkdədi.***



Respublikamızın hər bir bölgəsində, hətta ən ucqar kəndlərində olduğu kimi, Gədəbəy rayonunda da məktəblərin, tədrisin, internet şəbəkələrilə əlaqələndirilməsi, yəni onlayn dərslərin keçirilməsi, şagird və müəllimlərə internet imkanlarından istifadə edilməsinə şərait yaradılması bu gün Gədəbəyin reallıqlarındandı. Ona görə də rayonda təhsil işçilərinin öz vəzifə borclarını yerinə yetirmək məsələsində, yəni pandemiyanın yaratdığı problemlərdən yan keçərək tədrisi Təhsil Nazirliyinin tələbləri səviyyəsində qurmaları ürəkaçandı. Bu da onu göstərir ki, rayon rəhbərliyi, xüsusilə təhsil sahəsinə cavabdeh olan şəxslər bu məsələni prioritet kimi gündəmdə saxlamağı bacarırlar. Ona görə də son illərdə Gədəbəydə orta təhsilini başa vurub ali məktəblərə daxil olanların sayında xeyli artım var. Bu uğurlu təhsil göstəricisi onu deməyə əsas verir ki, digər dağlıq bölgələrimizdə də təhsilə cavabdeh olanlar vəzifələrinə ciddi yanaşarlarsa, onda həmin bölgələrdə də uğurlar qazanmaq mümkün olar.

Gədəbəy rayonunda aparılan tikinti-abadlıq işləri bu bölgəmizə turist axını üçün də müəyyən imkanlar yaradır. Belə ki, Gədəbəydə mövcud olan Namərdqala, Çarekvəng monastrı, Koroğlu qalası, Böyük Qaramurad vəngi, Çaldaş məbədi, Altıbulaq qalası, Qarabağ qalası, Pir qalası, Qrex qalası və mövcud olan kifayət sayda abidələrimiz imkan verir ki, bu bölgəyə turistlərin diqqətini çəkək. Yəni Mədəniyyət Nazirliyinin aidiyyəti qurumu və digər aidiyyəti təşkilatlara Gədəbəyin əsl turist məkanına çevirmək imkanı verir. Sadəcə olaraq, bu işə planlı şəkildə yanaşmaq və bölgədə turistlərin yerləşməsi, ehtiyaclarını təmin etməsi üçün şərait yaratmaq lazımdı. Bütövlükdə götürəndə isə Gədəbəylə yanaşı, digər bölgələrimzdə də bu işi köklü şəkildə qurmaq ölkə iqtisadiyyatına böyük fayda gətirə bilər.

**Bu gün Gədəbəy rayonunda görülən işlərin içərisində işıq, rabitə, telekommunikasiya, həmçinin səhiyyə, mədəniyyət sahələrində aparılan uğurlu işlər deməyə əsas verir ki, dağlar qoynunda yerləşən, təbii gözəlliyi özündən olan Gədəbəydə kənd təsərrüfatının, sənayenin inkişaf etdirilməsi ilə paralel olaraq turistlər üçün şəbəkələrin qurulması da bölgəyə böyük yatırımların qoyulmasına yol açar. Bu isə öz növbəsində Gədəbəyin, həm də ətraf bölgələrin turist diqqətini cəlb etməsində əsas şərtlərdən biridi. Düşünürəm ki, yaxın gələcəkdə Gədəbəy şəhərində və onun müvafiq ərazilərində tikiləcək otellər, yaradılacaq sosial şərait Gədəbəyi daha da şöhrətləndirəcək. Yəni bu bölgəyə səfər edənlər oradan xoş təəssüratlarla ayrılacaqlar. Buna isə həm mənəvi baxımdan, yəni maddi mənədəniyyət baxımından, həm də coğrafi baxımdan bizim haqqımız çatır.**

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# Şakir Albalıyev: "Ölmüş yetim"in dirilməsi

**Yazıçı Tahir Şirin oğlu Kazımov yenicə yazıb, tamamladığı "Ölmüş yetim" adlı romanının (nağılvari roman) ilkin variantına redaktor kimi baxmağı mənə həvalə etdi. Çox geniş həcmdə yazılmış kitabı bir aydan çox müddətə diqqətlə oxudum. Həmişə əsərlərinin adları ilə məzmunları arasında çox böyük bağlılıq müşahidə etdiyimdən, bu dəfə də yazıçının romanında eyni halı sezdim. Amma bu bağlılığı çözmək üçün bir az da xalq danışıq dilindən, ruhundan baş çıxarmaq lazımdır. Əsərin adındakı "ölmüş" ifadəsi dırnaq işarəsi içində verilib. Bu, həmin ifadənin daşıdığı leksik mənanın həqiqi tərəfi ilə yanaşı, məcazi mənasını da ehtiva etdiyinə işarədir. Yəni burada söhbət yetimin uşaq vaxtı (əsərdə anadan olanda) ölmüş olduğunu güman edib, onu dəfn etmələrinə sözün həqiqi mənasında eyham vurur. Digər tərəfdən isə burada uşaq vaxtından ona el arasında deyilən "yetim" ibarəsinə (adına) əlavə olaraq dırnaqarası artırılan məcazi mənalı "ölmüş" epitetindən söhbət gedir. Üstəlik də ki, hamı tərəfindən biganəliklə qarşılanan bu yetim uşağın gələcəkdə öz doğmaları, eli-obası tərəfindən də unudulmaq ucbatından "ölmüş" hesab edilməsi də bu sözün məna çalarında daha bir incə qatın olduğuna əsas verir. Deməli, yazıçı Tahir Kazımovun romanının adında ifadə olunan iki sözdən birinin - dırnaq içində verilmiş "ölmüş" sözünün daşıdığı həqiqi və məcazi çalarlara müəyyən dərəcədə aydınlıq gətirdik. Əsərin adındakı "yetim" sözünə gəldikdə isə deyim ki, kitabda əsas qəhrəman olan Allahverdiyev Allahverən Allahverən oğlunun dilindən verilən aşağıdakı fikirlər bu sözə aydınlıq gətirir: "Vətən müharibəsi illərində anadan olmuşam. Atam müharibədə həlak olub, kənd camaatı mənə "yetim" adı qoyub, birinci sinfə gedərkən əsl adımın Allahverən olduğunu bilmişəm..."**

Tahir Kazımov romanını "nağılvari roman" adlandırır. Bu da səbəbsiz deyil. Nağılvari - yəni nağıl şəklində olan roman. Nağılın məzmununda bir nağıl - uydurma, şirin yalan, oxucunu özünə çəkən fantastik nağıl dünyası olur. Lakin bu nağılın içərisində də ibrətamiz həyat həqiqətləri əks olunur. Bu baxımdan roman janrında qələmə alınan bu əsərdə nağıl dilinin yüyrəkliyi, şirinliyi var. Həm də ona görə nağılvaridir ki, burada baş qəhrəmanın açıqdan-açığa öz daxili məni ilə mükaliməsi var. Hətta bir yerdə yazır ki, "Adam var ki, heç daxili məni ilə danışmır da, bəlkə onun içində heç məni olduğunu da bilmir, bilirsə də saymır, küsülüdür".

Başqa sözlə, romanda real həyat hadisələrinin bədii fonda inikası ilə biz roman janrının xüsusiyyətlərilə qarşılaşdığımız kimi, eyni zamanda yazıçının xəyalən fantastik boyada təsvir etdiyi nağılvari elementlərin də burada bir-biri ilə çulğaşdığını görürük.

Əlbəttə, hər iki haldan çıxan nəticə oxucularına doğruluq, insanpərvərlik və s. kimi mənəvi keyfiyyətləri aşılamaqdan ibarətdir. Romanın baş qəhrəmanı Allahverən Allahverən oğlunun - "ölmüş" yetim"in "dirilməsinin", yəni dirilik tapıb yaşamasının və həyatda yetim və arxasız olmasına baxmayaraq özünə görə yüksək mövqe tutub, cəmiyyətdə yüksək nüfuz qazanmasının da başlıca səbəbi məhz onun bu kimi humanist dəyərləri özündə formalaşdırmağı və bu prinsip üzərində öz həyatını qurub yaşaması ilə bağlıdır. Romanın əsas məğzi, qayəsi, ideyası da məhz oxuculara belə bir saf əqidəni, mənəvi saflığı, humanizmi təbliğ etməkdən ibarətdir. Yəni kimliyindən asılı olmayaraq həyatda düzgün yol seçirsə, humanizm və ədalət prinsiplərinə güvənirsə, bir atalar sözündə deyilən "doğruya zaval yoxdur" hökmü həmişə qələbə çalır. Bir sözlə, "ölmüş" yetimin dirilməsinin timsalında, cəmiyyətə ləyaqətlə xidmət etməsinin timsalında biz bunu roman həqiqəti kimi də, həyat reallığı kimi də apaydın görürük. Bir bədii həqiqətin sirrini də burda açım ki, romandakı "ölmüş yetim" obrazı - Allahverdiyev Allahverən Allahverən oğlunun həyatdakı prototipi elə müəllifin - yazıçı Tahir Kazımovun özüdür.

Bir məsələni də qeyd edim ki, yazıçının əsərlərində personajlara xitabən əslində oxuculara ünvanlanmış maarifləndirici fikirlərə də, həyat, yaşayış barədə tövsiyələrə də çox-çox rast gəlirik. Bu romanda da belədir. Misal üçün, 75 yaşlı Nargülə deyilən sözlər müasir dövr üçün də ibrətamizdir:

"-Hə, deməli, mənim cəhənnəm qazanımda qaynamağa qətiyyətlə imtina edirsən?

-Bəli, qətiyyətlə... məndən yaşlısan, bağışlamaya bilərsən, ay axmaq, cənnət havası sənə çalanlar, məncə, vaxtında o qədər olub ki, niyə kirpiklərinlə işıqlı gözlərini örtmüsən, qaranlıqlaşdırmısan, ürəyini də kodlu açarla qıfıllamısan, kodunu da atmısan dənizə, ya da çirkab quyusuna, kodunu özün də unutmusan, keçən bu illərə də, sənə aşiq olanlara da niyə biganə olmusan, eşqin şərabından bir badə də olsun içməmisən, meyxoş olmaqdan qaçmısan, mən heç olmasa, Zeynəblə yaşadığım dörd ayda eşq şərabını içmişəm, meyxoşluq nədir, artıq bilirəm... indi, həmişə sənə soyuqluq aşılayan cəhənnəm qazanında isinib yanmaq istəyirsən... niyə?

-Səninlə, ancaq səninlə cəhənnəmə getmək, onun qazanında birlikdə qaynamaq həvəsində, ehtirasındayam".

Allahverən obrazının dilindən səslənən fikirlər də əslində yazıçı tövsiyəsidir. Sevgi faciəsini açıb göstərməklə müəllif sevgini - ailə həyatı qurmağı həyatda heç nəyə qurban verməк olmaz mesajını vermişdir.

Yeni ailə qurmağa hazırlaşan gənclərə də yazıçı Allahverən obrazının dilindən dəyərli məsləhətlərini verir:

"-Sənə məsləhət görərdim ki, ailə qurandan sonra gərəkdir ki, eqoistliyini, özünə olan sevgini, deyərdim, bir az azaldasan, çox hissəsini ailənə, xanımına, dünyaya gələcək övladlarına yönəldəsən, inan belə olarsa, xoşbəxtlikdən çalışdığın kollektivdə də özünü qürurlu hiss edərsən... əlbəttə, valideynlərinə də, bu ana saydığın qadına da qayğı, hörmətlə yanaşmalısan, bil, misal var, sən valideynlərinə, uşaqlarının anasına hansı münasibətdə olsan, uşaqların da böyüyəndə sənə o münasibətdə olacaqlar, çalış doğulacaq uşaqların səndən neqativ hallar duymasınlar... dediklərim ikinizə də aiddir, xoşbəxt yaşamağın, əlbəttə, ailə şəraitində, birinizin musiqi, digərinizin musiqinin sözləri olmağınızdadır... keçmişdə bəstəkar ruhlanıb musiqi yazırdı, ilhamlı şairlər isə musiqinin ritmini tutub mahnı yazırdılar... indi tərsinədir, sizin timsalınızda musiqi xanımdır, sözlərsə sənsən, mehriban olub, belə də davam edin... Çalışın sevişməkdən əlavə, sevməyə də vaxt tapın...)

İradəsi və zəhməti sayəsində qazandığı biliklləri praktiki olaraq yaşadığı həyatında, cəmiyyətdə öz iş və fəaliyyət prinsipi ilə tətbiq etməklə "ölmüş yetim" qılafından çıxaraq yaşamağı təcəssüm etdirən Allahverən obrazı vasitəsilə yazıçı Tahir Kazımov oxucularına həyatda uğurla yaşaya bilməyin yolunu göstərir.

Ümumiyyətlə, istər sənədli tarixi romanlarında, istərsə də digər bədii əsərlərdə yazıçı Tahir Kazımov özünün prototipini də yaradır. Bu mənada gördüyü, şahidi olduğu, yaxud da eşidib bildiyi, oxuyub əxz elədikləri hadisələri, bilgiləri yazıçı əsərdə əks etdirərkən həyat həqiqətlərinə, real gerçəkliklərə üstünlük verir. Söz yox ki, bu həyat reallıqlarına yazıçı haşiyəsi, bədii marağı da özünəxas ustalıqla əlavə rəng qatmaqla əsərin bədiiliyini artırmağa yönəldilən prinsiplərdir. Bu romanda da yazıçı içində olduğu həyatı bir gerçəklik olaraq təsvirdə canlandırmaqla yanaşı, eyni zamanda yaşadığı cəmiyyətdə görmək istədiklərini (xoşbəxtliyi, ədalətliliyi, təmənnasızlığı, səmimiyyəti, qarşılıqlı sevgini və s.) də tövsiyə və xəyali duyğular şəklində ifadə etmişdir. Belə ki, uzun müddət Ali Attestasiya Komissiyasında dövlət qulluğu vəzifəsində işləyən yazıçı həmin mühiti də bədii şəkildə canlandırmağa nail olmuşdur. Həyatın hər sahəsində olduğu kimi bu müəssisədə də neqativ cəhətlərin olduğunu göstərən müəllif həmişə olduğu kimi, bu məqamlarda da ağıllı tövsiyələrlə oxucularını maarifləndirir. Yarana bilən yalnışlıqların kökünü sanki real iş prosesində açıb göstərir və eyni zamanda reallığa söykənməklə doğru yolu da istiqamətləndirir. Əslində, bu yolla yazıçı yenə də özünün maarifləndiricilik missiyasına sadiq qalır. Bu nöqteyi-nəzərdən bu epizodlar həmin sahədə çalışanlar üçün də təbliğat-təşviqat xarakterli mühazirələr kimi mühüm əhəmiyyət kəsb edir. Yazıçı burada bir sıra mühüm bədii mesajlar da verir. Misal üçün, onun əsərinin qəhrəmanının sevib evləndiyi Pakistanlı qız - həkim tələbə Zeynəblə bağlı düşüncələri də yaddaşda nostalji hisslərlə qalır. 44 günlük Vətən müharibəsindən Zəfərlə çıxmağımızda Azərbaycan - Türkiyə - Pakistan dövlətlərinin sarsılmaz həmrəyliyi, türk-islam birliyi xalqımıza və ordumuza mənəvi stimul verdi. Yazıçının Azərbaycanlı Allahverənin əcnəbi ölkə vətəndaşı olan Zeynəblə evlənməsindən bədii priyom kimi yararlanması məhz bu amilə önəm verməsi kimi düşünülməlidir. Əsərdə müəyyən ştrixlərdə bu məsələyə eyhamlar var.

"Ölmüş yetim" kimi məcazi metaforik adın daşıyıcısı bizə Allahverən adı ilə təqdim olunur. Bu adın özündə də simvoliklik var, yəni kənd adamları, yaxınları-doğmaları tərəfindən doğulanda ölü zənn edilən uşağı həyata cismani olaraq yenidən Allah qaytardığına, bəxş etdiyinə - verdiyinə görə bu adı daşıyır. İkinci bir tərəfdən isə "ölmüş" və sonradan "dirilmiş" bu şəxs adında daşınan məzmuna müvafiq olaraq Allaha xatir işlər tutmaqla - Allaha xoş gedən əməllər görməklə Allah onu mükafatlandırır və o, arxasız, yetim olmasına baxmayaraq, yenidən cəmiyyətdə layiqli mövqe tutmaqla "dirilir" - var olub yaşayır. Onun həmkəndlisi Gurşad onu şəhərdə yüksək nüfuz sahibi olduğuna görə axtarıb tapırsa da, Allahverən özünü ona qəsdən tanıtmır və özünün kimliyini ondan gizlədir...

Burada bir incə məqam da var. Allahverən niyə yetimdir sualına cavab verək ki, atası 1941-1945-ci illərin Böyük Vətən müharibəsinə gedib, orada həlak olmuşdur. Həmin məqamla bağlı atasının ruhunun Allahverənin anası ilə və özü ilə qaibdən eşidilən söhbətindən bir fraqmentə diqqət çəkək: "Bir sözlə, Şəhrəbanı səni ağır yükdən azad etdi. Adını əvvəlcədən Allahverən qoyduğumuz bu oğlan işığa göz açdı.

Şəhrəbanı oğlumuzu ılıq su ilə yuyub təmizlədi, bələdi və sənin sinənin üstünə qoydu.

Əlində-ovcunda qalsın, zirvələrini görəsən, - dedi. Körpə Allahverən sən anasına baxıb gülümsədi və gözlərini yumdu. Sən də, Şəhrəbanı da təəccüb etdiniz ki, doğulan başqa uşaqlar kimi bu uşaq ağlamadı. Şəhrəbanı onun arxasına yüngülcə iki-üç şapalaq vursa da ağlamadı, amma öyüyüb qusdu...



Səhərə yaxın ağ göyərçinlər yatmış Allahverənin ətrafında fırlanır, onun gələcək xasiyyətini, əqidəsini müxtəlif mənada beyninə, ürəyinə yeritməyə çalışırdılar. Böyük ağ göyərçin bütün göyərçinləri bilərəkdən kənarlaşdırıb səsini qaldırdı:

- Bu oğlanı Allah verib, o, atadan-anadan bəhrələnib, o insanpərvər, vətənpərvər, əqidəli, məntiqi düşünən, hamıya, hətta ona pislik edənlərə də qayğılı olacaq... Allaha inanıb onu öz varlığından da çox sevəcək...

- Xoşbəxt anlar da yaşayacaq? - bələyin ayaq tərəfində dayanan göyərçin soruşdu.

- Xoşbəxtlik nisbidir, xoşbəxtliyi kimsəsiz, arxasız yetim kimi o öz içində axtarmalı olacaqdır, tarixçəsini yetim kimi özü yazacaq, - böyük göyərçin xəyallandı.

İlk baxışda müəllif fantaziyasının bədii inikası kimi oxuduğumuz bu parçanın mahiyyətində əslində incə mətləblər ifadə olunub. Allahverənin atası Vətən yolunda müharibədə şəhid olub. Bəs nəticədə nələr baş verib? Bu sualın məntiqi ilə hərəkət etsək, bir sıra məsələlərə cavab ala bilərik. Əvvəla, müharibədə həlak olanların ailəsinə-arvadına, övladına dövlət səviyyəsində qayğı göstərilməlidir. İkincisi, bu rəsmi dövlət qayğısından başqa, ictimaiyyət arasında da şəhid ailəsi hörmətlə qarşılanmalı, ona el qayğısı bəslənilməlidir. Amma Allahverənin ailəsində cəmiyyət tərəfindən bunun əksini görürük. Şəhid ailəsi, şəhid övladı həmkəndliləri tərəfindən sayılmayan, arxasız hesab edilir, ögey münasibət bəslənilir. Bunun nəticəsində Allahverən atasız-arxasız bir uşaq kimi qayğısızlıqlarla qarşılaşır və "ölmüş" sayılır, "yetim" kimi çağırılıb tanınır. Məhz bu kimi səbəblərdən də Allahverən öz el-obasından incik düşmüş olur. Ona görə də bacarığına, savadına görə cəmiyyətdə yüksək nüfuz sahibi olanda ona yaxınlaşmaq istəyən həmkəndlilərindən özünü uzaq tutur, onu ölmüş bilənlərə qarşı daxili bir narazılıqla inciklik nümayiş etdirir. "Qurani-Kərim"də göstərilən "Şəhidlər Tanrı dərgahında diridirlər" kəlamına yazıçı kimi evristik münasibət bəsləyən Tahir Kazımov əsərdə Allahverənin müharibədə həlak olan atasını ruh formasında "diriltdir", onu xüsusi imtiyazlı ruh sahibi kimi doğmaları ilə "görüşdürür". Buna görədir ki, romanda təsvirini tapmış şəhid övladına ata ruhunun həyan olması ilə bağlı epizodlar dini-islami baxımdan qaibanə dünya ilə dirilər aləmi arasında mənəvi bağların yaradılmasında ilahi hökmü kimi təbii düşünülməlidir. Yəni Vətən uğrunda qurban gedənlərin övladları Allahın iradəsi ilə ata ruhunun himayəsi altında yaşayıb böyüyürlər. Yazıçının əsərdə fantastik boyada təsvir etdiyi bu və buna bənzər epizodlar mahiyyət etibarilə məhz şəhidlərin ölməzliyi ilə bağlı dini-mifik məzmunlu inancların yazıçı təxəyyülündəki inikası kimi qəbul edilməlidir.

"Ölmüş yetim" sayılan Allahverənin Pakistandan olan arvadı Zeynəblə 35 illik ayrılıqdan sonrakı söhbətlərindən mütəəssiredici bir səhnəyə diqqət çəkək:

"- Ata Allahverən sağ ola-ola oğulu biz tərəflərdə atanın adı ilə adlandırmırlar, yəqin ki, məni özün üçün ölmüş saymısan?

- Məndən yaşlı və sevdiyim kişi olsan da, deyim ki, axmaqsan... səni ölmüş yox, bu arıq canımın ruhu saymışam, yadındadırsa, sənə əvvəlcə ruhumu, ürəyimi vermişəm, sonrasa cismimi... oğlumun adını Yaradanın vəhyi ilə Allahverən qoymuşam ki, ona göstərdiyim qayğı və verdiyim sevgi, adını səsləndirdiyim zaman sən sevimli ərimə, sənin yadigarın oğluma olsun, atanı oğuldan, oğulu atadan ayrı saymamışam, səni ruhumda yaşadıb ruh almışam, sənə olan sevgim məni qoruyub, ağlımla, dərrakəmlə birləşib düzgün, sədaqətli yol göstərib, Tanrıya şükür edirəm ki, sənə, oğluma, siz Allahverənlərə olan sevgim məni də həsrətlə olsa da yaşadıb... nə çox etiraf etdim? -Zeynəb xəyallanır".

Göründüyü kimi, burada da Azərbaycanlı Allahverənin Pakistanlı Zeynəb xanımla evliliyindən doğulan övladına da Allahverən adı qoyulub. Bu, bir daha Türk - islam birliyinin Azərbaycan - Pakistan dostluğu-qardaşlığı timsalında sarsılmazlığına işarədir. Yazıçı Tahir Kazımovun romanında boy göstərən əsas ideyalardan biri də bunda özünü təcəssüm etdirir. Kitabın sonunda göstərilən "18 sentyabr 2019 - 14 mart 2021-ci il" tarixi də bir daha romanın yazılma tarixinə aydınlıq gətirməklə dediyimiz həqiqətə işıq salır.

Kitabın sonluğuna yaxın müəllifin ruhlar dünyası ilə cismani baxımdan dirilər dünyasının insanlarını bir yerə cəmləməsi də Allahverənlə Zeynəbin evliliyi nümunəsində Azərbaycan - Pakistan birliyini təşviq etməsini göstərir:

"Oturanlar ətrafa göz gəzdirdilər, qulluqçu həyət işıqlarını söndürdü. Ata öz qiyafəsində göründü, onun arxasınca mavi şüanı xatırladan Zeynəbin atası, anası dalğalandılar. Hamı təəccübləndi, xoflanan da oldu.

- Ata, süfrənin başında, anamla yanaşı əyləş, siz də Zeynəb, nəvələrinizə yaxın oturun, - Allahverən səmimiyyətlə dedi.

Hər kəs yerini rahatlayandan sonra baba Allahverən danışdı:

- Sualım Zeynəb xanımadır, oğlumla nigahdan narazı deyilsən ki?

- Əstəğfürullah, yox, yox.

- Bəs onun ciddi, bəzən də zarafatla səni tikanlaması necə, qəbulundur?

- Hər biri yerində ürəyimcədir, düşündürən, islah edəndir.

- Sualım Zeynəb xanımın atasınadır... Zeynəbin oğlumun yanına qayıtmasına etirazın yoxdur ki?

- Siz, bizim ağsaqqalımız olan yerdə niyə və nəyə görə peşmançılıq çəkməliyik?

- Bir sözlə, bizim ailəni əzizləriniz sayırsınızmı?

- Bunu mən sizdən təvəqqe edirəm, məni qardaşın, bu qarını bacın, qızımı isə qızın kimi ailənin üzvü hesab et, bu acizanə bir xahişdir.

- Hər şey səmimiyyətə, sevgiyə söykənəndir. Razıyam, hə, iki müsəlman dövlətin, iki ailəsi illərlə yaratdıqları milli adətə güzəşt etməklə mehriban olmalarının nəyi pisdir? Düşünürəm ki, bu sevgi, səmimiyyət başqa-başqa dövlətlərin də ailələrinə örnək olar... belə olarsa, yer üzündə hegemonluq, qisasçılıq, müharibələr də səngiyər, səmadakılar kimi, iblis fikirlilərdən başqa, mehriban ünsiyyətdə olarlar... Oğul, deyim ki, ağsaqqalsız ailə qurmuş olsan da, seçiminlə mən də raziyam... alqışlar sizlərə... belə görüşlərimiz Allahın dəstəyi ilə tez-tez olacaq... Zeynəb xanım, incimə, valideynlərin hələ də sınaq altındadırlar, vaxtları azdır, bu gün iki dövlətin, iki ailənin şad, sevincək günü olduğuna görə onlara sizinlə, az vaxt da olsa təmas yaradılmasına razılıq əldə edilmişdir.

- Allah səndən razıdır, bir daha razı olsun, sən olmasaydın, biz bu sevindirici görüşdə iştirak edə bilməzdik... sizlərə, ağsaqqalımıza alqış, - Zeynəbin atası, anası dalğalanıb baş əydilər, yaxındakı bir dəstə ulduz sanki göz vurdular, tez-tez parlayıb zəiflədilər.

- Bütün əməlisaleh, Allahı sevən insanlara alqış, - deyə ata qiyafəsini dəyişdi.

...Üç insanı xatırladan mavi şüa ağac budaqlarının arasından səmaya sürət götürdü... Oturanlar heyrətlə səmanı izlədilər və özlərindən asılı olmayaraq əl çaldılar...".

**Bu cür sonluq həm də metaforik mənada geniş miqyasda götürdükdə əsərin adında başqa bir sətiraltı anlamın dayandığına da xal vurur. İnsanın yetimi olduğu kimi, ölkənin də arxasız-dayaqsız, dost-qardaş ölkəsiz olanda "yetim" - boynubükük olduğu görünür. Türk-islam ölkələri birliyindən kənarda Azərbaycan da bəlkə dünya düzənində "ölmüş" bir diyar, "yetim" bir ölkə kimi görünərdi. Şanlı Qələbəmiz boynubükük vətənimizin boynunu düzəltdi, qəddini dirçəltdi. Elə ölkəmizin Prezidentinin "Biz birlikdə güclüyük"" deyimindəki kimi!..**


**Şakir Albalıyev**
**AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent. "Xudafərin" qəzetinin baş redaktoru**



Əbülfət MƏDƏTOĞLU

# Həmsöhbət olduqlarım...

## Onlar mənə bəs edir

*İndi yaşımın elə vaxtıdı ki, hər söz, hər bir hərəkət, hətta baxışın özü belə içimdən izsiz ötüb keçmir. Hətta şeirlərimin birində yazmışam ki, şeh də xətrimə dəyir, meh də!! Bu mənada özümə çəkilməyi, bir az tərki-dünya olmağı, bir az gözdən, könüldən uzaq dayanmağı yavaş-yavaş adətə, vərdişə çevirməyə başlamışam. Çünki könlümü ağrıdan, ruhumu incidən sözlərin və onların sahiblərinin cavabını vermək və yaxud da onlarla üz-üzə gəlmək mənim üçün ikiqat çətinlik yaradır. Bax, bu mənada uzaqda dayanmaq, məsafə saxlamaq daha uyğun bildiyim məqamdır. Və...*

*Dahilər biri deyib ki, "tez-tez özün-özünlə qal", özün-özünlə söhbət elə. Özünlə danışa bilməyəndə sükutunla, divarlarla pıçıldaşmağa çalış". Mən də dörd divarı, göy üzünü özümə hamıdan doğma sayıram. Çünki onlarla danışmaq, onlarla həmsöhbət olmaq həm günahlarımı üzə çıxarır, həm sevgimi, həm də ağrılarımı. Beləcə bir də baxıb görürəm ki, içim də rahatlanır, ruhum da... Hətta əlim qələm, gözüm vərəq axtarır. Çünki özümlə söhbət, özümü yenidən özümə qaytarır və mən bu qayıdışda bir pıçıltı da eşidirəm. O pıçıltı əslində şeirdi.*

*Anbaan əzab verib,*
*Baxaraq qürrələnmək...*
*Bu nə asılmaq deyil,*
*Nə də ki, güllələnmək -*
*Bu nifrətdi!*

*Ruhuna bələnən tor,*
*Deyir içində sus, yan!*
*Gözlərdən tökülən qor,*
*Yuxuya olan üsyan -*
*Bu xiffətdi!*

*Düşünəndə lap asta*
*Yaddaşımda səs edən...*
*Şəkillərlə təmasda*
*Yanağını isidən -*
*Bu ülfətdi!*

*Nəfəs aldığın anda*
*Yoxluğuna darılan.*
*Haqqa üz tutub, canda*
*Son ümidə sarılan -*
*Bu Əbülfətdi!*

*... Bəli, özümün kim olduğunu elə özümlə söhbətdə dəqiqləşdirəndən sonra bir az lovğalıqla, bir az təşərliklə yazdığım şeiri təkrar oxudum. Sonra səsimi bir az qaldırdım. Dedim ki, şeiri dörd divar da eşitsin... Təbii ki, içimdə oxuyanda, bəlkə elə şeir doğulanda Allah onu dinləmişdi. Və bəlkədən də öncə bu mənim həm də inancımdı ki, o şeiri Allah özü diktə edirdi, mən də yazırdım. Ona görə özümə də xoş gəldi, ruhuma da. Bircə məqamdan başqa. O da özümə, ruhuma xoş gələnin kiminsə tərəfindən təsdiq olunmaması idi. Bu da həyatın qanunudu, ona da hətta istəsəm də etiraz edə bilmərəm. Çünki yazdıran məlum, yazılan da ortada. Deməli, qalır bəndə ümidinə. O ümidə ki, yaşadır. Bir də o ümidə ki, yaşamaq üçün ipucu verir...*

*İndi bu dediklərimi, bu yazdıqlarımı əliyə-əliyə düşünürəm ki, mən əgər özümlə danışa bilməsəydim, görəsən ürək ağrımı, ruh sızıltımı nə ilə sakitləşdirə bilərdim. Bax, bu düşündüyüm sualın cavabını bu yazını diktə etdiyim ana qədər tapa bilməmişəm. Bəlkə də kimsə bilir bu cavabı. Bu da onun xoşbəxtliyidi. Mənsə hələ ki, ancaq axtarışdayam. Nə zamansa tapacağıma isə şübhə yeri yoxdu. Ən azından ona görə ki, etdiyim dualar bəlli ünvanadır. Elə bu dua kimi:*

*Ürəyin ümid yerimdi,*
*Adına dua edirəm.*
*Həm bazar ertəsi, həm də*
*Adına, dua edirəm.*

*Bəllidi yazılı qədər,*
*İçimdə yurd salıb kədər!*
*Sənin doğmaların qədər,*
*Yadına, dua edirəm!*

*Gec də olsa tapıb çəmin*
*Könlün ovutmuşam qəmin...*
*Allah, sənə, bir də həmin -*
*Qadına, dua edirəm!*

*Həyatın qəribəlikləri, yaşantıları, sınaqları və bir də ki, adamların sayından çox sifətləri ömrü iynə gözündən keçirir. Olsun!.. Mən də bu iynə gözündən keçən ömür payımda könlümə toxunub, qəlbimə dəyən, heç kimdən qarşılaşmaq niyyətində deyiləm. Allah onların könlünü şad etsin! Mənə dörd divar, Allah və onunla danışmaq, həmsöhbət olmaq qalan ömrümdə də bəs edəcəkdir...*

# "Könül ortağım mərhaba"



Kamalə Abiyeva,
şair-publisist

**Adam var qonşun, qohumun , iş yoldaşın olur, tez-tez görürsən, illərlə tanıyırsan, amma haqqında heç nə deyə bilmirsən, əslində demək istəmirsən. Heç bir yaxınlıq hiss etmirsən.**

O fərqlidir. İmzasını çoxdan tanıyırdım, amma şəxsi tanışlığım yoxdu. İllər öncə tanış olduq. Elə görüşdük elə bil yüz ildi dostuq. Doğma gəldi. Sonralar da olurdu görüşlərimiz. Bu yazını yazmağa qərar verəndə onunla yazışırdıq. "Bir doğmalıq hiss edirəm sənə qarşı, nədi bu?"-dedi. Təəccübləndim,çünki bir gün öncə onu xatırlayırdım. Hətta sosial şəbəkədə bir-neçə yazısını tapıb oxumuşdum. Bu ruh yaxınlığıdı məncə. Hər gün görüb-görməməkdən asılı deyil.Yaddaşında yeri varsa, doğmalaşır.

Zəhmətsevərdi. Daim rəngarəngliyə can atır.

Onun vətən sevdalı yaradıcılığı da çox doğmadı mənə. Azərbaycanı İrəvanlı, Qarabağlı, Ərdəbilli sevir Nəzakət xanım Məmmədova.

"Bölünüb yüz yerə gör bir nə vaxtdı, yurdumun yanında qaradı üzüm" deyən ürəklim başqa cür ola bilməz.

*Torpaq deyil , Vətəndi bu,*
*Çınqılı, daşı doğmadı.*
*Atamdan, babamdan qalıb,*
*Alın qırışı doğmadı .*

Vətən obrazı var şeirlərində. Vətən sevgisi onun misralarından ürəyinə axır:

*Elə bil səngərtək qazılıb sinəm,*
*Qəlbimdə duyğular barıt qoxulu.*
*Uğrunda ölməyə hazıram, Vətən,*
*Hər misram döyüşən bir əsgər yolu.*

Bir insan, bir vətəndaş, bir ana kimi sevir. Bir qarış torpaq üçün canını fəda edən, bayrağına, himninə, şərəfinə and içən zabit anasıyam mən.- deyir vətən sevdalım. Zabit oğul Ramilin anasıdı-bir qarış torpaq üçün canından keçməyə hazır olan zabitin anası olmaqdan qürur duyur. Ramilə yazdığı "Zəfər nəğməsi" şeirində bir vətəndaşın, bir ananın məğrurluğu, qələbə sevinci var:

*Vətən sevgisidir sönməz ocağın,*
*Qeyrət köynəklidir sənin hər çağın.*
*Bu vətən boydadır indi qucağın,*



*Zəfərin mübarək, komandir oğlum!*

*Arzum elə yaxıb sevinc hənası,*
*Dəyərdən ucadır ömrün mənası.*
*Vətənin qızıyam-zabit anası,*
*Zəfərin mübarək, komandir oğlum!*

"Mən zabit anasıyam"-deyə qürur duyan ananın oğlu Vətən oğludur elə:

*Düşmənə "göz dağı"san, gücümsən,*
*qüvvətimsən.*
*Ürəyimin təpəri, gərəyim, köməyimsən.*
*Vətənin "dar günü"ndə səsinə hay verənsən,*
*Bu torpağa, bu elə, bu Vətənə bağlısan.*
*Səni Vətənə verdim,*
*Sən Vətənin oğlusan!*

Nə qədər ki, belə analarımız var, bu Vətən yaşayacaq. Vətən pərvanəsi olan anaların oğulları yaşatdı bizə qələbə sevincini.

İtginlərə- adsız qəhrəman dediklərimizə həsr elədiyi şeirin kədəri də özünəməxsusluğu ilə yadda qalır:

*Oğul, Vətən sənə təzə ad verib,*
*Adın mübarəkdir, adsız qəhrəman!*
*Təpədən-dırnağa vətənləşmisən,*
*Önündə diz çökür, baş əyir zaman.*

Poetik dünyası zəngindir: gözəl duyğulardan, payızdan, qışdan, dağdan-daşdan, həyatımızdan yazır. Bİr də ana sevgisi var.O müqəddəs sevgi dil açıb misralarda:

*Xəyala sığmayan ilahi eşqin,*
*Külli-kainata aynadır, Allah.*
*Analar bir az da sənə bənzəyir,*
*Bəlkə də bir adın anadır, Allah.*

Vətən uğruna canından keçənlər də onun qəhrəmanlarıdır,bu qəhrəmanları dünyaya gətirən analar da.

*Vətən", "ana" sözü tən yaranıb, tən,*
*Bu inam üstünə qoy enməsin çən,*
*Qoy baxıb üzünə sevinsin Vətən,*
*Sil göz yaşlarını, şəhid anası.*

Şəhid analarına "sil gözünün yaşını" deyir, çünki ilin qış fəslində Qarabağa bahar gətirən oğulların anası gözü yaşlı ola bilməz.

*Sevincə bax bulaqların gözündə*
*Qəlbi gülür dərənin də düzün də*
*Şəhid qanı çiçəkləyir üzündə*
*Qarabağa bahar gəlir , İlahi*

Yaradıcı insanlar fərqli olur məncə. Eynu duyğuları hamı yaşaya bilir. Amma hamı bir musiqiyə, tabloya, bir şeirə çevirə bilmir. Əslində bu təkcə istedad deyil, xoşbəxtlikdi. Bu xoşbəxtliyi yaşayanlardandı Nəzakət Məmmədova. Nəzakət xanım "Mərhaba" şeirində yazır:

*Ruhun gəzər cahan-cahan*
*Cahanlara sığmaz bu can*
*Mətləblərə qapı açan*
*Könül ortağım mərhaba!*

Bir-birimizi ünsiyyətlə tanıyırıq. Şairlərisə görmədən şeirləriylə tanıyırıq. Onu oxuduqca yenidən tanıyırsan və demək istəyirsən "Könül ortağım mərhaba".

# Vanqadan yeni ilin dəhşətli proqnozu

**Baba Vanqa, yaxud öngörücü Vanqa...dünyanın ən çox inanılan kahini...Ola bilsin dediklərinin hamısı tam doğru olmasın yaxud doğru aspekdən araşdırılmasın amma proqnozlarının böyük əksəriyyəti düz çıxıb. Baxmayaraq ki, Vanqa 25 il öncə 85 yaşında ölüb, onun proqnozları hələ də çoxları üçün sirli və maraqlı olaraq qalır.**

1981-ci ilin əvvəllərində Vanqa hələ yer üzünə məlum olmayan QİÇS, xərçəng, pnevmoniya, quş qripi kimi xəstəliklərin də proqnozunu verməyə başlayıb.

Öncəgörən deyib ki, insanlar heç bir səbəb olmadan yolun ortasında bayılıb yerə yıxılacaq, xəstəlikləri şiddətlənəcək.

Məşhur öncəgörən Azərbaycan haqqında proqnozunu 30 may 1993-cü ildə verib. Azərbaycan jurnalistlərinə deyib:""Siz elə bir ölkədən gəlmisiniz ki, orada çoxlu qan var. Çoxlu ağlayan uşaqları görürəm. Geri çəkilin. Siz tale tərəfindən özünüzə aid olmayan şeylə vuruşursunuz. Siz uduzacaqsınız. Lakin bu hələ başlanğıcdır. Qızıl görürəm, hansı ki, sizin üçün xoşbəxtlik gətirmir. Əli qandalda olan yüzlərlə insan. Onlar daha 30 il dözəcəklər, amma təslim olmayacaqlar. Onların sonralar öz torpaqlarının sahibi olmağını görürəm. Onları zəncirlərə bağlayan şey əsrlərlə itəcək. Xeyir qələbə qazanacaq və insanlar xoşbəxt yaşayacaqlar". (2020-ci il sentyabrın 27-si)

### *2022-ci il: Vanqa nə deyib?*

Adalet.az xəbər verir ki, Vanqanın 2022-ci il üçün 6 öngörüsü ortaya çıxıb. Həmin öngörüləri Türkiyənin Hürriyet.com saytına istinadən təqdim edirik:

**1. Təbii fəlakətlər - zəlzələ və sunamilər**

2004-cü ildə Hind okeanında 200 mindən çox insanın həyatını itirdiyi zəlzələ və sunamidən xəbərdar olan Vanqa 2022-ci il üçün də eyni proqnoz verib.O, oxşar təbii fəlakətin Avstraliya ilə yanaşı, bir çox Asiya ölkələrində də baş verəcəyini irəli sürüb. Bu bölgələrdə sel fəlakətlərinin yaşanacağı proqnozlaşdırılır. Vanqa Hindistanda temperaturun 50 dərəcəyə qədər yüksələcəyini proqnozlaşdırıb. Onun bu proqnozlarından belə ehtimal edilir ki, çəyirtkə və buna bənzər canlılar tarlaları zəbt edərək məhsullara zərər verəcək.



**2. Ölümcül virus ortaya çıxacaq**

Sibirdə ölümcül bir virus ortaya çıxacaq. Donmuş ərazidə gizlənən ölümcül virusun qlobal istiləşmə ilə birlikdə ortaya çıxacağı qeyd edilib. Virusun yayılacağı və tez də nəzarətdən çıxacağı proqnozlaşdırılır.

**3. İçməli su böhranı**

Vanqanın gələn il üçün proqnozları arasında içməli su böhranı da var.Vanqanın proqnozlarına münasibət bildirən ekspertlər bir çox şəhərlərdə içməli su qıtlığının yaranacağını, əhalinin sayının artması və çirklənmə səbəbindən su probleminin kəskinləşəcəyini bildiriblər.( Ölkəmizdə artıq Xəzər dənizində və Kür çayında su səviyyəsinin görünməmiş həddə enməsi prosesi gedir)

**4. Yadplanetlilər hücum edəcək**

Bir müddətdir gündəmdə olan "Oumuamua" adlı meteorit həm forması, həm də marşrutu ilə elm adamlarında maraq oyadıb. Vanqanın kəhanətlərini şərh edənlər bu meteoritin yadplanetlilər tərəfindən göndərildiyini və onların Yerdəki həyatı öyrənmək üçün gəldiklərini ehtimal edirlər.

**5. Qıtlıq yaşanacaq**

Vanqa dünyanın ən çox əhalisinə sahib ölkələrdən biri olan Hindistanda kütləvi qıtlığın olacağını proqnozlaşdırıb.

**6. Virtual reallıq**

Vanqanın "İnsanların bədəni dik olmayacaq, donqarlı olacaq" sözlərini dəyərləndirən mütəxəssislər bunun virtual reallıq - insanların planşet və telefonların qarşısında çox vaxt keçirməsinin nəticəsi olacağını hesab edirlər.

Qeyd edək ki, bundan öncədə onun 11 sentyabr hadisələri, 2004-cü ildə minlərlə insanın həyatına son qoyan sunamidən "brexit"ə qədər bir çox proqnozu reallaşmışdı. O, 2020-ci ildə Avropanın iqtisadi vəziyyətinin pisləşəcəyini də demişdi. 2021-ci il dünyanı cənginə alan koronavirus pandemiyası dünyanın bir çox ölkələrinə olduqca böyük maddi ziyan vurub. İş yerlərinin fəaliyyəti dayanıb, sərhədlər bağlanıb. Nəticədə həqiqətən də ölkələrə külli miqdarda maddi ziyan dəyib.

**Amma unutmayın! Yerin, göyün, bəşəriyyətin bir yaradıcısı da var!**

**Əntiqə Rəşid**

# Şairin doğumu və ölümü

***Bu günlərdə fəlsəfə doktoru, yazıçı - ədəbiyyatşünas, dosent Allahverdi Eminovun və fəlsəfə doktoru, pedaqoq, dosent Polad Mədədovun "Nizami Gəncəvi haqqında oçerklər" monoqrafiyası "Elm və Təhsil" nəşriyyatında, professor, filologiya elmləri doktoru Nadir Məmmədlinin redaktorluğu ilə çap olunmuşdur (2021).***

***Müəlliflər fərdi üslublarına xas elmi təhkiyə ilə oxucularla fikir və mülahizələrini bölüşmüşlər.***

***Kitabdan aşağıdakı parçanı oxuculara təqdim edirik:***

***Təqdim etdi: Aynur Heydərova***

Doğum və Ölüm danışıqsız həqiqətdir, yeganə doğruluqdur. Doğum və Ölüm labüddür, ilkini sevinc gətirir, sonu kədər. Amma hər ikisi bir-birini tamamlayır. Doğum və Ölüm ömrün qoşa qanadıdır. Ədəbiyyatda və əbədiyyətdə kəsişirlər.

İllər ötür doğulan cocuq böyüyür, cəmiyyətdə yerini tutur, ya məşhurlaşır, mənsəb sahibi olur, yaxud adi bir insan, layiq haqqından məhrum vətəndaş. İllər, zaman tələsir, yaradıcılıq fəhmi onun qismətinə düşmüşsə yazıb - yaradır, böyük əsərlər hasilə gətirir. İllər, nəhayət yorulur, bir insanı yaşatmaq üçün taqəti, hövsələsi çatmır, vidalaşmaq istəyir, məqam axtarır və tapır.

Bir gün şair (yaxud rəssam, musiqiçi) doğulduğu, gəzib - dolandığı yerləri bir daha görmək istəyir, dizində taqəti qalıbdır, gözlərində işığı, ürəyində sözləri...

Hava açıqdır, qıvrım ağ buludlar günəşin şəfəqlərinə tab gətirməyib sulanırdı. Külək buludları parçalayır, üzü cənuba aparırdı. Biçənəklərdə çalınmamış otların nazik yarpaqlarının üstündə açıq yaşıl ləkələr parıldayırdı. Xeyli uzaqda çırpılardan, qurumuş budaqlarından tonqal qalamışdılar. Yanmış yarpaqların qoxusu yayılırdı. Köz düşmüşdü - qızılgülü andırırdı. Diqqətlə baxanda firəng toyuqlarının qızılı gözü kimi köz düşmüşdü. Şair tonqala yaxınlaşdı, əlini uzatdı, canına istilik keçmədi, üşüdü. Nəydi bu? Bəlkə kədərli qadın mərhəmətinin uzaqda qalan əks -sədası idi? Ağır və azğın nəvazişlərin yoxluğu idi?

Şairlər xəyalpərəst olurlar, xatirələrdən üzülmürlər.

... Qadın əyilib üstündə gülləri solmamış budaqcığı götürüb burnuna apardı, yaylığı çiyinlərindən asılmışdı, asta meh yelləndirdi.

Parlaq qara saçları görünürdü. Şal kölgə saçlarında qara zolaq açmışdı. Ətrafına boylandı. Hüznlü ağacların yarpaqlarını günəş şüası qarsıtmışdı, qurumuş torpağı çatladıb çıxan tikan kollarına toxunub krujeva toxuyurdu. Asta-asta yeriyir, donunun ətəyi xışıldayırdı.

Şair sanki yatmışdı, silkələndi, tonqal sönməkdə idi, od - alov saçan kösövlər parçalanmışdı, istiliyi ona çatmırdı. Bu halətə hirslənmədi, gülümsəməklə cavab verdi. Yaddaşında bir-birinə dolaşan misralar onu ağrıdır, ürəyinə toxunub sızladırdı. Donub qalmışdı, sehrlənmişdi. Yaddaşında bir şey oyanmışdı, səslənmək istəyirdi. Şairin bədəni uçundu, gözlərini qapadı: O idi, Şərq bədiiyyatına səs salan, neçə şairin yuxusunu - xəyalını pəjmürdə qoyan Şirin idi! Şair neçə illər qəlbinə sıxdığı bu türk qızına əlini uzatdı, o isə əlini özünə çəkdi. Xatırladı ki, pəhləvan cüssəli, nazik ürəkli, sevən Fərhad Şirinə söz vermiş ki, Büsutun dağını onun eşqilə par-çalayıb yol açır: Fərhad ülvi eşqilə Şirinin qəlbinə hakim kəsiləcəkmi? Könlünü ilk məhəbbətinə, bu eşqin yaratdığı ideal hissə təslim edəcəkdimi? Bunu bacaracaqmı? Bəlkə Şirin mənəvi - ruhi təzadla üz-üzə dayanıb Xosrova əlini uzadacaqmı?

Şair kəsilmiş ağac kötüyünün üstündə könülsüz oturdu, uşaqlığında bu ağacın budaqlarını çox qırmış, at kimi minib çapmışdı. Bəlkə həmin qırılmış budaqlarının - övladlarının xiffətindən qurumuşdur, əzablarına son qoymaq üçün kəsmisdir canıyanan kimsə.

Şair qərarını vermişdi: Şirinin Xosrova olan ilk məhəbbəti hökmdarı çirkablardan təmizləyəcəkdi, eşqin ucalığını sübuta yetirəcəkdi. Elə də hərəkət edir, tədricən özünə qayıdır, özünü dərk edir, yüksək əxlaqi keyfiyyətlər qazanır, axı o, daxili hisslərini çirkab suyunda çimizdirib Şirinlə bir yatağa baş qoya bilməzdi. Xosrov hünərilə psixoloji durumunu təmizləyir...

Şair ayağa qalxdı, Şirin gözləyirdi şair nə vaxt öz iş otağına qayıdacaq, onun taleyini qələmə alacaq. İstərdi nəinki həmvətənləri, şərqli oxucular bu poetik dastanla tanış olsunlar, Fərhadın nakam məhəbbətinə, hansıki zülmətlə işığın arasında qalan bir gəncin taleyini yaddaşlarına köçürsünlər. Elə də oldu, Şirindən səkkiz əsr - 800 il bir azərbaycanlı türk qadını Azadə Rüstəmova yazacaqdı: "Fərhad günəş hərarətli idi. Fərhad eşqi Eşqin ideal dərəcəsi idi.

**Günəş və işıq. Hər kəsi özünə cəlb edir: Qaranlıqda işıq axtarmaq - hünər bax - burdadır. Zülmətə nur çiləmək böyük hünər tələb edir. Nizami "Xosrov və Şirin" əsərini işlərkən bədii amalını həll etmək istəmiş və dahiyanə surətdə onun öhdəsindən gəlmişdir". Bu xanım - alim bəlkə də Şirinin törəyən nəslindəndir - belə həssaslığa Şirin - Xosrov dastanına qiymət vermişdi. Azadə xanımın cavanlığını xatırlayıram (Allahverdi Eminov): Şirin biçimində, Şirin yerişində, Şirin sevgisində görmüşdüm... Bir də yaşa dolanda, hər iki yaşında təravətini, səmimiyyətini, intellektini itirməmişdi...**

## *ZƏLİMXAN YAQUBUN YENİ KİTABI NƏŞR OLUNUB*

**Xalq şairi Zəlimxan Yaqubun yeni kitabı işıq üzü görüb. "Türkün taleyi" adlı bu kitabda ölməz söz ustadının böyük Türk dünyasına dərin məhəbbətdən doğan və təkcə Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda da sevilə-sevilə oxunan şeirləri və "Mövlana", "Yunus Əmrə dastanı", "Aşıq Veysəl dünyası", "Turan sevgisi", "İçimdə ağlayan Krım", "Çanaqqala dastanı" və "Bir kövrək havadı sazımda Kərkük" poemaları yer alıb.**




Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İB, "Nəfəs" İB və Regional Hüquqi və İqtisadi Maarifləndirmə İB tərəfindən reallaşdırılan layihənin rəhbəri və ön sözün müəllifi Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva, kitabın tərtibçisi və redaktoru Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, məsləhətçilər "Beynəlxalq "Alaş" mükafatı laureatı Əkbər Qoşalı və "Nəfəs" İB-nin sədri Firəngiz Balakişiyeva, buraxılışa məsul isə Regional Hüququ və İqtisadi Maarifləndirmə İB-nin sədri Arzu Bağırovadır.

Xatırladaq ki, kitabın ilk təqdimatı noyabr ayının sonlarında Türkiyənin paytaxtı Ankara şəhərindəki "Türk Ocaqları" Baş Qərəragahında keçirilib.

## *Fit bədən quruluşlu xalq artisti məftun etdi*

**Xalq artisti Aygün Kazımova son zamanlar fotolarını sosial şəbəkə hesabında tez-tez nümayiş etdirir.**



Adalet.az xəbər verir ki, müğənni yeni fotolarını da şəxsi "Instagram" səhifəsində paylaşıb.Fotolardan göründüyü kimi xalq artisti görünüşündə ciddi dəyişiklik edib. O, fit bədən quruluşu isə diqqətdən kənarda qalmayıb. Xalq artisti fotolarına "Geri sayım başladı" şərhini əlavə edib.

Qeyd edək ki, Xalq artisti bir müddət əvvəl koronavirusa yoluxmuşdu. O sağlam həyata geri döndükdən sonra idmana sarılmışdı və bu barədə onun videogörüntüləri də sosial şəbəkələrdə yayılmışdı.

## *"Yasak Elma"nın reytinqi əvvəl 2, indi də 3-cü yerə düşdü: SƏBƏB*



**"FOX"un reytinqlərdə ilk sırada yer alan serialı "Yasak elma" Azərbaycan tamaşaçısının sevə-sevə izlədiyi seriallardan biridir.**

Adalet.az türk mediasına istinadən xəbər verir ki, 13 dekabr akşamı yayınlanan "Yasak Elma"nın 124-cü bölümü bütün kategoriyalarda bir sıra geriləyib və yerdə bərqərar olub.

Beləki, Türkiyədə radio və televiziya yayımını dəstəkləyən RTÜK beş mövsümdür yayımlanan ən reytinqli seriallardan olan "Yasak elma" ilə bağlı cərimə tətbiq edib.

Qurum ekran işinin son bir neçə bölümündəki ailədaxili münasibətləri ətraflı analiz edib. Qeyri-qanuni əlaqələrin "əyləncə" adı altında təqdim edilməsi, mənfi sosial anlayış olan "məşuqəliyin" normal hal kimi əks olunması, hətta uşaqlı səhnədə bu cür ifadələrin işlədilməsi, qadınların xəyanətə məruz qalması qurum tərəfindən uyğunsuz hesab edilib.

**Qeyd edək ki, RTÜK bütün sadalananları ölkənin əxlaq, milli-mənəvi dəyərlərinə uyğun gəlmədiyini, ailədaxili münasibətləri zədələdiyini əsas gətirərək serialın yayımlandığı "Fox" telekanalını cərimələyib.**

Əntiqə Rəşid

## *750-ci qol Musadan gəldi*




**"Qarabağ" Azərbaycan çempionatlarında 750-ci ev qoluna imza atıb.**

Qol.az xəbər verir ki, bu, Premyer Liqanın XIV turuna təsadüf edib. "Zirə" ilə görüşdə (2:0) vurulan ikinci qol yubiley xarakteri daşıyıb.

Bu topa Musa Qurbanlı imza atıb. "Qarabağ" 750-ci qolu 413-cü ev oyununda vurub.

Qeyd edək ki, "Qarabağ"ın evdəki ilk qolunun müəllifi Mehman Alışanovdur. 1992-ci mayın 3-də Sabirabad "İnşaatçı"sının (1:2) qapısına qol vuran futbolçu həm də ölkə çempionatlarının tarixinin birinci topuna imza atıb.

Şəmkir rayonu Keçili kənd Bələdiyyəsi tərəfindən Abbasova Mahirə Səməd qızının adına verilmiş 26.12.2001-ci il tarixli 12 saylı əmri ilə torpaq sahəsinə aid qərarın əsli, qəbz və alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

***

Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 saylı qərarı ilə Musayev Fikrət Qafur oğlunun adına verilmiş A N 057001 nömrəli 699 kv.m fərdi yaşayış evi tikmək üçün torpaq sahəsinin plan ölçü sənədləri itdiyi üçün etibarsız sayılır.

***

"Məhsul N.E.M" MMC-yə məxsus möhür itmişdir. Qeyd olunan möhür 15.12.2021-ci il tarixindən etibarsız hesab edilsin.

***

Azərbaycan Turizm və Menecment Universiteti , Turizm və otelçilik ixtisası, Turizm və qonaqpərvərlik fakültəsi, IV kurs tələbəsi Murad Hacı oğlu Sultanovun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Samara Şirzat qızı barəsində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış ölüm haqqında akt qeydi itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi **Fəzail İsmayıl Böyükkişiyə** yaxın qohumu

**Cəfərova Firuzə Mustafa qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 146
Çapa imzalanmışdır:
17.12.2021